Xalqın qəzeti!
# Xalq qəzeti
№ 98 (30792) 14 may 2025-ci il, çərşənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycanın beynəlxalq aqrar təqdimatı




Səhifə ⇨ 2

## Ermənistanda şovinizm dövlət siyasətidir

**Ermənistanın baş naziri Nikol Paşinyan mayın 9-da Böyük Vətən müharibəsindəki qələbənin 80 illiyi ilə bağlı təbrik məktubunda faşizmin xüsusiyyətlərini vurğulamış və bu zaman bir millətin özünü digərindən üstün tutmasına dair xarakterin üzərində dayanmışdı. Məlumdur ki, Cənubi Qafqaz coğrafiyasına köçmüş haylarda bu cəhət daim nəzərə çarpıb. İşğala, qəsbkarlığa, terrora və təxribata köklənmiş avantürizm məhz erməni millətçilərinin mənsub olduqları qövmü, belə demək mümkünsə, göylərə qaldırmaq ədasından da qaynaqlanıb.**

Ermənistanın Azərbaycan torpaqlarına hücumu, işğal faktı və bir milyona yaxın dinc azərbaycanlının öz doğma yurd-yuvasından didərgin salınması ölkənin faşizmi dövlət siyasətinə çevirməsinin nəticəsidir. Hazırda işğal bitib, dövlət suverenliyimizi bərpa etmişik, ancaq İrəvan Bakı ilə sülhə gəlmək istəmir. Daha doğrusu, ölkə gələcək qarşıdurmalar üçün mənbə, tutacaq yer saxlamağa çalışır. Ona görə də Azərbaycanın barış mühitinin fundamentallığı baxımından irəli sürdüyü iki şərti qəbul etmək istəmir. Söhbət Ermənistan konstitusiyasının işğalçı mahiyyətli İstiqlaliyyət bəyannaməsindən xilas edilməsindən və ATƏT-in Qarabağ münaqişəsi və ərazi iddiası məntiqini özündə saxlayan Minsk qrupunun rəsmən ləğvindən gedir.



Əlbəttə, erməni avantürizmindəki faşizm elementlərinin bir çox təzahür formaları var. Ancaq hesab edirik ki, Paşinyan təbrik məktubunda bunlardan ən başlıcasını vurğuladı. Reallıq budur ki, erməni qövmü ətrafında özündən başqa heç bir xalqı görmək istəməyib və istəmir. Görmək istəmədiyi üçün vaxtilə Ermənistandakı azərbaycanlılar deportasiyaya məruz qalmışdı. Özü də bu siyasət illər ərazində davamlı şəkildə reallaşdırılmış, ən yüksək səviyyəsinə 1988-1991-ci illərdə çatmışdı.

Bu gün Ermənistan postsovet məkanında ən az etnik müxtəlifliyə sahib ölkələrdən biridir və burada təkcə azərbaycanlıların sıxışdırılmasından söhbət getmir. Ölkədə digər azlıqların sayı da əhəmiyyətli dərəcədə azalıb. Üstəlik, bəzi beynəlxalq təşkilatların Ermənistanı monoetnik siyasət aparmaqda və etnik təmizləmə halları ilə bağlı məsuliyyətdən yayınmaqda ittiham etdikləri məlumdur. Amma...

*(ardı 5-ci səhifədə)*

## Qlobal güc paritetinin dəyişən koordinatları



Səhifə ⇨ 9

## "Odlar yurdu" Orta Dəhlizin hərəkətverici ölkəsidir

### Bu beynəlxalq marşrut Azərbaycanın logistik imkanlarına geniş qapı açır



**Avropa Yenidənqurma və İnkişaf Bankının bugünlərdə yaydığı "Regional iqtisadi perspektivlər" adlı hesabata əsasən, Orta Dəhliz vasitəsilə ticarət respublikamızın logistika sektoru üçün əlavə imkanlar yarada, regionda yeni ticarət marşrutlarının açılmasına və investisiyaların cəlb olunmasına vəsilə ola bilər.**

Qeyd edək ki, Orta Dəhliz regionun bir neçə ölkəsindən keçən və Asiyanı Avropa ilə birləşdirən nəqliyyat və ticarət yoludur. Bu, ənənəvi Şimal və Cənub dəhlizlərinə alternativdir.

*(ardı 12-ci səhifədə)*

## 9 May və hay nankorluğu



Səhifə ⇨ 8

## Ermənistan BMT tribunasında: görüntü var, məzmun yox

**Son zamanlar Ermənistan müdafiə naziri Suren Papikyanın xarici səfərlərinin intensivləşməsi diqqəti çəkir. Papikyan son iki il ərzində Fransa, Yunanıstan, ABŞ kimi NATO-ya üzv ölkələrə intensiv səfərlər edib. Xüsusilə, Fransa ilə hərbi və hərbi-texniki əməkdaşlıq çərçivəsində silah alışına dair yeni razılaşmalar əldə edildiyi bildirilir.**

Ermənistan müdafiə nazirinin səfərlərinin xronoloji ardıcıllığına baxdıqda onun 2023-cü ilin oktyabrında Fransaya, noyabrında Hindistana, 2024-cü ilin fevralında Almaniyaya, martında İrana, aprelində ABŞ-a və Belçikaya (NATO-nun mənzil-qərargahına), 2025-ci ilin fevralında Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün yenə Almaniyaya və mayında Yunanıstana səfər etdiyini görmək mümkündür.



*(ardı 8-ci səhifədə)*

## PKK silahı yerə qoydu: Bəs bundan sonra proses necə davam edəcək?



Səhifə ⇨ 10

## Ziddiyyətlərin kölgəsində İran və ABŞ ortaq nöqtə axtarır



Səhifə ⇨ 9

## Türkologiya Turan birliyinin təməl daşıdır



Səhifə ⇨ 13

# Azərbaycanın beynəlxalq aqrar təqdimatı

## Prezident İlham Əliyev "InterFood Azerbaijan" və "Caspian Agro" sərgiləri ilə tanış olub
















**Mayın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində XXX Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" və XVIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" sərgiləri ilə tanış olub.**

Artıq milli brendə çevrilmiş "InterFood Azerbaijan" və "Caspian Agro" sərgiləri kənd təsərrüfatı və qida sənayesi sahələrində Xəzər regionunun ən böyük sərgiləridir. Bakı Ekspo Mərkəzinin bütün pavilyonlarını, həmçinin açıq sahəsini əhatə edən və mayın 16-da başa çatacaq "InterFood Azerbaijan" və "Caspian Agro" sərgilərində 31 ölkədən 450 şirkət iştirak edir. İştirakçı və ziyarətçilərin istəkləri nəzərə alınaraq, bu il sərgilər 4 gün davam edəcək.

Sərgilərin coğrafiyası dünyanın bir çox yerini əhatə etməklə, olduqca genişdir. Burada ABŞ, Çin, Qazaxıstan, Özbəkistan, Rusiya, Türkiyə və digər ölkələrin aparıcı kənd təsərrüfatı istehsalçıları məhsullarını nümayiş etdirirlər. Qeyd edək ki, Almaniya, Belarus, Cənubi Koreya, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, eləcə də ilk dəfə olaraq Misir sərgilərdə milli qruplar şəklində təmsil olunur.

Dövlətimizin başçısı İtaliyanın stendi ilə tanış oldu. "İtaliya Respublikasının Milli Qrupu"nda ümumilikdə 7 şirkət təmsil olunur. Onlar müxtəlif kənd təsərrüfatı məhsullarını təqdim edirlər. İtaliya bu sərgilərə böyük maraq göstərən ölkələrdəndir. Odur ki, bu ölkə 10 ildən çoxdur ki, sərgilərdə iştirak edir.

Bu il "InterFood Azerbaijan" sərgisi öz 30 illik yubileyini qeyd edir. Ötən illər ərzində 50-dək ölkədən 3 mindən çox şirkət və 150 mindən artıq ziyarətçini qəbul edən sərgi səmərəli biznes platforması statusunu qazanıb. Burada təqdim olunan yeni texnologiyalar və innovativ həllər qida sənayesi sahəsinin inkişafına və biznes əlaqələrinin genişləndirilməsinə əlverişli imkanlar yaradır. Eyni zamanda, sərgi ərzaq təhlükəsizliyinin əsas aspektlərini əhatə edərək, onun gücləndirilməsinə də töhfə verir.

Almaniya da sərgidə mütəmadi olaraq iştirak edir. "Almaniya Milli Qrupu"nda kənd təsərrüfatı məhsullarını təqdim edən 8 şirkət təmsil olunur. Bu şirkətlər yalnız Almaniyada deyil, kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində dünyanın tanınmış şirkətləridir. Qeyd edək ki, Almaniya 5 ildir ki, sərgilərə qatılır.

Sərgilər Kənd Təsərrüfatı Nazirliyinin təşkilati dəstəyi ilə keçirilir. Eyni zamanda, sərgilərə Qida Təhlükəsizliyi Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi, Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Qida və İçki Sənayeçiləri Assosiasiyası, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası fəal şəkildə dəstək verir.

Cənubi Koreyanın stendində 3 şirkət təmsil olunur. Onlar kənd təsərrüfatı məhsulları sahəsində tanınmış şirkətlərdir. Bu şirkətlər meyvəsoyma və emal avadanlıqları, meyvə-bağçılıq materialları üzrə ixtisaslaşıblar. Eyni zamanda, şirkətlərin biri süni intellektə əsaslanan sistemlə ağıllı heyvandarlıq monitorinqi və idarəetməsi



sahəsində xidmətlərini təklif edir. Cənubi Koreya artıq ikinci ildir ki, sərgidə iştirak edir.

Kənd Təsərrüfatı Nazirliyi bu il də sərgilərdə stendlə iştirak edir. 2025-ci ildə nazirliyin iştirakının əsas mövzusu süni intellektin kənd təsərrüfatında tətbiqi ilə bağlıdır. Belə ki, dövlətimizin başçısının tapşırığına uyğun olaraq süni intellektin kənd təsərrüfatında tətbiqi prioritet kimi müəyyən olunub. Sərgilər çərçivəsində Nazirlik süni intellektin tətbiqi ilə bağlı bir neçə layihəni iştirakçılara təqdim edəcək. Hazırda gündəmdə olan əsas məsələlərdən biri Azərbaycan universitetlərində süni intellekt istiqamətində təhsil alan tələbələr və bazarda olan böyük aqroparklar arasında sinerjinin yaradılmasıdır.

Prezident İlham Əliyev Gürcüstanın stendi ilə də tanış oldu. "Gürcüstan Milli Qrupu"nda 8 şirkət var. Onlar əsasən qida məhsullarını təqdim edirlər. Gürcüstan da bu sərgilərə böyük maraq göstərir. İndiyədək bu ölkə 10 dəfə sərgilərdə təmsil olunub.

"Caspian Agro" kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma sistemi, qablaşdırma, kənd təsərrüfatında innovasiya texnologiyaları, heyvandarlıq və quşçuluq, baytarlıq, bitkiçilik, meyvə və tərəvəzlərin yetişdirilməsi, gülçülük, tullantıların emalı, logistika, elektron kənd təsərrüfatı kimi sahələri əhatə edir. Buraya kənd təsərrüfatı sənayesinin aparıcı iştirakçıları, yerli və xarici ekspertləri, o cümlədən idxalçılar, ixracatçılar, məhsulların distribütorları, topdan və pərakəndə ticarət nümayəndələri, həmçinin fermerlər də daxil olmaqla minlərlə peşəkar toplaşır.

Ekspozisiyada "Smart Agro" istiqaməti üzrə süni intellekt, ağıllı kənd, startaplar, İT xidmətləri, robototexnika, pilotsuz uçuş aparatları və "green agro" bölmələri də yer alır.

Sərgilər "Made in Azerbaijan" brendinin təşviqi üçün əlverişli platforma rolunu oynayır. Ötən il olduğu kimi, bu il də "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri çərçivəsində iştirakçılar bu brend altında məhsullarını nümayiş etdirirlər.

Uzun illərdir ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi sərgiləri fəal şəkildə dəstəkləyir, kiçik və orta sahibkarların tədbirlərdə iştirakı üçün stend təşkil edir. Şirkətlər bazarın yenilikləri ilə tanış olur, sahənin aparıcı liderləri ilə əlaqələr quraraq, inkişaf edir.

Belarus da sərgilərə böyük maraq göstərən ölkələrdəndir. Milli stenddə qida məhsulları istehsal edən 15 şirkət təmsil olunur. Onlar pendirin, ətin qablaşdırılması və emalı, süd sənayesi kimi sahələrdə ixtisaslaşmış şirkətlərdir. Bundan başqa Belarusun kənd təsərrüfatı texnikası da sərgidə geniş təmsil olunur. Qeyd edək ki, 10 ildən çoxdur bu ölkə sərgilərdə iştirak edir.

Prezident İlham Əliyev sərgilərin açıq hissəsində nümayiş etdirilən texnika və pavilyonlarla tanış oldu. Sərgilər Azərbaycanın kənd təsərrüfatı və qida sənayesinin inkişafına dəstək verərək, ölkənin ixrac potensialının artırılmasına, xarici investisiyaların cəlb edilməsinə imkan yaradır, eyni zamanda, qida təhlükəsizliyi və innovativ həllərin tətbiqi üçün əlverişli platforma rolunu oynayır. Sərgilərin miqyasını və sərgi çərçivəsində keçirilən tədbirlərin zəngin proqramını nəzərə alaraq, "Caspian Agro" və "InterFood Azerbaijan" 2026-cı ildən etibarən yeni "AgriWeek" brendi altında keçiriləcək.

# Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin milli müdafiə nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edib.**



Dövlətimizin başçısı İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə bağlı təbriklərini çatdıraraq, bununla əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etdiyini vurğuladı. PKK terror qruplaşmasının özünü ləğv etməsini tarixi hadisə adlandıran və bizi də sevindirdiyini deyən Azərbaycan Prezidenti bu məsələdə Türkiyə Prezidentinin siyasi iradəsinin ən başlıca rol oynadığını qeyd etdi. Bununla yanaşı, dövlətimizin başçısı vurğuladı ki, Türkiyə dövlətinin gücü, qardaş ölkənin silahlı qüvvələrinin terrorçularla peşəkarcasına mübarizə aparması, Türkiyə cəmiyyətindəki birlik də terror qruplaşmasının bu addımı atmasında əsas amillərdəndir. Dövlətimizin başçısı dedi ki, bu, yalnız Türkiyə üçün deyil, ümumilikdə, bölgədəki xalqların sülh və əmin-amanlıq şəraitində yaşaması üçün önəmli məsələdir.

Təbriklərə görə minnətdarlığını bildirən Yaşar Gülər ilk növbədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Qonaq bir neçə il əvvəl Azərbaycan Prezidentinin güclü iradəsi ilə bölgədə erməni terrorçularına tarixi dərs verildiyini xatırladaraq qeyd etdi ki, Türkiyə terrorla 41 illik mübarizəni zəfərlə bitirdi. Yaşar Gülər bundan sonra Türkiyədə sülh olacağına əminliyini bildirdi və bu hadisənin bölgə üçün əhəmiyyətinə toxundu.

Türkiyənin milli müdafiə naziri qardaş Azərbaycanın Silahlı Qüvvələri ilə əlaqələri genişləndirmək üçün gələcəkdə də əllərindən gələni edəcəklərini dedi.

Söhbət zamanı Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında qurulmuş səmərəli əməkdaşlığa toxunuldu, bu xüsusda birgə hərbi təlimlərin uğurla keçirildiyi vurğulandı.

Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirildi, əlaqələrimizin daha da güclənməsində iki ölkənin dövlət başçıları arasında sıx münasibətlərin rolu vurğulandı.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Türkiyə Milli Təhlükəsizlik Şurasının Baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi Okay Məmişi qəbul edib.**

Dövlətimizin başçısı Okay Məmişin Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi təyin olunmasından sonra ilk səfərini ölkəmizə etməsinin əhəmiyyətinə toxundu və bu səfərin uğurlu olacağına ümidvarlığını bildirdi.

Okay Məmiş də öz növbəsində bu vəzifəyə təyin olunmasından sonra ilk səfərini qardaş Azərbaycana etməsindən məmnunluğunu diqqətə çatdırdı.

Söhbət zamanı ölkələrimiz arasında bütün sahələrdə qardaşlıq və müttəfiqlik əlaqələrinin dərinləşməsindən məmnunluq ifadə olundu. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında səmimi münasibətlərin əməkdaşlığımızın daha da genişlənməsi işinə böyük töhfə verdiyi vurğulandı.

Görüşdə ölkələrimizin bütün istiqamətlər üzrə, o cümlədən təhlükəsizliklə bağlı məsələlərdə uğurlu qarşılıqlı fəaliyyəti qeyd edildi.

***AZƏRTAC***

# Baş prokurorun qəbulu

**Mayın 13-də Baş prokuror Kamran Əliyev Qobustan Rayon Prokurorluğunun inzibati binasında Qobustan, Şamaxı, Ağsu rayon və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**



Qəbulda iştirak edən 21 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, “Elektron prokurorluq” informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# B.V.Əhmədovun Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin IV hissəsini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bəhruz Vidadi oğlu Əhmədov Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 may 2025-ci il**

# “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 65 (Cild I); 2024, № 2, maddə 171) 1-ci və 3-cü hissələrində “2025-ci” sözləri “2030-cu” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 may 2025-ci il**

# Zakir Həsənov Türkiyənin milli müdafiə naziri ilə görüşüb



**Mayın 13-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyənin milli müdafiə naziri Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyində təşkil edilən rəsmi qarşılanma mərasimində fəxri qarovul dəstəsinin önündən keçiddən sonra hər iki ölkənin Dövlət Himnləri səsləndirilib və protokola uyğun olaraq “Şərəf kitabı” imzalanıb.

Nazirlikdə keçirilən görüşdə Azərbaycan müdafiə naziri həmkarını salamlayıb və onu bir daha ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. General-polkovnik Z.Həsənov Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı çərçivəsində müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın hazırkı vəziyyətini və inkişafını müsbət qiymətləndirib.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən Y.Güler göstərilən səmimiyyətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Qonaq hərbi əlaqələrimizin möhkəmləndirilməsi üçün qarşılıqlı səfərlərin və bu cür görüşlərin keçirilməsinin vacibliyini qeyd edib.

Görüşdə, həmçinin hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

Həmin gün müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyənin Milli Təhlükəsizlik Şurasının Baş katibi Okay Məmiş ilə də görüşüb.



Türkiyəli qonağı salamlayan müdafiə naziri onu ölkəmizdə görməkdən məmnunluq ifadə edib. Dövlət başçılarının qardaşlıq və dostluq münasibətlərinin Azərbaycan və Türkiyə arasında əməkdaşlığa böyük töhfə verdiyini, məhz bunun sayəsində hərbi əlaqələrimizin bu gün yüksək inkişaf mərhələsində olduğunu bildirib.

General-polkovnik Z.Həsənov hər iki qardaş ölkənin hərbi qulluqçularının cəlb edilməsi ilə keçirilən birgə təlimlərin sayının cari ildə ötən ilə nisbətən artmasını xüsusi vurğulayıb.

Görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin regionda sülhün və təhlükəsizliyin təmin olunmasına müsbət təsiri xüsusi vurğulanıb, habelə maraq doğuran digər məsələlər müzakirə olunub.

***XQ***

# “Dostluğumuz ermənilərin gözünə tikan kimi batır”

## Milli Məclisin deputatı Anatoli Rafailov Azərbaycan–İsrail əməkdaşlığının sülhə və sabitliyə xidmət etdiyini deyir

**Yəhudilərin İsraildən sonra kompakt şəkildə yaşadıqları yerlərdən biri Azərbaycan, konkret desək, Quba rayonundakı Qırmızı qəsəbədir. İki xalq arasında dostluq münasibətləri tarixi köklərə malikdir. Bu iki xalq tarixin keşməkeşli məqamlarında bir-birinə həyan olub, sevinc və kədərlərini bölüşüb. Çağdaş dövrümüzdə isə bunun nümunələri yetərincədir. Qarabağ uğrunda döyüşlərdə digər xalqların nümayəndələri kimi, yəhudi gənclər də fəal iştirak edib, bu yolda canlarından keçənlər olub. Xalqlar kimi dövlətlər də münasibətləri inam, səmimiyyət, ənənələrə sadiqlik üzərində qurmağa üstünlük verirlər. İsrail və Azərbaycan arasında əlaqələr bütün sahələrdə dostluq və qarşılıqlı faydalı əməkdaşlığa söykənir. 60 saylı Quba – Qusar seçki dairəsindən Milli Məclisin deputatı, Azərbaycan–İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, “Şöhrət” ordenli Anatoli Rafailovla söhbətimiz bu, eləcə də gündəmə bağlı digər məsələlər barədədir.**

***– Hörmətli deputat, əminik ki, oxucularımız sizi daha yaxından tanımaq istəyir...***

– İxtisasca həkiməm. Deputat seçildiyim Quba və Qusar rayonlarında hamı məni həkim kimi tanıyıb. Deputat kimi görüşlərimdə vətəndaşlar digər məsələlərlə yanaşı, səhhətləri ilə də bağlı mənə müraciət edirlər. Əlbəttə, bu, ikiqat məsuliyyət deməkdir. Ailəmizdə hamı həkimdir. Görünür, taleyimizə belə yazılıb ki, daim insanların qayğısına qalmalıyıq. Uzun illər travmatoloq-cərrah işləmişəm və deputatlıqla həkimlik arasında bir bağlılıq görürəm. Bu gün yenə də insanların, seçicilərin üzləşdikləri problemləri özümünki bilirəm. Birinci Qarabağ müharibəsində cərrah kimi yüzlərlə yaralı əsgərimizin həyatını xilas etmişəm. 1990-cı illərin əvvəllərini xatırlayıram. Gənc həkim idim, elə vaxt olurdu ki, gün ərzində 10-12 saat fasiləsiz cərrahiyyə əməliyyatı aparmalı olurdum. Qarabağda ağır döyüşlər gedirdi, cəbhədən çoxlu yaralı gətirirdilər. Mən onda müharibənin insan taleyinə vurduğu ağır yaraların şahidi oldum. Bəzən bütün günü ayaq üstə qaldığımdan ayaqlarım şişirdi. Amma başa düşürdüm ki, dayanmaq olmaz. Axı, hər dəqiqə, hər saniyə kiminsə həyatı demək idi. İndi deputat kimi çalışsam da, şərəfli peşəmdən ayrılmamışam. Zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsində yaralanan əsgərlərimizin, qazilərimizin sağlamlıqlarını bərpa etmələri üçün əlimdən gələni edirəm.

***–Azərbaycan–İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi iki ölkə arasında münasibətləri necə dəyərləndirərdiniz?***

– Əvvəlcə onu qeyd etmək istəyirəm ki, İsrail 1991-ci il dekabrın 25-də Azərbaycanı rəsmən tanıyan ilk dövlətlərdən biri olub. 1992-ci il aprelin 7-də iki ölkə arasında diplomatik əlaqələr qurulub. 1993-cü ilin avqust ayından İsrailin Azərbaycanda səfirliyi fəaliyyət göstərir. Azərbaycanın İsrail dövləti ilə qarşılıqlı faydalı münasibətlərinin qurulmasında və bu əlaqələrin inkişaf etdirilməsində ulu öndər



Heydər Əliyevin xidmətləri danılmazdır. Heydər Əliyev İsraillə diplomatik əməkdaşlığın inkişafına xüsusi diqqət ayırmaqla yanaşı, beynəlxalq yəhudi lobbisi ilə Azərbaycan diasporu arasında əlaqələrin möhkəmlənməsinə də böyük önəm verirdi.

İsrailin Baş naziri Benyamin Netanyahu 1997-ci ildə Bakıya ilk səfərini etdi, ulu öndər Heydər Əliyevlə görüşdü. Həmin səfər Azərbaycanla İsrail arasında yaxınlaşmanın əsasını qoydu. O vaxtdan İsrail ilə Azərbaycan arasında yüksək etimada, dostluq və qardaşlığa söykənən əlaqələr mövcuddur. Şübhəsiz, dostluq əlaqələrinin və əməkdaşlığın yüksək səviyyəsi xalqlarımızın tarixi bağlılığının, bir-birinə bəslədiyi hörmətin və rəğbətin bariz ifadəsidir.

2009-cu il iyunun 28-29-da İsrail Prezidenti Şimon Peres Azərbaycana rəsmi səfərə gəlmişdi. Prezident İlham Əliyev iki ölkə arasında münasibətlərin uğurla inkişaf etdiyini, səfərin böyük əhəmiyyət daşıdığını qeyd etmişdi.

İkitərəfli əməkdaşlıq cənab Prezidentin dediyi istiqamətdə bu gün də inkişaf etməkdədir. 2016-cı ilin dekabrında Bakıya ikinci rəsmi səfərində Baş nazir Benyamin Netanyahu Azərbaycan–İsrail münasibətlərinin daha da yaxşı olacağını bildirmişdi. 9 il əvvəl Azərbaycanla İsrail arasında müxtəlif sahələrdə əməkdaşlığa dair 13 sənəd imzalandı. 2016-cı ildə İsrailin Akko şəhərində Azərbaycan dağ yəhudilərinin irsi üzrə koordinasiya mərkəzi açıldı ki, bu da ölkələr və xalqlar arasında mədəni əlaqələrin rəmzidir.

2023-cü il martın 23-də Azərbaycanın İsraildə səfirliyinin açılması ilə iki ölkə arasında diplomatik əlaqələr yeni mərhələyə qədəm qoydu. Prezident İlham Əliyev bu hadisəni iki dost ölkə arasında əlaqələrin yüksək səviyyədə olmasının göstəricisi kimi qiymətləndirdi. 2023-cü ilin mayında İsrail Prezidenti İsxak Hersoqun Azərbaycana rəsmi səfəri çərçivəsində imzalanan sənədlər iki ölkə arasında əməkdaşlıq perspektivlərini daha da artırmağa xidmət etdi. Dövlətimizin başçısı İlham Əliyevin keçən ay İsrail Dövlətinin milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident İsxak Hersoqa göndərdiyi məktubunda deyildiyi kimi, qarşılıqlı etimad və möhkəm təməllər üzərində qurulmuş Azərbaycan–İsrail münasibətlərinin dinamik və hərtərəfli inkişaf etməsi məmnunluq doğurur. Bir sıra mühüm sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın birgə səylərimizlə qarşıdakı dövrdə də yüksələn xətt üzrə inkişaf edəcəyinə, daha da möhkəmlənəcəyinə əminəm.

***– İsrail İkinci Qarabağ savaşında Azərbaycanın yanında olan, ümumiyyətlə, ölkəmizin haqq işini daim dəstəkləyən ölkələrdən biridir.***

– Bəli, İsrail hər zaman beynəlxalq hüquqa əsaslanaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və erməni işğalına qarşı çıxıb. Əgər belə demək mümkünsə, daim Azərbaycanın yanında olub, ona lazımi dəstəyi göstərib. 44 günlük Vətən müharibəsi, həm də 23 saatlıq lokal antiterror əməliyyatı zamanı Azərbaycanın mövqeyini açıq şəkildə müdafiə edən İsrail işğaldan azad edilmiş ərazilərin bərpası prosesinə, daha doğrusu, erməni vandalları tərəfindən xarabalığa çevrilmiş bölgənin dirçəlməsinə öz töhfəsini verməkdədir. Azərbaycan–İsrail əməkdaşlığı təkcə hərbi sahədə deyil. Sirr deyil ki, biz ölkəmizin təhlükəsizliyini təmin etmək üçün İsraildən ən yeni silahları alırıq. Onu da qeyd edək ki, iştirak etdiyimiz və ya iştirak imkanlarını müzakirə etdiyimiz digər layihələr su idarəçiliyi, bərpa olunan enerji mənbələri və kənd təsərrüfatı sahələri ilə bağlıdır.

***– Belə yüksək səviyyəli əməkdaşlığın erməni lobbisi tərəfindən qısqanclıqla qarşılandığı məlumdur. Onlar bu dostluğa xələl gətirməyə cəhdlər edirlər. Bu barədə nə deyə bilərsiniz?***

– Dünya miqyasında tanınan yəhudi lobbi təşkilatları qlobal müstəvidə Azərbaycanın maraqlarının təmin olunması üçün səy göstərir. ABŞ-dakı yəhudi lobbisi daim Azərbaycanın maraqlarını müdafiə edib. Yəni İsrail–Azərbaycan münasibətlərinin kökündə dərin, düşünülmüş, gələcək inkişafa və qarşılıqlı maraqlara söykənən siyasət durur. Müttəfiqlik əlaqələrinin gücləndirilməsi diaspor sahəsini də əhatə edir. Diaspor nümayəndələri də ikitərəfli münasibətlərin inkişafına mühüm töhfələr verirlər. Bu dostluğu, əməkdaşlığı kimsə poza və yaxud ona kölgə sala bilməz. Halbuki erməni diasporu neçə illərdir ki, iki ölkə arasındakı əməkdaşlığı zəiflətmək məqsədilə müxtəlif kampaniyalar həyata keçirir. Əgər xatırlayırsınızsa, bir müddət bundan əvvəl erməni diasporu Holokost soyqırımından sağ çıxan yəhudilərin indi, guya, Qarabağda yaşayan ermənilərin “soyqırımına şərik” olmalarını bildirmişdilər. Bu, ağ yalandır, azad olunmuş Azərbaycan ərazilərindən ermənilərin hamızı könüllü köçüb. Həmin proses bütün dünyanın gözü qarşısında olub. Orada nəyinki soyqırımı, heç bir erməninin burnu da qanamayıb, biz buna şahidik. Onlar rahat şəkildə əşyalarını yığıblar və öz şəxsi nəqliyyat vasitələrində köçüblər.

Dünyanın əksər ölkələrindən, o cümlədən Amerikadan və Fransadan olan bir çox tanınmış ravvinlər erməni təbliğatının Holokost mövzusundan istifadəsinə qarşı çıxdılar. Onların bu mövqeyi sinaqoqlarda da dəstəkləndi və bu addım, yəni Qarabağda ermənilərin “soyqırımı” ilə bağlı rəsmi Bakıya qarşı ittihamlar böhtan kampaniyası adlandırıldı. Hətta bildirildi ki, istənilən “müqayisə” Holokost qurbanlarının xatirəsinə təhqirdir. Nəticədə bu kampaniya bir nəticə vermədi və verməyəcək də. Ümumiyyətlə, xalqlarımız arasındakı səmimi dostluq münasibətlərinin eməniləri qıcıqlandırdığını, yaxın əlaqələrimizin onların gözünə tikan kimi batdığını yaxşı bilirik.

***– Bu yaxınlarda 50-dən çox ravvin ABŞ Prezidenti Donald Trampa “907-ci düzəliş”in ləğv olunması ilə bağlı müraciət ediblər. Sizcə, “907-ci düzəliş”in ləğvinə nail olmaq mümkündürmü?***

– “Azadlığı dəstək Aktı”na “907-ci düzəliş” ədalətsiz bir sənəddir. Bu, Birləşmiş Ştatların Azərbaycana dövlət yardımının qadağan olunmasını nəzərdə tutur. Milli Məclis ABŞ Senatının bu sənədi qəbul etməsinə qəti etirazını bildirib və ölkəmizi hədəfə alan hərəkətini şiddətlə qınayıb. Prezident İlham Əliyev isə bu il yanvarın 22-də Davosda konqresmen Conni Mur ilə görüşündə “907-ci düzəliş”in yenidən bərpasını Bayden-Blinken administrasiyasının nankorluğunun təzahürü kimi dəyərləndirib. Sözün düzü, bu gün özünün yüksəliş mərhələsində olan Azərbaycanın yardıma ehtiyacı yoxdur. Azərbaycan işğaldan azad edilmiş torpaqları öz gücünə bərpa edir. Bütün bunlara rəğmən, güman edirəm ki, ABŞ-ın digər yəhudi təşkilatlarının da Amerika liderinə müraciət etmələrinin müəyyən faydası olacaq.

***– Azərbaycanın malik olduğu multikulturalizm və tolerantlıq ənənələri barədə fikirlərinizi eşitmək maraqlı olardı...***

– Dünyanın bildiyi həqiqətdir ki, Azərbaycanda yaşayan, müxtəlif inancları olan millətlər, azsaylı xalqlar dini ayinlərini sərbəst şəkildə yerinə yetirirlər, ana dillərində təhsil alırlar. Halbuki dünyanın çox az sayda ölkəsində belə mənzərə ilə qarşılaşmaq mümkündür. Bu, Azərbaycan xalqına xas olan bir mədəniyyətdir. Tolerantlıq ən dar günümüzdə imdadımıza çatıb. İstər Birinci Qarabağ müharibəsində, istərsə də Vətən müharibəsində ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, yəhudisi də, ləzgisi də, talışı da, avarı da bir çağırışla Ali Baş Komandanın ətrafında “dəmir yumruq” kimi birləşərək erməni qəsbkarlığına qarşı vuruşublar. Birinci Qarabağ savaşında tankı ilə düşmənə qan udduran və qəhrəmanlıqla şəhadətə ucalan yəhudiəsilli Milli Qəhrəman Albert Aqarunovun şücaəti barədə bu gün hər kəs qürurla danışır. Döyüş dostları Alberti “Şuşanın əfsanəsi” adlandırırlar. Nə gizlədim, bir yəhudi olaraq onunla fəxr edirəm. Qarabağı azad etmiş bütün qəhrəmanlarımızla qürur duyuram.

Bəli, Azərbaycan bütün millətlərin, müxtəlif dinlərin nümayəndələrinin bir ailə kimi yaşadıqları nadir ölkələrdəndir. Dini və etnik zəmində çəkişmələrin çoxaldığı indiki dövrdə Azərbaycan dinlərarası və multikultural harmoniyanın nümunəsini göstərir - desək, səhv etmərik. Sonda onu da qeyd etmək istərdim ki, Prezident İlham Əliyev hər dəfə Qubaya gələndə dağ yəhudilərinin kompakt şəkildə yaşadıqları Qırmızı Qəsəbəyə – “Qafqazın Yerusəlimi”nə baş çəkir, sakinlərlə ünsiyyətdə olur, onların qayğıları ilə maraqlanır. Biz yəhudilər bu diqqət və qayğını daim hiss edir və dəyərləndiririk.

***Söhbəti qələmə aldı:***
***İmran BƏDİRXANLI***
***XQ***

---

# Radikal-revanşistlərin fəallığı Paşinyanın xeyrinə işləyir

**Ermənistan 2026-cı ildə keçiriləcək parlament seçkilərinə hazırlaşır. Seçkilərin vaxtı yaxınlaşdıqca ölkədə daxili siyasi gərginlik artır. Bu günlərdə Nikol Paşinyanın Ermənistanın sabiq prezidentlərini növbəti dəfə debata çağırması da parlament seçkilərinə hesablanıb. Robert Koçaryan və Serj Sarkisyanı “siyasi əkizlər”ə bənzədən Paşinyan deyib: “Sadəlövh auditoriyaları toplamağı və üzünüzdə ciddi bir ifadə ilə onlara nəsə deməyi dayandırın. Deyəcək sözünüz var? Yenə deyirəm, gəlin nə istəyirsinizsə, canlı yayımda danışaq! Qarabağla bağlı danışa bilərik, müharibənin vaxtının uzadılması barədə, ümumiyyətlə, nədən istəsəniz danışa bilərik.**

Nə vaxtadək gizli şəkildə orda-burda, müxtəlif qaranlıq künclərdə toplaşıb açıqlamalar verəcəksiniz? Robert Koçaryan, Serj Sarkisyan, Levon Ter-Petrosyan, nəsə demək istəyirsiniz? Yenə təkrar edirəm, gəlin canlı efirdə debat keçirək. Niyə imtina edirsiniz? Əgər Koçaryan, Sarkisyan və ya Ter-Petrosyanın deyəcəkləri nəsə varsa, yenə deyirəm, onları canlı efirdə debata dəvət edirəm – siz üçünüz, mən tək”.

Onun sözlərinə görə, keçmiş prezidentlər ölkənin hazırkı vəziyyətinə görə cavabdehlik daşıyırlar: “Bizi hakimiyyətə gələndə qaçılmaz olan vəziyyətə görə günahlandırmağa çalışırlar. Onlar deyirlər ki, mənimlə müzakirə edəcəkləri heç nə yoxdur. Sonra övladlarını, nəvələrini, nəticələrini, qayınanalarını, gəlinlərini, baldızlarını mətbuat konfransına göndərirlər. Mübahisə edəcək bir şeyiniz yoxdursa, susun. Hazırsınızsa, gəlin, danışaq. Əsəblərimizlə oynamağı dayandırın, sizi tapdalayacağam. Sizi divara sürtəcəyəm və siyasi cəsədlərinizin qalıqları oradan çıxarılacaq”.

Paşinyan sabiq prezidentlərin parlament seçkilərində şansının olmadığını da vurğulayıb. O, seçkilərdə qalib gəlmək üçün tərəfdaşlarına təbliğatı gücləndirməyi tapşırıb. Bu məqsədlə partiyanın fəalları bölgələrə gedəcək, zəif olduqları seçki dairələrində təbliğatı gücləndirəcəklər.

Artıq təbliğat kampaniyasına parlamentin sədri Alen Simonyan da qoşulub. Parlamentin sədri müxalifətin seçkilərində uğursuzluqla qarşılaşacağını, seçicilərin iqtidara səs verəcəyini bildirib. Spikerin sözlərinə görə, Robert Koçaryan və Serj Sarkisyan, eləcə də Artur Vanetsyan (Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru) və digər şəxslər qarşıdan gələn seçkilərdə iqtidarın qalib gəlməsinə kömək edəcəklər. Simonyana görə, bu adamlar efirə çıxan kimi hakimiyyətin reytinqi yüksələcək: “Vazgen Manukyan və arxiyepiskop Baqrat Qalstanyan da onlara qoşulsa, hakimiyyətin reytinqi daha 5 pillə yüksələcək”.



O qeyd edib ki, bunun səbəbləri var. Birincisi, Ermənistanın sabiq prezidenti Robert Koçaryan Rusiyanın maraqlarına xidmət edən və bu istiqamətdə fəaliyyət göstərən siyasətçidir: “Mənim siyasi bəyanatlar vermək hüququm var. Koçaryan Rusiyanın maraqlarına xidmət edən və yalnız bu istiqamətdə fəaliyyət göstərən siyasi xadimdir”.

Parlamentin sədri Serj Sarkisyanı isə səfil adlandırıb. Parlament müxalifətinin, xüsusən də Serj Sarkisyanın hazırkı hakimiyyətin nümayəndələrini “təslimçi” adlandırmasına cavab olaraq Simonyan deyib: “Belə olan halda Serj Sarkisyan “səfildir”. Onun hakimiyyəti dövründə ordu 80-ci illərin silahları ilə təchiz edilmişdi. Eyni zamanda, onlar özləri çətin yollar üçün nəzərdə tutulmuş 2007-ci ildə buraxılan avtomobillərdə gəzirdilər və malikanələrdə yaşayırdılar. Ona görə də, yaxşısı budur ki, danışsın. O, bizə bundan da çox fayda gətirə bilməz”.

Bəli, sabiq prezidentlər ölkəni talayaraq sərvət içində yaşayıblar. Bu da ikinci səbəbi yaradır. Çünki əhali kasıb yaşadığı bir dövrdə, Koçaryan hakimiyyətdə olduğu 1998–2008-ci illərdə ölkəni korrupsiya bataqlığına çevirib. Elə bu səbəbdəndir ki, Ermənistanın aktiv müəssisələrinin böyük əksəriyyəti Koçaryanın və digər dövlət məmurlarının əlində cəmləşib. Həmin şəxslər maliyyə axınının 90 faizini öz nəzarətləri altında saxlayıblar.

Erməni mediasının yazdığına görə, Koçaryan gəlir gətirən əsas sahələrə, yəni, gömrük, neft, benzin idxalı, metalların ixracı və aviadaşıma sahələrinə nəzarət edib. Bu sahələrdən əldə olunan gəlir bütünlüklə ona çatıb. O, həmçinin bir çox iri banklara, istehsal kombinatlarına, tibb və istirahət mərkəzlərinə, tikinti şirkətlərinə, mağazalar şəbəkəsinə sahibdir. Serj Sarkisyan ondan fərqlənməyib. Hakimiyyətdə olduğu dövrdə Ermənistanı talayıb, böyük sərvət toplayıb. Beləliklə, proseslər göstərir ki, Robert Koçaryan və Serj Sarkisyan əllərinə düşən fürsətdən lazımınca istifadə ediblər. Bu səbəbdən də haylar onları sevmirlər. Erməni toplumunun böyük əksəriyyətinin Paşinyan sevgisinin kökündə də onun Koçaryan və sarkisyanlardan fərqli olaraq, talançı, rüşvətxor və korrupsioner olmaması dayanır. Bundan başqa, sabiqlər ölkə iqtisadiyyatını çökdürüb, onu Rusiyadan asılı vəziyyətə salıb. Seçicilər də bu gün ölkənin düşdüyü vəziyyətə görə onları günahlandırır. Bu səbəbdən də sabiqləri və tərəfdarlarını o qədər də dəstəkləmirlər.

*

Alen Simonyan sonda müxalifətin ancaq sosial şəbəkələrdə fəal olduğunu deyib. O, sosial şəbəkələrdən kənarda həyatın olduğunu bəyan edərək, reallığın pul müqabilində təhrif olunduğu “Facebook”un məlumatlarına əsaslanmamağa çağırıb: “Mən başa düşürəm ki, xaricdən çoxlu pul xərclənir”, – deyə Alen Simonyan Rusiyanı nəzərdə tutduğunu təsdiqləyib. “Müxtəlif yerlər, xüsusən də Şimal qonşumuz Ermənistana qarşı hibrid müharibə aparır”.

Simonyan bu səylərin 2026-cı ildə Ermənistan Milli Məclisinə keçiriləcək seçkilərə qədər daha da güclənəcəyinə əmin olduğunu bildirib. “Mən bunu ucadan deməkdən belə qorxmuram: bütün bunlar əks effekt verəcək və Ermənistan Respublikasının hazırkı hökumətinin reytinqi ikiqat artacaq”.

O, Ermənistan xalqına güvəndikləri üçün Rusiyadan real çevriliş təhlükəsi görmədiyini də vurğulayıb. Parlament sədri hakim “Mülki müqavilə” partiyasının xalqla təmasda olacağına, 50 faiz+1 səs toplayacağına, vahid hökumət quracağına, islahatları davam etdirəcəyinə əminliyini ifadə edib: “Sorğular da göstərir ki, hakim partiya birinci yerdədir və əhali tərəfindən daha çox dəstəklənir... Əminəm ki, əgər seçkilər bu cümə günü keçirilərsə, “Mülki müqavilə” 50 faiz+ 1 səs toplayaraq qalib gələcək”.

Onun sözlərinə görə, 2026-cı ildə keçiriləcək parlament seçkilərində hakim partiyaya dəstək böyük ehtimalla daha çox olacaq: “Mülki müqavilə”nin Ermənistan vətəndaşlarına etdiyi və edəcəyi təklifin alternativi yoxdur. Biz xalqa öz sülh gündəmimizi təqdim edəcəyik və onlar seçim edəcəklər”.

Beləliklə, Hayastanda mövcud hakimiyyətlə keçmiş iqtidar təmsilçiləri arasında parlament seçkiləri öncəsi qarşıdurma və ziddiyyətlər getdikcə daha kəskin xarakter almağa başlayır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

(əvvəli 1-ci səhifədə)

# Ermənistanda şovinizm dövlət siyasətidir



"Əmma" ondadır ki, erməni avantürizmi Qərbin bəzi dairələrinə lazım olduğundan, heç vaxt ölkədə sistemli şəkildə aparılan etnik təmizləmə siyasətinə lazımi beynəlxalq reaksiya olmayıb, yalnız formal qeydlər nəzərə çarpıb. İkili yanaşma və riyakarlıq da elə budur. İndi ədalət müəyyən qədər yerini tutub. Ermənistandakı tarixi yurdlarına həsrət soydaşlarımız qalsa da, Azərbaycan Qarabağa sahiblənib və vətəndaşlarımız işğaldan azad edilmiş torpaqlarımıza dönürlər.

Yəni, ikili yanaşma və riyakarlıqlar qarşımızı kəsə bilməyib. Ancaq bu yanaşmanın təsirinə məruz qalanlar var. Söhbət Ermənistandakı digər azlıqlardan, konkret olaraq, yezidilər və kürdlərdən gedir. Yaxşı olar ki, "Qarabağda etnik təmizləmə" şousu düzəldən, Ermənistanın mövcud istiqamətdəki "təşəbbüslərinə" dəstək verən beynəlxalq dairələr rəsmi İrəvanın bu etniklərə qarşı həyata keçirdiyi siyasətdən danışsınlar. Amma danışmırlar və susurlar. Əksinə, onların demokratiya nağıllarına üstünlük verdiklərini görürük. Bir dövlətin mahiyyətində tayfa təfəkküründən qaynaqlanan prinsiplər əsasında davranma, digər xalqlarla dinc və birgə yaşam qaydaları yoxdursa, əlbəttə, onda demokratiklikdən əsər-əlamat ola bilməz.

Əlqərəz, Ermənistanda yaşayan yezidilər və kürdlər öz mədəniyyət və hüquqlarının tanınması üçün müxtəlif səylər göstəriblər. Sovet dövründə onlar eyni etnik qrup kimi qəbul olunurdular. Lakin 1980-ci illərin sonlarından etibarən yezidilərin özlərini kürdlərdən fərqli etnik olaraq tanıtdırmaq məramı daşıyan təşəbbüsləri olub. Sonradan bu təşəbbüsləri Ermənistan hakimiyyəti yerinə yetirib. Ancaq burada məqsəd bölücülük xətti nəzərə çarpıb.

Qeyd edək ki, 2023-cü ilin oktyabrında Ermənistanın Armavir rayonunun Aknalic kəndində yerləşən yezidi ziyarətgahında insident baş vermişdi. İraqdan gələn və özlərini kürd kimi təqdim edən şəxslərin dini təbliğatına qarşı çıxan yerli yezidi fəallar qarşıdurma yaratmışdılar. Nəticədə onların bəziləri həbs edilmişdilər. Həbslə üzləşənlər gələnlərin yezidiləri kürdləşdirmək və dini birliklərini pozmaq məqsədi güddüklərini vurğulamışdılar. Heç şübhəsiz, belə bir təmayül elə-belədən ortaya çıxmamışdı. Proses rəsmi İrəvan tərəfindən idarə olunmuşdu. Haqqında söz açdığımız bölücülük də elə budur.

Əvvəlki illərdə də Ermənistanda yezidilər öz hüquqlarının pozulmasına qarşı etiraz aksiyaları reallaşdırmışdılar. Məsələn, 2010-cu ildə İrəvanda keçirilmiş bir aksiyada iştirakçılar Ermənistanda müsəlman kürdlərin dialektində dərc olunmuş dərsliklərin yezidi kürdlərin təhsilinə mane olduğunu və milli haqlarının pozulduğunu bildirmişdilər. Onlar, həmçinin Ermənistan parlamentində öz nümayəndələrinin olmasını tələb etmişdilər.

Bundan başqa, ölkədəki yezidilərin sosial və təhsil sahəsində də çətinliklərlə üzləşdikləri məlumdur. 2017-ci ildə Armavir vilayətində 5 kənddə yezidi kürdlərin 32 uşağı məktəbə getməkdən məhrum olmuşdu. Qərar vilayət administrasiyasından verilən rəsmi cavabda da təsdiqlənmişdi. Bu hadisələr Ermənistandakı yezidi kürdlərin milli və dini kimliklərini qorumaq üçün göstərdikləri səylərin və qarşılaşdıqları çətinliklərin daha bir nümunəsidir. Nəzərə alaq ki, belə nümunələrin sayı az deyil.

Onu da bildirək ki, 2014-cü ildə Ermənistan hökuməti və Qarabağdakı keçmiş separatçı rejim İraqdan gələn yezidi kürdləri işğal olunmuş Azərbaycan ərazilərində yerləşdirmək niyyətində olduqlarını bəyan etmişdilər. O da məlumdur ki, bu addım Azərbaycan tərəfindən beynəlxalq hüququn pozulması kimi qiymətləndirilmiş və onun Cenevrə Konvensiyasının 49-cu maddəsinə zidd mahiyyəti açıqlanmışdı.

Son dövrlərdə Ermənistanda yezidilərlə bağlı qarşıdurmalar və kürdləşməyə etirazlar müşahidə olunub. Bu hadisələrdə bəzi yezidi fəalların həbsi də qeydə alınıb. Əlbəttə, belə faktların sayını çoxaltmaq, xüsusən, yezidilərin yas mərasiminə soxulmuş əli avtomat silahlı şəxsin açdığı atəş nəticəsində 4 nəfərin həyatını itirməsindən, neçəsinin yaralanmasından söz açmaq mümkündür. Bu, o cinayətdir ki, üzərindən xeyli müddət keçməsinə baxmayaraq, onu törədənlər və hazırlayanlar hüquqi məsuliyyətə cəlb edilməyiblər.

Sonda qeyd edək ki, beynəlxalq ictimaiyyət Ermənistanda onsuz da sayı seyrəlmiş etniklərə qarşı təcrid siyasəti ilə bağlı ciddi tədbir görməlidir, insanlıq əleyhinə cinayətlərə göz yummamalıdır. Xarici aləm nəzərə almalıdır ki, mövcud təmayülün əvvəldə də vurğuladığımız faşizm elementləri var. Bu elementlərin mövcudluğunun nəticəsidir ki, hazırda Cənubi Qafqaz sülh və əməkdaşlıq məkanına çevrilmir. Başqa sözlə desək, Ermənistan varlığı ilə bunun, eləcə də inkişafın və firavan mühitin formalaşmasının qarşısında əngəl törədir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# Nasistin buynuzu olmur ki...

## *Haylarda bu düşüncənin mifdən mental dəyərlərə çevrilmək təhlükəsi var*

**"Əgər İkinci dünya müharibəsində faşist Almaniyası qələbə qazansaydı, bunun Ermənistan üçün çox böyük faydası ola bilərdi". Bu sərsəm tezisin müəllifi Ermənistan müdafiə nazirliyinin keçmiş rəsmi nümayəndəsi, 44 günlük müharibənin gedişində fərarilik edən erməni ordusunun, guya, "taktiki geri çəkilmə manevrləri" barədə feyk-açıqlamaları az sonra lətifəyə çevrilmiş Artsrun Ovannisyandır. Ermənistanın ictimai televiziyasına müsahibəsində nasist Almaniyasının müharibədə qələbəsinin Ermənistana böyük fayda verə biləcəyini deyən "hərbi strateq"in sözlərinə görə, "Stalinqrad döyüşü nasistlərin Türkiyəni işğal etməsinə və "vahid Ermənistan" yaratmasına mane oldu".**

Bu, hələ harasıdır? İrəvan isteblişmentində, cəmiyyətin özündə birmənalı qarşılanmayan, qalmaqala səbəb olan müsahibəsində tarixi-fəlsəfi "araşdırmasını" davam etdirən Ovannisyan beynində uydurduğu mifi dövriyyəyə buraxmaqdan çəkinmir. Vəziyyəti qəlizləşdirən odur ki, bu faşist tezisləri müstəqil ekspert, yaxud bloger yox, hazırda Ermənistan müdafiə nazirliyinin hərbi akademiyasında marşal Baqramyan adına komanda–qərargah institutuna rəhbərlik edən şəxs irəli sürür. Onun neofaşist düşüncələrinin hayların mental dəyərləri ilə nə qədər üst-üstə düşdüyünü deməkdə çətinlik çəkirik. Amma XXI əsrdə ali irq doktrinasını bəyan edənin faşistdən nə fərqi var? Ovannisyan hesab edir ki "haylar üçün ən çətin miflərdən biri Stalinqrad döyüşünün, guya, Ermənistanı türk işğalından xilas etməsidir".

Uğursuz hərbçi bu qənaəti ilə Ermənistan baş naziri Paşinyanı çıxılmaz vəziyyətə salıb. Çünki ortaya təbii və məntiqi sual çıxır: Nikol Vovayeviç Moskvada keçirilən Qələbə paradına müdafiə nazirliyinin nəhəng institutunun rəhbərinin faşist Almaniyasını dəstəkləməsinə və onun törətdiyi cinayətlərə haqq qazandırmasına həmrəyliyini göstərməkdən ötrü getmişdi?!

***

Təxminən yüz il bundan əvvəl nasistlərin başçılıq etdiyi Almaniyanın – III Reyxin hədəflərinin heç də xalqlara azadlıq bəxş etmək olmadığı hamıya gün kimi aydın idi. Hitler hakimiyyətinin doktrinası ali irqin iyerarxiya prinsipləri üzərində qurulduğundan, faşistlərin prinsiplərinə görə SSRİ və Yaxın Şərqin xalqları kimi ermənilər də "aşağı zümrəyə" aid edilirdi. Ovannisyanın nasistlərin haylar üçün ayrıca dövlət yaratmaq barədə dedikləri mifdən və xam xəyaldan başqa bir şey deyil. O deyir ki, 1940-cı illərin nasist sənədlərində Ermənistan potensial işğal zonaları sırasına daxil edilib və ermənilər bir etnik qrup kimi hüquqların məhdudlaşdırılmasına, deportasiyaya və hətta məhvə məruz qalıblar. Bununla Artsrun Ovannisyan mahiyyət etibarilə anti–faşist hərəkatını, xalqların bununla mübarizəsinin legitimliyini şübhə altına almış olur. Bu, mülahizə deyil, ideoloji təxribatdır. Avropada və dünyada sağ təmayüllü qüvvələrin, neonasizmin yenidən baş qaldırdığı indiki şəraitdə Ermənistan odla oynayır. İstənilən bəhanə ilə Hitlerə və ya nasizmə haqq qazandırmağa edilən cəhdlər həqiqətə, ədalətə, əxlaqa və vicdana qarşı cinayətdir. XXI əsrdə Hitlerin qələbəsinin "faydalı" ola biləcəyini söyləmək 60 milyondan çox insanın ölümündə günahkar olan irqçi rejimə haqq qazandırmaq vəhşiliyin və siyasi əxlaqsızlığın təzahürü sayıla bilər!

Məğlub ordunun keçmiş sözçüsünün açıqlamaları faşizmə qarşı vuruşanların, o cümlədən döyüş meydanlarında həlak olmuş ermənilərin xatirəsinə təhqirdir. Ən nəhayətdə, bu, Ovannisyanın işlədiyi hərbi institutun adını daşıdığı həmin marşal Baqramyanın məzarına tüpürməkdir!







Ermənistan rəsmisinin dilindən səslənən belə avantürist, təhqiramiz, təxribatçı açıqlamaların Rusiya, eləcə də İsrail cəmiyyətində və mediasında hansı reaksiyanı doğuracağını izləmək maraqlı olardı. Axı mahiyyət etibarilə Ovannisyan məlum açıqlaması ilə nasist Almaniyasının yəhudi xalqına qarşı soyqırımı cinayətinə haqq qazandırır. Onun qənaətini təsadüfi hesab etmək olmaz. Çünki Ermənistanda uzun müddətdir ki, dövlət səviyyəsində nasist ideologiyasının təbliğatı gedir, milli nasistlərin reabilitasiya və şöhrətlənməsi ənənəsi davam edir. Bunu 2020-ci il dekabrın 10-da Bakıda keçirilən Zəfər paradındakı çıxışında Prezident İlham Əliyev "erməni faşizmi bir daha baş qaldırsa, nəticə də eyni olacaq. Azərbaycanın dəmir yumruğu yenə onların belini qıracaq" ismarıc-xəbərdarlığı ilə bütün ovannisyanlara xatırlatmışdı.

Bəs, İrəvanın mərkəzində Qaregin Njdeyə heykəl qoyulmasının adı nasistlik deyilsə, nədir? Məgər nasistlərin buynuzu vardı? Bu adam nəinki nasistlərlə əməkdaşlıq edirdi, həm də faşist ideologiyasının fəal şəkildə təbliğatçısı idi. Paradoksa diqqət edin: hərbi cinayətkar kimi məhkum edilən Njdenin heykəlinin açılışını Xocalı qətliamının müəllifi, ondan daha betər nasist Serj Sarkisyan edib. Moskvanın, Tel-Əvivin tələblərinə baxmayaraq, özünü "anti–koçaryançı", "anti–serjikçi" kimi qələmə verən baş nazir Nikol Paşinyan hakimiyyəti dövründə bu abidəni sökmədi. Əksinə, Njdenin idollaşdırılması, vəsf edilməsi Ermənistanda faşist əhval-ruhiyyənin artmasına səbəb oldu. Biz buna aprelin 24-də İrəvanın mərkəzində bir vaxtlar faşistlərin Almaniyada keçirdikləri "məşəl yürüşü"nün bənzərini təşkil edəndə bir daha əmin olduq. Həmin aksiya zamanı Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının yandırılması məhz erməni faşizminin təzahürü idi.

***

Beləliklə, Artsrun Ovannisyanın bəyanatı təsadüfi deyil, əksinə, məntiqi olaraq erməni adət-ənənələrinin və mentalitetinin ümumi mahiyyətindən irəli gəlir. Özləri dinc azərbaycanlı əhaliyə qarşı dəhşətli cinayətlər törədənlər həmişə "faşist Almaniyasının qələbəsi Ermənistana daha çox fayda verə bilərdi" fikrini irəli sürəcəklər.

Vətən müharibəsinin davam etdiyi 2020-ci ilin oktyabrında beynəlxalq vasitəçilərin istəyinə uyğun olaraq, 3 dəfə humanitar atəşkəs razılaşması əldə edilsə də, bu rejim Ermənistan tərəfindən pozuldu. İrəvan razılaşmanı pozaraq gecə saatlarında iki dəfə Gəncəni, bir dəfə Tərtər sakininin dəfn mərasimini bombaladı. Bərdəyə "Smerç" tipli raket atdı, Mingəçevirə raket zərbəsi endirdi, Goranboy, Daşkəsən, Tovuz rayonunun dinc sakinlər yaşayan kəndlərini atəşə tutdu. Ermənilərin terror əməlləri nəticəsində 91 dinc sakin öldü, 400 mülki şəxs yaralandı. Ölənlərdən 11-i uşaq idi. Bu terror aktlarından sonra erməni tərəfi Azərbaycanın dünyaya təqdim etdiyi faktları israrla təkzib etsə də, "Human Rights Watch" və "Amnesty İnternational" kimi hətta bizə çəpəki baxan beynəlxalq təşkilatlar belə Bərdədə dinc sakinlərin kaset sursatlı silahlardan atəşə tutulması faktını təsdiqlədilər. Əgər o vaxta qədər Ermənistan öz hərbi cinayətlərinə görə məsuliyyəti boynundan atırdısa, müdafiə nazirliyinin sözçüsü Artsrun Ovannisyanın "Qarabağ ordusunun Azərbaycan şəhərlərinə zərbələr endirməyə tam hüququ var" bəyanatı ilə indiyədək törətdikləri və 100-dək dinc sakinin ölümünə səbəb olan terror vəhşiliyinə görə məsuliyəti, faktiki olaraq, öz üzərinə götürmüş oldu. Əslində, Ovanisyanın bəyanatı döyüşdə hər gün qələbə çalan Azərbaycan tərəfini dinc əhali və mülki obyektlərlə şantaj etmək cəhdi idi. Cəbhədə məğlubiyyətlər artdıqca, erməni tərəfinin mülki hədəflərinin sayı da çoxalırdı.

"Biz elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın" fikri də Azərbaycan liderinə məxsusdur. İlham Əliyev cari ilin yanvarında yerli telekanallara müsahibəsində "erməni faşizmi faşizmin ən yüksək nöqtəsidir", "Ermənistanı "faktiki olaraq faşist dövləti"dir ifadələrini də təsadüfən işlətmədi.

Azərbaycan bölgədə separatizmin kökünü birdəfəlik kəsdi, qalır faşizmi hayların düşüncəsindən silmək. "Faşizm ya Ermənistan rəhbərliyi tərəfindən məhv edilməlidir, ya da onu Azərbaycan məhv edəcək". Dövlətimizin başçısı reallığa və siyasi qətiyyətə söykənən qənaətini bu ilin martında Ağdamın Sarıcalı kəndinin sakinləri ilə görüşdə səsləndirdi. Nəticə çıxarmağı İrəvanın öhdəsinə buraxırıq.

***İ.HƏSƏNQALA***
***XQ***

---

### Ekspert rəyi



**Tofiq ABBASOV,**
**siyasi şərhçi**

– Ermənistanda siyasi qüvvələrin palitrası aciz vəziyyətdə və yolayrıcındadırlar. Bilinmir ki, bunlar solçudur, sağçıdır, nasionalistdir, praqmatisrdir, yoxsa faşistdirlər. Amma biz onların sitayiş etdikləri simvollara diqqət yetirsək, görərik ki, kimləri göylərə qaldırır, kimləri özlərinin qəhrəmanları hesab edirlər. Milli simvola çevirdikləri Qaregin Njde, Dro, Amazasp, Ozanyan və başqaları qaniçən barbar, faşist olublar. Azərbaycana məxsus İrəvanın mərkəzində qatı nasist Njdeyə altımetrlik heykəl ucaldanların hansı məsləyə qulluq etdikləri məlumdur. Məsələ ondadır ki, bunlar həmişə daxili aləmlərində ucalığa, möhtəşəmliyə, əzəmətə sitayiş edir və buna layiq olduqlarını düşünürlər. Əlbəttə, əslində elə deyil.

İkinci Qarabağ müharibəsində Ermənistan müdafiə nazirliyinin sözçüsü kimi çıxış edən Ovannisyan öz xalqına ağ yalanlar danışırdı. Şəhərlərimizi, kəndlərimizi Azərbaycan Ordusuna təslim edib geri çəkildikcə, deyirdi ki, bu, qələbə üçün atılan taktiki addımlardır. Bunun özü də əsas məsələ sayılmır. Öz gücünə inanan, hərbi-siyasi iradəsinə söykənən ordunun heç vaxt 15 min fərarisi olmaz. Çünki bizim əsgərimizlə döyüşə bilmədilər. İndi durub özlərini faşist Almaniyası ilə müqayisə etmələri də gülüncdür.

Bəli, Sovet İttifaqı arxasında Avropanın dayandığı faşist Almaniyasını məğlub etdi. O zaman alman xalqı 9 milyondan çox insan tələfatı ilə üzləşdi. Amma Sovet ordusu 30 milyona yaxın adam itirdi. Yəni, almanlar fərari ermənilərdən fərqli olaraq, vuruşurdular. İndi haylar xəyallarında özlərinə üstün dəyərlər qursalar da, o cür proseslərə hazır deyil. Daxilən cılız olanlar həmişə böyük məfhumlardan danışırlar. Bu, onların boyuna biçilmiş paltar deyil. Qaregin deyirdi ki, elə bir gün olmamalıdır ki, bir türk öldürməyək. O, hayların əsl xislətini ortaya qoyub.

Yeri gəlmişkən, əgər qardaş Türkiyə bu gün terrorizm üzərində qələbə qazanırsa, Azərbaycan bunu 2023-cü ilin sentyabrında həyata keçirib. Neonasistlərin cavabı budur.

# Heydər Əliyev: şəxsiyyət və lider



VI məqalə

### Yeni sistemin iki semantik səviyyəsi

Bu mövzuda Heydər Əliyevin öncəki məqalələrdə ifadə edilmiş siyasi ritorika sisteminin ilk iki altsistemi üçün xarakterik olan anlayışları vahid məntiqi sahədə sintez edə bilərik. Burada hər bir böyük lider üçün xarakterik olan "idarəedici siyasi anlayışlar" və "nizamlayıcı siyasi anlayışlar" qrupunu müəyyən etmək vacibdir. Bu, regionlararası və qlobal miqyasda proyeksiya olunan siyasi ritorika sisteminin üçüncü, ən yüksək altsisteminin nəticəverici ideya gücünü dərk etməyə yardım edəcəkdir. Öncə, Ulu öndərin siyasi ritorika sisteminin (burada "siyasi ritorika" liderin siyasi nitq mədəniyyətini ifadə edir) semantik sintez imkanları üzərində dayanaq.

Milli miqyas üçün Heydər Əliyevin siyasi ritorikasının əsas anlayışlarını aşağıdakı kimi müəyyənləşdirmişdik: "güclü müstəqil milli dövlət", "güclü iqtisadiyyat", "güclü cəmiyyət", "güclü ordu", "müstəqil hüquqi və demokratik dövlət", "ölkədə münaqişələrin dinc yolla həllinə tərəfdar dövlət", "milli ideya", "suverenlik", "ərazi bütövlüyü".

Regional miqyasa bu anayışların proyeksiyası ilə yanaşı, yeni anlayışların da əlavə edilməsi nəticəsində aşağıdakı sistem yaranmışdır: "güclü müstəqil milli dövlət", "güclü iqtisadiyyat", "güclü cəmiyyət", "güclü ordu", "müstəqil hüquqi və demokratik dövlət", "regionda münaqişələrin dinc yolla həllinə tərəfdar dövlət", "milli ideya", "suverenlik", "ərazi bütövlüyü" anlayışlarına "neft strategiyası", "layihələr infrastrukturu", "regional əməkdaşlığın yeni platformaları", "Qafqaz evi", "enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin vəhdəti".

Belə görünür ki, regional miqyas üçün siyasi nitqə "dünyada münaqişələrin dinc yolla həllinə tərəfdar dövlət", "neft strategiyası", "layihələr infrastrukturu", "regional əməkdaşlığın yeni platformaları", "Qafqaz evi", "enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin vəhdəti" kimi anlayışlar daxil edilmişdir.

Burada ritorikanın semantikasında idarəedici siyasi anlayış rolunu "güclü müstəqil milli dövlət" oynayır. Nizamlayıcı anlayışlar kimi isə "milli ideya", "suverenlik" və "ərazi bütövlüyü" çıxış edir.

Bu iki anlayışlar qrupunun semantik sərhədləri daxilində sintezləşdirici parametrlər rolunu "milli ideya" və "neft strategiyası" oynamışdır. Onun sayəsində regional miqyas üçün siyasi ritorikanın əsas hədəflərini Ulu öndər dəqiq müəyyən etmişdir: "layihələr infrastrukturu", "regional əməkdaşlığın yeni platformaları", "Qafqaz evi", "enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin vəhdəti".

Beləliklə, Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyi və liderliyi tarixində ilk dəfə olaraq siyasi nəzəriyyənin bütün prinsipləri çərçivəsində siyasi nitq nəzəriyyəsinin (başqa adla – siyasi ritorikanın) milli və regional miqyas üçün səmərəli nəticəverici kreartiv potensiala malik konseptual sistemini yaratmışdır. Biz onu Ulu öndərin bütövlükdə siyasi ritorika sisteminin iki təməl semantik altsistemi adlandırırıq.

Müasir liderliyin fəlsəfi və siyasi anlamlarına görə, hər bir uğurlu siyasi lider kimi vurğulanan iki təməl altsematik sistem konkret nəticələr almağa yetərlidir. Bu həm də milli siyasi liderliyin kriteriyalarına tam uyğun fəaliyyəti ifadə edir. Ancaq söhbət Heydər Əliyevin liderlik miqyası və missiyasından gedirsə, məsələyə daha geniş kontekstdə baxmaq zəruridir və onun mənası çox böyükdür! Bu fikrimizi izah etmək üçün öncə ümummilli liderliyin bir siyasi qiymətləndirməsinə baxaq.

### Ümummilli liderlik

Keçən əsrin 80-ci illərində məşhur fransız politoloqu liderliyə dixotomik yanaşmanı böyük qüsur sayırdı. "Dixotomik yanaşma" liderin ancaq iki parametr (məsələn: liberal-avtokrat) üzrə növləşdirilməsinə aiddir. J.Blondel təklif edirdi ki, xüsusilə, ümummilli liderlik üçün "çoxölçülü yanaşma" həyata keçirilsin. Yəni ümummilli liderliyin miqyası və missiyası elədir ki, çox sayda parametrlərin qarşılıqlı əlaqəsində ona adekvat siyasi anlam vermək olar.

Müasir politoloqlar da liderin cəmiyyətə, regiona və qlobal miqyasa təsir gücünə üstünlük verirlər. Həmin prizmada ümummilli liderliyi fərqləndirən keyfiyyətlərdən biri kimi, liderin həm özünün fəaliyyəti dönəmində dövlətçilikdə və cəmiyyətin yenilənməsində köklü dəyişikliklər edə bilməsi, həm də özündən sonrakı mərhələ üçün uğurlu ola biləcək dövlət quruculuğu konsepsiyasını hazırlamasını vurğulayırlar. Bu kontekstdə də ümummilli liderlikdə yeni liderin formalaşması məsələsi xüsusi aktuallıq kəsb edir.

Heydər Əliyevin siyasi nitq nəzəriyyəsinin (belə deməyə tam haqqımız vardır) ritorik sisteminin üçüncü altsistemində məhz regionlararası və qlobal miqyaslarda yeni liderlik və realpolitika müstəvisində fəaliyyətin başlıca məqamları ifadə edilmişdir. Onun konkret anlayışlar sistemini tədqiq etmək lazımdır. Əlbəttə, Ulu öndər bu altsistemin baza anlayışlarını formalaşdırmış və praktiki fəaliyyətin əsas istiqamətlərini müəyyən etmişdir. Hazırda həmin ritorika sistemini və fəaliyyətin siyasi-praktiki nümunəsini Prezident İlham Əliyev inkişaf etdirir. Məsələnin bu tərəfi də fəlsəfi-elmi prizmada çox ciddi araşdırılmalıdır.

### Üçüncü altsistemin əsas anlayışları

Heydər Əliyevin siyasi ritorikasının semantik təhlili göstərir ki, Ulu öndər regionlararası və qlobal miqyaslarda Azərbaycan Respublikası dövlətinin uğurlu olmasının "Siyasi-diplomatik Yol Xəritəsi"nin konseptual bazasını yaratmışdır. Onun mərkəzində bir neçə açar anlayış dayanır. Onlar aşağıdakılardır: "güclü dövlət", "güclü ordu", "milli ideya", "suverenlik", "ərazi bütövlüyü", "dünyada münaqişələrin dinc yolla həllinə tərəfdar dövlət", "neft strategiyası", "mərhələli enerji strategiyası", "türk birliyi".

Bu anlayışların ortaq semantik gücü üç istiqamətdə səmərə verməli idi – milli ideyanın reallaşması, şəbəkə diplomatiyası, layihələr şəbəkəsi.

### Milli ideyanın reallaşması

Heydər Əliyevin siyasi nitq sisteminin konseptual aspektinin aparıcı anlayışıdır. Ulu öndər onu əsən iki anlamda aktuallaşdırırdı. Birincisi, milli ideya cəmiyyəti birləşdirən və dövlət-xalq həmrəyliyini təmin edən başlıca aparıcı konsept kimi reallaşmalıdır. İkincisi, əsas hədəfinin ərazi bütövlüyünü təmin etməkdən ibarət olması milli ideyanı Azərbaycanda müstəqil və suveren dövlət quruculuğunu yeni mərhələyə çıxaracaq ideya generatoru kimi xarakterizə etməlidir.

Hər iki məqam müxtəlif kontekstlərdə Ümummilli lider tərəfindən yığcam və dolğun ifadə edilmişdir. Eyni zamanda, Heydər Əliyevin siyasi ritorikasında sətiraltı mənalarda bunun əsas kimi gələcək üçün əhəmiyyətli olduğu, yəni böyük şəxsiyyətin özündən sonrakı mərhələ üçün hazırladığı duyulurdu. Bunlara görə, "milli ideyanın reallaşması" ifadəsi anlayış kimi özündə bir sıra siyasi-ideoloji məqamları konseptual olaraq birləşdirir ki, onların ayrıca təhlilinə ehtiyac var.

### Şəbəkə diplomatiyası

Ulu öndər bu anlayışdan birbaşa istifadə etməsə də, siyasi ritorikasında Azərbaycan diplomatiyasının iki istiqamətdə fəallığına vurğu həmişə özünə yer tutmuşdur. Birincisi, Azərbaycan dövlətlərarası münasibətlərin qurulmasında çoxaspektli və çoxistiqamətli fəaliyyət modelinə üstünlük verməlidir. İkincisi, Azərbaycan regional və beynəlxalq təşkilatlara sinxron diplomatik fəaliyyət qurmağı inkişaf etdirməlidir.

Bu, faktiki olaraq Azərbaycanın regional, regionlararası və qlobal miqyaslar arasında siyasi-diplomatik bağlantı yarada biləcək fəaliyyət nümunəsi deməkdir. Burada həmin dönəmdə mövcud olan regional təşkilatlar, BMT, Qoşulmama Hərəkatı, İslam Konfransı Təşkilatı, UNESCO, İSESCO, MDB, GUAM, Aİ və başqa təşkilatlar daxil edilirdi. Dövlətlərarası münasibətlərdə sistemlilik və şəbəkəlilik isə regional miqyas da daxil olmaqla hər bir dövlətlə mehriban və qarşılıqlı faydalı əlaqələrə istiqamətlənmiş qonşuluq tezisi əsasında əməkdaşlıq və təhlükəsizlik platformalarının hazırlanmasını nəzərdə tuturdu. Həmin kontekstdə Ulu öndər Türk Birliyi məsələsinin bazasında "bir millət, iki dövlət" kəlamı olmaqla tam reallaşması xəttini önə çəkirdi.

### Layihələr şəbəkəsi

Bu, olduqca əhəmiyyətli bir anlayışdır. Ulu öndərin ritorikasında o, "Bakı-Ceyhan Avrasiyanın enerji xəritəsini dəyişəcəkdir" kimi yığcam tezisində əksini tapmışdır. Keçən əsrin keşməkeşli illərində Heydər Əliyevin bu kəlamı təkrar-təkrar işlətməsi böyük siyasi cəsarətdən öncə dərin strateji zəka tələb edirdi. Heydər Əliyev həmin ziddiyyətli məqamda Azərbaycanın enerji strategiyası çərçivəsində faktiki olaraq müxtəlif layihələrin sistemini (və ya şəbəkəsini) yaratmağın lazımlığını tam mənası ilə dərk etmişdi. Bu məsələnin Azərbaycanı regional liderlikdən regionlararası və qlobal miqyaslarda uğurlu müstəqil dövlət kimi həm birləşdirici, həm də milli təhlükəsizliyini təmin edən ciddi güc statusuna yüksəldəcəkdi. Həmin yanaşmanın möhtəşəmliyi indi Azərbaycan Prezidentinin xarici siyasət kursunun hər bir məqamında özünü təsdiq etməkdədir. Məsələnin detallarına burada baş vurmaq imkanı yoxdur.

### Siyasi ritorika sisteminin ümumi mənzərəsi

Mövzuya aid məqalələr silsiləsinin ümumi semantikası Ulu öndərin siyasi ritorika sisteminin başlıca cəhətlərini fəlsəfi ifadə etməyə imkan verir. Hər şeydən öncə, Heydər Əliyevin siyasi nitq sistemi Ümummilli lider səviyyəsində yaradılmış konseptual semantik şəbəkədir. Onun üç iərarxik tərkib hissəsi vardır: milli, regional və qlobal miqyasları birləşdirən səmantik sahələr. Bu sistemin bazasında isə milli miqyas üçün müəyyən edilmiş siyasi anlayışlar kompleksi dayanır. Burada Ulu öndərin əsas məqsədi daim Azərbaycanın milli maraqlarına xidmət edən siyasi-diplomatik fəaliyyət modeli yaratmaqdan ibarət idi.

Funksional olaraq siyasi ritorika sistemi hər sonrakı altsistemin öncəki üzərində qurulması ilə yanaşı, yeni məqamların da əlavə edilməsini nəzərdə tutur. Milli, regional və qlobal miqyaslar bu prinsip əsasında daxili məntiqi bağlantıya malik olurlar.

Nəhayət, siyasi ritorikanın məqsədi baxımından strateji anlamı olan bir özəlliyi vurğulamaq gərəkdir. Heydər Əliyev postsovet məkanında yeganə liderdir ki, özündən sonra da səmərə və uğur gətirə biləcək siyasi nitq nəzəriyyəsini yarada bilmişdir. Bu sistemin əsl gücünü 2003-cü ildən bu yana Azərbaycan Prezidentinin siyasi-diplomatik fəaliyyəti aydın göstərmişdir. Onun iki rəmzi zirvə məqamı vardır: Vətən müharibəsində möhtəşəm Zəfər və Prezident İlham Əliyevin bəyan etdiyi yeni tarixi mərhələ üçün yeni milli ideyanın formalaşdırılması! Yol davam edir!

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**



# İranda "erməni matahlığı"

## Sayca az olsalar da, imtiyazları azərbaycanlılardan çoxdur

*(əvvəli qəzetin 13 may sayında)*

Şah Abbasın dövründə (1587-1629) İranda tayfalar hərbi zərurət yarandığından dövlət tərəfindən köçürüldü. Bu yerdəyişmələr əsasən türk döyüşçü dəstələri üzərində qurulsa da, Araz çayı sahillərində məskunlaşan Culfa erməniləri də İranla Osmanlı İmperiyası arasında gedən mübarizələr nəticəsində tədricən müxtəlif bölgələrə köçürüldülər. Şah Abbas Culfa rayonundan əksəriyyəti sənətkar və sənətkar olan ermənilərin (3-5 min nəfər) paytaxt İsfahana yerləşdirilməsini əmr etdi. Beləliklə, ermənilərin İsfahanda Zəyəndə çayı yaxınlığındakı yeni məskəni Araz çayı sahilindəki şəraitə bənzəyirdi. Burada məhəllə salmaq üçün onlara 233 hektar ərazi ayrılmış və bu əraziyə "Yeni Culfa" adı verilmişdi. Ermənilər qısa müddətdə özləri üçün Vank adlı kilsə tikdirdilər.

Professor Dr. Altan Çetin və Alper Yıldırımın birgə müəllifliyi ilə yazılmış "Erməni soyqırımı təbliğatı: İran və Vank Kilsəsi" adlı məqalədə bu kilsənin erməni təbliğatında rolu işıqlandırılır. Onlar yazırlar ki, XVII əsrin əvvəllərində inşa edilən Vank kilsəsi bu gün İsfahanın mərkəzi sayılan, ermənilərin sıx məskunlaşdığı Culfa rayonunda yerləşir.



Maraqlıdır ki, klassik erməni kilsələrindən fərqli olaraq, Vankın inşasında regionun relyefinə uyğun materiallardan istifadə olunub. Kilsəyə daxil olmaq ödənişlidir. Girişin üstündə saat qülləsi, sağ tərəfdə zəng qülləsi var. Onunla üzbəüz kilsə binası yerləşir. Daxili divarlarında və günbəzində müxtəlif oymalar olan kilsə bu gün də ibadət üçün açıqdır. Vank kilsəsinin başqa bir xüsusiyyəti burada muzeyin olmasıdır. Məsələnin türkləri narahat edən hissəsi də bununla bağlıdır. Bu muzeydə erməni mədəniyyətinə və tarixinə aid müxtəlif materiallar, geyimlər, məişət əşyaları və əlyazmalar, kitablar var. Bunlardan başqa, muzeydə şüşə qabda saxlanılan Türkiyənin işarəli xəritəsi diqqət çəkir. Qısa araşdırmadan sonra məlum olur ki, bu vitrin erməni soyqırımının təbliğatıdır. Çünki vitrində həm fars, həm də ingilis dillərində böyük hərflərlə "1915-ci ildə Osmanlı imperatorluğu tərəfindən törədilən erməni soyqırımının vitrini" sözləri yazılıb.

Göründüyü kimi, bura elan edildiyi kimi, təkcə ibadət yeri deyil, həm də təbliğat mərkəzidir. Buradakı xəritədə qeyd olunan ərazilər keçmişdə, guya, Türkiyənin hər yerində mövcud olduğu iddia edilən erməni məskənləridir. Bu bölgələr erməni adları ilə yazılıb. Göründüyü kimi, məsələ təkcə soyqırımı iddiaları ilə məhdudlaşmır, həm də ölkəmizdə yaşamağa qərarlı olan hayların torpaq və əhali ilə bağlı müəyyənləşmə xüsusiyyətinə malikdir. Xəritənin düz altında Tələt paşanın erməni komitələri ilə mübarizə üçün yazdığı rəsmi yazışmalar və teleqramlar var. Amma maraqlısı odur ki, bu sənədlər (fars, ingilis və erməni dillərində izahatlarla) ziyarətçilərə "Türkiyə dövlətinin erməni soyqırımını təsdiq edən rəsmi sənədləri" kimi təqdim olunur.

Osmanlı türkcəsini anlayan hər kəs bilir ki, bu sənədlər dövlətin təhlükəsizlik məsələlərindən və erməni komitə üzvləri ilə mübarizə üçün görülməli olan tədbirlərdən bəhs edir. Bundan əlavə, ermənilərin, guya, kütləvi ölümlərini əks etdirən şəkillər və video görüntülər də bu vitrində digər təbliğat materiallarının sırasındadır. Bundan əlavə, tərkibində ədədi ifadələr olan və heç bir yazışma əlaməti olmayan sənədlər soyqırımı əmrləri kimi ziyarətçilərə təqdim edilir. Buradakı ermənilərdə tarixi şüurun yaradılması, buraya gələn ziyarətçilərə, o cümlədən iranlılarda və avropalı turistlərdə "soyqırımı" təsəvvürünü yaratmaq məqsədilə mövzu sənədlərlə təqdim olunurmuş kimi fəaliyyət görünür.

Vank kilsəsi ilə bağlı diqqətçəkən başqa bir məqam odur ki, kilsənin bağçasında, girişin sol tərəfində, təxminən 3x3 ölçüdə, hündürlüyü təxminən üç metr olan "erməni soyqırımı" abidəsi var. Bu abidənin üzərində fars, ingilis və erməni dillərində yazılıb: "1915-ci ildə Osmanlı İmperiyası tərəfindən törədilmiş, 1,5 milyon erməninin soyqırımını xatırladan abidə (1975-ci ildə tikilmişdir))". Bundan əlavə, abidənin düz qarşısındakı muzeyin divarında daha bir yazı var: "1915-1923-cü illər arasında Qərbi Ermənistanda yaşayan bir milyon yarımdan çox erməni Osmanlı imperatorluğunun əvvəlcədən planlaşdırılmış planı ilə XX əsrin ilk irqçi soyqırımının qurbanı oldu. Gənc türklər ləqəbli o dövrün hakim partiyası olan İttihad və Tərəqqi Komitəsi tərəfindən yüz minlərlə erməni ata-baba yurdlarından vəhşicəsinə deportasiyaya məcbur edilmiş və nəticədə Qərbi Ermənistan öz ilkin əhalisindən məhrum olmuşdur".

Təəssüf ki, İran adlı ölkədə erməni kilsəsinin bağçasında anti–Türkiyə təbliğatının təşkili barədə geniş ictimaiyyətin yetərincə məlumatı yoxdur. İttihat və Tərəqqi Komitəsinin və Osmanlı dövlətinin simasında tarixə atılan bu böhtanı İran hakimiyyətinin görməzliyə vurması suallar doğurur.

Hər il aprelin 24-də kilsədə "erməni soyqırımı"nı anmaq üçün geniş tədbir keçirilir. Bu il də istisna olmadı. Kilsə divarlarında və bağçada ucaldılmış soyqırımı abidəsində nümayiş etdirilən Türkiyə əleyhinə plakatlar, şəkillər və tarixi təhrif edən yazılar erməni icmasının liderləri tərəfindən təbliğat vasitəsi kimi istifadə edilir, şəhərə gələn yerli və xarici turistlərə təqdim olunur.

İrandakı qondarma erməni soyqırımı muzeylərini bir qədər araşdırdıq. Öyrəndik ki, "erməni soyqırımı"nı xatırladan səkkiz abidə və muzey var. Onlardan ikisi Tehranda, biri Rəştdə, biri Urmiyada, biri Əhvazda, biri Abadanda, biri Ərakda və biri də İsfahandadır. Tehran Surp (Müqəddəs) Sarkis erməni apostol kilsəsinin həyətindəki abidə düz ərazidə yerləşən müştəqil heykəldir. Abidə üç xaçkarın və digər ikonoqrafik elementlərin birləşməsidir və turistlər üçün açıqdır. Bu abidənin postamentində fars və erməni dillərində "Erməni xalqının saysız-hesabsız qurbanlarının xatirəsinə: 24 aprel 1915-ci il" yazılıb. 1973-cü ildə tikilən abidənin qarşısında hər il aprelin 24-də İran–erməni icması və Tehran erməni patriarxlığı tərəfindən anma mərasimi keçirilir.

Amma bu mərasimlərdə nə rejim, nə də ziyarətçilər 1918-ci ildə İranın şimal-qərbində ermənilərin yüz minlərlə Azərbaycan türkünü vəhşicəsinə qətlə yetirdiyini yada salırlar...

**Qafar ÇAXMAQLI,**
**XQ-nin Türkiyə müxbiri**

# Heydər Əliyev: “Türkiyə bu danışıqların hər ikisində ən yaxşı seçim olacaq”

**1994-cü ilin 30 sentyabrında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-da nəşr olunan “Azerbaijan International” jurnalının təsisçisi və baş redaktoru, jurnalist-tədqiqatçı Betti Bleyerə xüsusi müsahibə verib. Bu, sayca Betti Bleyerin ikinci müsahibəsi olub və Bakıda “Əsrin müqaviləsi” imzalanandan bir neçə gün sonra Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a səfəri davam etdiyi günlərdə qələmə alınıb. Ümummilli liderin bütün dövrlər üçün əhəmiyyətli olan fikirlərini, siyasi baxımdan çətin dövrlərdə, neft müqavilələrinin imzalanması zamanı Azərbaycanın milli maraqlarının qorunması istiqamətində apardığı gərgin danışıqlar və yorulmaz fəaliyyətinin, eləcə də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində yürütdüyü müdrik və praqmatik siyasətinin incə detallarını ictimaiyyətə çatdıran həmin müsahibənin aktuallığını nəzərə alıb onu ilk dəfə Azərbaycan dilində oxucularımıza təqdim edirik.**



**Betti Bleyer: – Artıq Neft müqaviləsi imzalanmışdır və Azərbaycanda bir sıra ölkələr qeyd-şərtsiz əmlak hüququna sahib olublar. İndi də siz dünyanın bir çox tanınmış liderləri ilə görüşmək imkanı əldə etmisiniz. Qarabağ münaqişəsinin Azərbaycanın şərtlərinə uyğun sülh yolu ilə həllinə daha çox yaxınlıq hiss edirsinizmi?**

**Heydər Əliyev:** – Mən indi çox arxayınam, lazım olduğundan artıq. Çünki indi Azərbaycan Ermənistanla mövcud münaqişənin sülh yolu ilə həllinə nail olmağa daha yaxındır. Mənim hökumətimin bütün il boyu, xüsusilə də yaxın həftələr ərzində yorulmaz səyləri bu problemin sülh yolu ilə həllinə nail olmaq istiqamətində davam etmişdir. Bu günlərdə bizim məqsədimiz haqq səsimizi dünya birliyinə çatdırmaq və Azərbaycan Respublikasının çətin vəziyyətinin real mənzərəsini təqdim etmək olmuşdur. Biz, eyni zamanda, sülhə nail olmaq üçün mümkün olan imkanları yaratmaq istəmişik. Mən bütün bu hökumət və şirkətlərin ən yüksək səviyyəli vəzifəli şəxsləri ilə bu yaxınlardakı görüşlərimdə münaqişəyə son qoyulması məqsədilə xalqımın böyük arzusunu və Azərbaycan hökumətinin yekdil və aydın mövqeyini bildirmişəm.

Dörd gün əvvəl (sentyabrın 26-da) burada, Nyu–Yorkda Prezident Klinton ilə keçirilmiş çox mühüm tarixi görüşdə, mən qeyd-şərtsiz münaqişənin sülh yolu ilə həlli üçün Azərbaycanın şərtlərini izah etdim. Ona dedim ki, biz aşağıdakı məsələlərdə güzəştə getməyi istəmirik.

1. Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistanın bütün Silahlı Qüvvələrinin çıxarılmasının təkidlə tələb olunması;

2. Erməni təcavüzünün nəticəsində öz evlərini tərk etməyə məcbur olmuş bir milyondan artıq Azərbaycan qaçqın vətəndaşının qayıtması;

3. Azərbaycanın ərazi bütövlüyünün və müstəqil suverenliyinin təminatı.

Prezident Klintonun Dağlıq Qarabağ məsələsinə xüsusi diqqəti məndə dərin təəssürat yaratdı. O, mənə məlumat verdi ki, onun Rusiya Prezidenti Yeltsin ilə qarşıdan gələn görüşünün gündəliyində duran bəzi vacib problemlərdən biri də Azərbaycan və Ermənistan arasındakı Dağlıq Qarabağ münaqişəsidir.

Bizim birlikdə müzakirə etdiyimiz digər məsələlər isə ölkələrimiz arasında sosial, siyasi və iqtisadi əlaqələr haqqında oldu. Əlbəttə, biz 20 sentyabrda Azərbaycanda doqquz şirkətdən dördünün Amerikaya aid olduğu Qərb Neft Konsorsiumu və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti arasında imzalanan Neft müqaviləsinin əhəmiyyətindən bəhs etdik.

Bildiyiniz kimi, daha əvvəl o, bu müqaviləni "tarixdə ən böyük müqavilələrdən biri" adlandıraraq mənə bu münasibətlə təbrik məktubu göndərmişdi. O, Neft müqaviləsinin Azərbaycan xalqının rifahı, iqtisadi inkişafı və sabitliyinin təmin olunması ilə yanaşı, Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin həlli üçün əsas rol oynayacağına əminliyini bildirdi.

Başqa görüşlərdə mən Birləşmiş Millətlər Təşkilatının Baş katibi, cənab Butros - Qali və İngiltərənin, Fransanın, Almaniyanın, Türkiyənin və İranın xarici işlər nazirləri ilə Ermənistanın təcavüzü nəticəsində işğal olunan respublikamızın vəziyyəti haqqında birbaşa və açıq danışdım. Mən mövqeyimizi və şərtlərimizi – münaqişənin sülh yolu ilə həllinə nail olmaq istəyimizi izah etdim.

Həmçinin regiona beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi zərurətini xüsusi vurğuladım. Bu qoşunlara, həqiqətən, Azərbaycanın strateji və potensial qonşusu kimi ruslar da daxil edilməlidir. Buna baxmayaraq, Rusiyanın bu münaqişəni təkbaşına həll etmək arzusu bizim üçün nə düzgün, nə də məqbul hesab olunur.

Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirənin (ATƏM) Minsk Qrupunun sədri Jan Eliassonla görüşümdə bizhər ikimiz bu münaqişənin həlli prosesinin ATƏM və Birləşmiş Millətlər Təşkilatı (BMT) çərçivəsində baş verməsinin vacibliyini razılaşdıq. Mənim təəssüratım budur ki, bu mövqe Prezident Klinton daxil olmaqla, görüşdüyüm liderlərin əksəriyyəti tərəfindən dəstəkləndi və qəbul edildi.

Dünən məhz Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin 49-cu sessiyasında çıxış edərkən mən Azərbaycan Respublikasının daxili və xarici siyasətinin prioritetlərini xüsusi qeyd etdim və dünya birliyinə çatdırdım. Buna görə də, şübhəsiz münaqişənin uğurlu həllinin çox çətin olduğu dünya səhnəsində Azərbaycanın statusunu və perspektivini indi daha çox başa düşənlər var.

**– Siz, şəxsən, xüsusilə uzun müddət birbaşa məşğul olduğunuza görə Neft müqaviləsinin imzalanmasından çox məmnun olmalısınız. Deməli olar ki, bir neçə həftə əvvəl danışıqlar aparan şəxs kimi Hyustondan qayıtdıqdan sonra belə tezliklə Neft müqaviləsinin imzalanması sizin adınızla bağlıdır. Buna baxmayaraq, müqavilənin reallaşmasından əvvəl həll olunmalı problemlər hələ də var. Xüsusilə, boru kəməri marşrutu, "Xəzərin statusu" ilə bağlı problemlər və bu müqavilənin yerinə yetirilməsinə mane olmaq istəyən şəxslər və dövlətlər var.**

– Bizim indi əlimizdə olan müqaviləyə, nəhayət, nail olmaq üçün çətin yol keçilib. Hər iki, həm daxili, həm də xarici amillər manea törətdiyinə görə danışıqlar üç il davam edib. Səhvlər edilmişdir. Azərbaycanın milli maraqlarının mütəmadi nəzərə alınmadığı, təmin edilmədiyi vaxtlar var idi. Məhz ona görə mən Prezident fərmanı imzalayaraq danışıqların ikinci mərhələsinə şəxsən nəzarət etməyi düşündüm. Biz tələb etdik və mən güman edirəm ki, biz bütün tərəflər üçün qarşılıqlı xeyirli olan bir müqavilə imzalamışıq. Nəhayət, bu son dərəcə vacib və tarixi əhəmiyyətə malik olan müqavilənin uğuru – Azərbaycanın milli maraqları ilə birbaşa bağlı olmasındadır.

Mən məmnunluqla deyə bilərəm ki, biz tarixi əhəmiyyəti olan bu müqavilənin imzalanmasında bütün maneələrə və çətinliklərə, nəhayət, qalib gəlmişik; bununla yanaşı, sizin qeyd etdiyiniz kimi, müqavilənin imzalanmasından sonra müxtəlif cür çətinliklər meydana çıxmışdır. Onların arasında əsas Xəzərin statusunun “tanınmama”sına görə Rusiya hökuməti tərəfindən irəli sürülən qəbuledilməz şərtlər və verilmiş bəyanatlardır. Onların müqavimət yalnız mətbuatda yayılan ümumi məlumatlardır. Amma sizə deyə bilərəm ki, mən hesab etmirəm ki, bu bəyanatlar ciddi problem yaradacaq.

Birincisi, müqavilədə Rusiyanın Neft şirkəti “LUKOYL”un (milyardlarla dollarlıq müqavilənin) artıq 10 faiz gəlir payı var. İkincisi, biz 1993-cü ilin oktyabrında Azərbaycanla Rusiya arasında Xəzərin Azərbaycan sektorunda neft hasilatını tənzimləyən müqavilə imzaladıq. Həmçinin, Rusiyanın Energetika Nazirliyinin nümayəndəsi cənab Stanislav Puqaç Rusiya Hökuməti adından (20 sentyabrda müqaviləni imzalayan digər tərəflərlə birlikdə) bu müqaviləni imzalayıb. Üçüncüsü, bu müqavilənin imzalanması müddətində, yaxud sonra Rusiya hökuməti tərəfindən Azərbaycan hökumətinə heç vaxt rəsmi bəyanat daxil olmayıb. Misal üçün, mən Prezident Klintona bildirdim və o, bütün neft şirkətlərinin nümayəndələrini cəlb etdi, mən bu söylənilən məlumatlarda və iddialarda əsaslı heç nə görmürəm. Biz bu qəzet məlumatlarına fikir verməyərək müqavilənin həyata keçirilməsi prosesini davam etdirəcəyik.

Müqavilənin bir şərti tələb edir ki, müqavilənin imzalanmasından sonra, 54 aydan gec olmayaraq boru kəməri Azərbaycandan nefti nəql etmək üçün hazır vəziyyətdə olmalıdır. Bu, başqa bir çətinlikdir. Müxtəlif qüvvələr cürbəcür marşrutların yaradılmasına təzyiq göstərirlər. Bizi narahat edən isə marşrutun təhlükəsizliyi, siyasi sabitlik və iqtisadi səmərəlilikdir. Mən deyərdim ki, Türkiyə bu danışıqların hər ikisində ən yaxşı seçim olacaq.

Mənim qeyd etdiyim kimi, bizim işimiz hələ qurtarmır. Bu yolda bizi çətinliklər və problemlər gözləyir; buna baxmayaraq, biz bu müqavilənin həyata keçirilməsini təmin etmək üçün bütün qüvvələrimizi əvvəlcədən səfərbər etməyə və gələcəkdə istənilən problemin öhdəsindən gəlməyə hazırıq.

**– Dünyada iki çox güclü dövlət var idi, siz də bu iki dövlətdən birinin əsas liderlərdən idiniz və buna görə də sizin geniş siyasi təcrübəniz var. Siz indicə dünyada yeganə güclü dövləti idarə edən və kifayət qədər gənc lider olan Prezident Klintonla şəxsən görüşübsünüz. Sizin Bill Klintonla bağlı şəxsi təəssüratınız necədir və onun Azərbaycanla bağlı problemlərə yanaşmasına dair sizin fikriniz nədir?**

– Düzdür, siz bilirsiniz ki, siyasətə və rəhbərliyə gələndə yaşın neçə olması vacib deyil. Bu, doğrudur ki, mən uzun müddət siyasətdə olmuşam və dünyanın güclü bir dövlətinin əsas rəhbərliyinin üzvü kimi daxildən və xaricdən bütün bunları görmüşəm. Hər halda, Bill Klinton Amerika Birləşmiş Ştatlarında seçilmiş prezidentdir və onun seçilməsindən sonra mən ona çox böyük hörmətlə yanaşmışam.

Mən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyəndə kömək üçün ona etdiyim xahişimə cavabını heç vaxt unutmaram. O, prezident seçiləndə, mən ona təbrik məktubu göndərdim və Ermənistanın törətdiyi blokadaya görə Naxçıvan Muxtar Respublikasında yaranmış çətin vəziyyəti ona izah etdim. Dərhal, o, bir yük təyyarəsi yardım təşkil etdi və bizə göndərdi.

Mən Bill Klintonu yüksək təcrübəli bir siyasətçi hesab edirəm. O, çox ağıllıdır. O, xeyirxah şəxsdir və digər xalqların problemlərinə böyük maraq olur. Məhz buna görə də mənim, həqiqətən, ona böyük hörmətim var.

Mən Prezident Klintonu Azərbaycanın problemlərini həll etməkdə bizə çox böyük kömək etməyi bacaran dost və tərəfdaş kimi görürəm. Bütövlükdə, mən deyərdim ki, bizim görüşümüz çox səmimi və səmərəli keçdi. Biz bir-birimizi çox aydın başa düşdük. O, mənim verdiyim məlumatlara böyük maraq göstərdi. Mənə elə gəldi ki, o, bizim gələcəyimizlə bağlı problemlərin həlli üçün irəli sürdüyüm təklif və tövsiyələrimi qəbul etdi.

**– Bizimlə görüşmək üçün burada, Nyu-Yorkda çox sıx iş qrafikinizdən vaxt ayırdığınıza görə sizə təşəkkür edirəm. Jurnalımızın kollektivi son dərəcə gərgin əməyin və fədakarlığın nəticəsində regionda sülhü və inkişafı təmin etmək üçün həyata keçirilən bu planların yaxın günlərdə müvəffəqiyyət qazanması üçün sizə və Azərbaycan xalqına ruh yüksəkliyi və uğur arzulayır.**

– Azərbaycana olan səmimi marağınıza görə sizə və jurnalınıza, “Azerbaijan International”-ə təşəkkür edirəm. Bu, ilk dəfədir ki, Amerika Birləşmiş Ştatlarında Azərbaycan haqqında belə yüksək keyfiyyətli jurnal nəşr edilir. Bizim tariximizdə bundan əvvəl heç vaxt Azərbaycana həsr edilmiş “Azerbaijan International” kimi belə gözəl jurnal olmayıb. Və bu sizin və sizin kollektivinizin xoş niyyətlə yaratdığınız bir jurnaldır və buna görə mən sizə təşəkkür edirəm.

Biz harada yaşamasından asılı olmayaraq, bizə kömək edən azərbaycanlılara və sizin kimi Azərbaycanı sevən digər xalqın nümayəndələrinə ehtiyac duyuruq. Avropada və Amerikada sizin kimi bizə kömək edən kifayət qədər insan yoxdur. Biz indi çox güclü diasporaya malik olan və öz məqsədləri üçün çoxlu məqalələr, qəzet və jurnallar nəşr edən Ermənistanla müharibə vəziyyətindəyik.

Azərbaycana kömək edən azdır. Buna görə də, Azərbaycana böyük sevgisi olan sizin və sizin kollektivinizdəki kimi insanlar təkcə bizim ölkə üçün deyil, həmçinin regionda sülh və ədalət naminə yaxşı iş görürlər. Mən sizin səylərinizi çox yüksək qiymətləndirirəm.

***İngilis dilindən tərcümə etdi:***
***Süsənbər AĞAMALIYEVA,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***Naxçıvan Dövlət Universitetinin***
***Tərcümə Mərkəzinin əməkdaşı***

# Moskvada Heydər Əliyevə həsr olunmuş xatirə axşamı

**Ölkəmizin Rusiyadakı səfirliyində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş xatirə axşamı keçirilib. Tədbir Azərbaycanın Rusiyadakı səfirliyi və Heydər Əliyev Fondunun Moskva nümayəndəliyinin birgə təşkilatçılığı ilə reallaşıb.**



Tədbirdə diplomatik nümayəndəliklərin rəhbərləri, Rusiyanın tanınmış ictimai xadimləri, Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin əməkdaşları, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) fəalları və Azərbaycan diasporunun tanınmış nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçılarına ümummilli lider Heydər Əliyevin həyat və dövləti fəaliyyətinə həsr olunmuş fotosərgi, o cümlədən Ulu öndər haqqında nəşrlər təqdim olunub.

Giriş sözü ilə çıxış edən səfir Rəhman Mustafayev Heydər Əliyevin Azərbaycan tarixindəki müstəsna rolundan, müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında böyük xidmətlərindən danışıb.

Diplomat çıxışında Heydər Əliyevlə XX əsrin məşhur tarixi şəxsiyyətləri - Almaniyada Konrad Adenauer, Türkiyədə Mustafa Kamal Atatürk və Fransada Şarl de Qoll arasında paralellər aparıb. O, Heydər Əliyev və Şarl de Qollun taleyini müqayisə edərək vurğulayıb: "Bu iki siyasi fiqurun ortaq cəhətləri çoxdur. Hər ikisi ölkə ağır böhran vəziyyətində olanda hakimiyyətə qayıdıb". Səfir Azərbaycanın 1993-cü ildə vətəndaş müharibəsi ərəfəsində olduğunu, işğal olunmuş əraziləri, yüz minlərlə qaçqın, hakimiyyətin iflic vəziyyəti və dərin iqtisadi böhranla üzləşdiyi ağır vəziyyətə düşdüyünü xatırladıb. O əlavə edib: "Bu, faktiki olaraq vətəndaş müharibəsi astanasında olan Azərbaycan idi, ərazisinin bir hissəsi işğal olunmuşdu".

Diplomat rəmzi bir məqama da toxunaraq bildirib ki, o, mayın 9-da Qırmızı meydanda keçirilən Qələbə paradında bir çox azərbaycanlı kimi qürur hissi keçirib: "Azərbaycan Bayrağı ilə bu meydandan təntənəli şəkildə keçən hərbçilərimizi izləyəndə, təbii ki, tamam başqa Azərbaycanı xatırladım... Başa düşdüm ki, Heydər Əliyev olmasaydı, Qırmızı meydandan keçən hərbçilərimizin də bu marşı olmazdı".

Xarici siyasətdən danışan səfir xüsusi vurğulayıb ki, Heydər Əliyevin Qərb liderlərinin malik olduğu geosiyasi “çətiri” yox idi. “Marşal Planı yox idi. Kənardan nə maliyyə, nə iqtisadi, nə siyasi, nə də geosiyasi dəstək mövcud deyildi. Yəni, bu “çətiri” Heydər Əliyev özü, öz əli ilə yaradıb”, -deyə diplomat qeyd edib. O əlavə edib ki, Ulu öndərin dövründə həyata keçirilən balans və enerji layihələri strateji tərəfdaşlıq münasibətlərinin əsasını təşkil edib: “Buna görə də, təbii olaraq deyirik ki, bu gün gördüyümüz Azərbaycanın – sabit, nüfuzlu və strateji cəhətdən müstəqil dövlətin əsasını məhz o qoyub”.

Rusiya Federasiyası xarici işlər nazirinin müavini Mixail Qaluzin çıxışında Heydər Əliyevin Sovet İttifaqının və müstəqil Azərbaycanın tarixində müstəsna rolunu vurğulayıb. O deyib: “Heydər Əlirza oğlunun xatirəsi qəlbimizdə yaşayır və bu, bizim ümumi tarixi keçmişimizin parlaq rəmzidir”. Nazir müavini xatırladıb ki, Heydər Əliyev 1982-1986-cı illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi maşınqayırma və ticarətdən tutmuş mədəniyyət və nəqliyyata qədər 12-dən çox nazirliyin işini əlaqələndirib. Onun şəxsi nəzarəti altında əhəmiyyəti bu gün də aktuallığını qoruyan əsas infrastruktur layihəsi olan Baykal-Amur magistral xəttinin tikintisi gedirdi.

İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi kontekstində çıxış edən Rusiya XİN rəhbərinin müavini mayın 9-da Azərbaycan hərbçilərinin Qırmızı meydanda keçirilən paradda iştirakının rəmzi olduğunu qeyd edib: “Bu, qəhrəmanlıq ənənələrinin davamlılığını və əlaqələrimizin müttəfiqlik xarakterini nümayiş etdirən daha bir mühüm xatirə estafetidir”.

Dövlətlərarası Aviasiya Şurasının prezidenti Tatyana Anodina, sənətşünas Zelfira Trequlova, MDBMİ-nin inkişaf üzrə prorektoru, rektorluq aparatının rəhbəri Artyom Malqin, Sosialist Əməyi Qəhrəmanı, BAM-ın işçisi Leonid Kazakov və başqaları xatirələrini bölüşüblər.

# 9 May və hay nankorluğu

## Rəsmi İrəvanın balanslı siyasət görüntüsü və...

**Qəribə durum yaranıb. Ermənistan hakimiyyəti, guya, balanslı siyasət yeritdiyini göstərmək istəyir. Amma kənardan bu mənzərə çox primitiv təsir bağışlayır. Yazımızda primitivliyin müxtəlif tərəflərinə diqqət yetirəcəyik.**

Moskvada Qırmızı meydanda Böyük Vətən müharibəsindəki qələbənin 80 illiyi təntənəli şəkildə qeyd edildi. Bu, sabiq SSRİ-nin varisi kimi Rusiyanın zəfərə sahiblənməsinin göstərici kimi yadda qaldı. Əlbəttə, faşizm üzərində qələbə sevinci Sovetlər Birliyinin digər xalqlarının da alman faşizminə qarşı mübarizə əzmi sayəsində yaşanmışdı. Bu məqamı Rusiyada da dərk edirlər. Ona görə paradda müttəfiq respublikaların ordusunun nümayəndələri də təntənəli keçid etdilər. Yəni, Rusiya qələbənin müştərəkliyi məntiqindən çıxış etdi.

Bəli, SSRİ İkinci dünya müharibəsində, prinsipcə, təkbaşına mübarizə aparmırdı. Ona xaricdən kömək edənlər var idi. Amma o köməyin necə göstərildiyi yaxşı məlumdur. Əgər Sovet İttifaqı özü dirəniş göstərməsəydi, çox güman, yardım olmayacaq və Qərbin Hitler Almaniyasının köməyi ilə "qırmızı təhlükəni" aradan qaldırması gerçəkləşəcəkdi. Qərb, o cümlədən, ABŞ SSRİ-nin möhkəm olduğunu gördüyündən, güclünün yanında dayandı. Bu dayanış faşizmin məhvini yalnız tezləşdirmək baxımından əhəmiyyətli oldu. Sözümüz ondadır ki, hansı səmtdən yanaşsaq, bugünkü Rusiyanın nasizmə qarşı mübarizə və qalibiyyətə sahiblənməsində və təntənəli parada evsahibliyində məntiq var. Hər halda, dünyanın Çin kimi super gücünün rəhbərinin törənə qatılması adi məsələ sayıla bilməzdi. Deməli, məntiq qəbul edilir.

Moskvadakı parada Çin liderinin salamlaşmadığı, yaxud tanımayıb salamlaşmadığı Ermənistanın baş naziri Nikol Paşinyan da qatılmışdı. O Paşinyan ki, uzun müddət Moskvaya gedib-getməyəcəyi ətrafında müzakirələr səngimək bilmirdi. Son anda baş nazirin parada qatılacağı bildirildi. Maraqlıdır ki, bununla əlaqədar açıqlama Prezident İlham Əliyevin Rusiyaya getməyəcəyi bildirildikdən sonra yayıldı. Rəsmi İrəvanın əvvəldə haqqında söz açdığımız "balans xətti" işə düşdü. Çox güman, dövlətimizin başçısı Moskvaya getsəydi, Paşinyan ora yollanmayacaq və Nikolun Qərbdəki havadarları bunu Ermənistanın Qərbə sadiqliyi kontekstində təbliğ edəcəkdilər. Heç şübhəsiz, onlar Azərbaycanı ruspərəst kimi də göstərməyi yaddan çıxarmayacaqdılar. Bəs indi?

Əlbəttə, ölkəmizin liderinin qələbə paradına qatılmamasının səbəbi aydındır. Rəsmi səviyyədə açıqlanmasa da, konkret motiv var. Azərbaycan ötən il dekabrın 25-də AZAL təyyarəsi ilə bağlı olaya Rusiyanın düzgün qiymət verməsini tələb edir və bunu açıq şəkildə bildirib. Bu, dövlətimizin prinsipial yanaşmasıdır. Rusiya tərəfi vaxtı uzadır, təyyarəmizin vurulmasına görə günahkarları cəzalandırmır. Bu da olsun Moskvanın prinsipiallığı. Hərçənd, yanaşmanı anlamaq çox çətindir.

***

Əlqərəz, Paşinyanın Moskvaya Azərbaycan Prezidenti getmədiyi üçün getməsindəki məntiqi anlamaq nə qədər çətindirsə, erməni baş nazirin 9 May təbrikində ifadə etdiyi fikirlərdəki subliminal mesajları dərk etmək bir o qədər asandır. O, Rusiyaya yollanır və faktiki olaraq ölkənin faşizm üzərindəki qələbədəki müstəsna payını tanıyır, digər tərəfdən isə yaydığı mətndə elə rəy formalaşdırır ki, sanki faşizmin devrilməsi SSRİ-nin xidməti deyildi.

Nikol təbrikində təxminən belə deyir: bir tərəf, yəni faşizm özünü digər xalqlardan üstün tutmaq istəyirdi və digər xalqlar birləşdilər ona düz yolda olmadığını başa saldılar. Başqa sözlə desək, Almaniya və müttəfiqləri var idi, bir də SSRİ-nin də tərkibində yer aldığı müttəfiqlər. Şübhəsiz, məsələnin bu qoyuluşu Sovetlər Birliyinin, müvafiq olaraq, Rusiyanın zəfərdəki payını kiçiltməyə hesablanıb. Üstəlik, Nikol təbrik mətnində "Böyük Vətən müharibəsindəki qələbə" deyil, "İkinci Dünya müharibəsindəki qələbə" fikrini qabardır və hayların prosesdə rolunun olmasına geniş toxunur...

Beləliklə, erməni baş nazir Moskvaya getməsinə görə Qərb dairələrində özünə qarşı yarana biləcək qəzəbi zəiflətmək yolunu tutur. Bəs qəzəblənən hansı dövlət ola bilər? Əlbəttə ki, Fransa. Yeri gəlmişkən, Parisdə də qələbə paradı keçirilmişdi. Tam mümkündür ki, Prezident Emmanuel Makron Nikolun Parisi deyil, Moskvanı seçməsindən əsəbləşsin. Əlbəttə, bildirdiklərimiz ehtimallardır. Ancaq...



Ermənistanın İctimai televiziyasında İkinci dünya müharibəsi ilə bağlı müzakirələr getdi və orada Fransanın qələbədəki payı şişirdildi. Nikol saxta tarix uydurdu. Real tarix isə budur ki, İkinci dünya müharibəsində faşizmə qarşı müttəfiqlik institutundan söz düşürsə, yada, ilk növbədə, SSRİ, ABŞ və Böyük Britaniya düşür. Fransaya bu masada yer olmayıb. Onun qələbədəki rolu, məsələn, Polşanın rolu qədərdir. Polşanı da Hitler Almaniyası işğal etmişdi, Fransanı da. Fransa 1940-cı ildə sarsıdıcı məğlubiyyətə uğramış və təhqiramiz şərtlərlə təslim olmaq məcburiyyətində qalmışdı. Hərçənd, bu məğlubiyyət Nikol Paşinyan Ermənistanının İkinci Qarabağ müharibəsindəki rüsvayçılığından acınacaqlı olmamışdı.

O zaman Fransanın hərbi-siyasi elitasının bir hissəsindən fərqli olaraq, Hitlerə tabe olmayan general Şarl de Qoll var idi. O, yoldaşları və həmfikirləri ilə birgə müqavimət hərəkatı təşkil etmiş və yalnız bunun sayəsində Fransa 1945-ci ildə Almaniyanın qeyd-şərtsiz təslim olması aktının imza masası arxasında özünə yer tapmağı bacarmışdı. Avropada bunu yaxşı bilirlər. Paşinyanın təbliğatçıları isə elə danışırlar ki, sanki Fransa müharibədəki zəfərdə çox böyük pay sahibidir. Hətta SSRİ-dən də çox-çox böyük pay sahibi.

***

Aydındır ki, hazırkı erməni iqtidarı daim keçmiş SSRİ-ni hədəfə alır. Həm bu kəsimin təmsilçilərininin, həm də hayların sabiq iqtidarının nümayəndələrinin bildirdiklərindən belə çıxır ki, Qarabağı Ermənistandan ayırıb Azərbaycana verən Sovetlər Birliyinin rəhbərliyi olub. Belə yanaşma nankorluqdur. Çünki, birincisi, 1918-ci ildə İrəvan Ermənistana güzəştə gedilmiş, sovet Rusiyası Azərbaycanın və Ermənistanın müstəqilliyinə son qoyduqdan sonra isə erməni millətçiləri Zəngəzura və Qarabağa iddiaları baş qaldırmışdı.

Həmin Sovet Rusiyası Zəngəzurun Azərbaycan SSR-dən alınıb Ermənistan SSR-ə verilməsinə dair qərar çıxarmışdı. Qarabağa gəlincə, onun muxtar respublika statusunda "Azərbaycanın tərkibinə verilmə" fikri əlavə olunmuşdu ki, bu ərazinin, guya, mübahisəli olduğu təəssüratını yaratmışdı. İstər belə bir təəssüratın mövcudluğu, istərsə də muxtar respublika formatı, bir növ, avantürizm üçün tutacaq yer idi və 1988-ci ildə baş qaldıran erməni millətçiliyi bu tutacaqdan, kifayət qədər, "bəhrələndi".

Bəli, Ermənistanın anti-SSRİ köklənişi fonunda anti-Rusiya ritorikasının özü də nankorluqdan başqa bir şey deyil. Çünki Cənubi Qafqazda erməni qövmünü yoxdan var edən məhz ruslar olublar. Üstəlik, Ermənistanın Qarabağı və digər torpaqlarımızı işğalı, eləcə də işğalın otuz ildək davam etməsi məhz Rusiyanın köməyi ilə gerçəkləşmiş prosesdir. Hələ sovet hakimiyyəti illərində Azərbaycan torpaqları hesabına Ermənistana başqa torpaq hədiyyələri də olmuşdu. O hədiyyələr ki, Azərbaycanın Naxçıvanla quru yolunu bağlamışdı. Ermənistanın hazırkı hakimiyyətinin təmsilçilərinin Qarabağ itkisinə görə Rusiyanı günahlandırdığını da bilirik. Bu yanaşma da cəfəngdir və erməni nankorluğunun məhsuludur.

***

Belə qənaətə gəlirik ki, hay iqtidarının nankorluğu 9 May zəfəri fonunda da özünü göstərdi. Paşinyan və tərəfdarları Fransanın zəfərdəki böyük hesab edilməyəcək rolunu qabardıb saxta tarix uydurdular. Ola bilər, rəsmi Paris bu tarixi "yeyəcək". Hər halda, onun üçün də müttəfiqi Ermənistanın rəhbərinin Moskvadakı parada yollanması yaxşı hal deyil.

Sonda deyək ki, Fransanın müasir erməni nankorluğunda payı var. Makronun Rusiyanın müttəfiqi Ermənistanın maraq və mənafelərini satmaqda günahlandırdığını bilirik. Onu da bilirik ki, Makron Fransası Paşinyan Ermənistanını əlinə düşən hər fürsətdə qoruyur. Qoruyur ki, Cənubi Qafqazdakı avantürizm aləti əldən çıxmasın. Avantürizmin isə Qarabağ motivi var. Axı Qarabağ erməni milli identikliyi baxımından başlıca məsələdir. Yaqin elə buna görə də Fransanın Ermənistandakı səfiri Olivye Dekotini bir müddət əvvəl bildirmişdi ki, Qarabağı Azərbaycana Paşinyan iqtidarı yox, 1991-ci ildə Alma-Atı Bəyannaməsinə imza atanlar vermişdilər.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Ermənistan BMT tribunasında: görüntü var, məzmun yox



(əvvəli 1-ci səhifədə)

Bu səfərlər bir neçə mühüm kontekstdə dəyərləndirilə bilər. Təbii ki, ilk növbədə, regional təhlükəsizlik konteksti diqqəti cəlb edir. 2020-ci ilin payızında İkinci Qarabağ müharibəsində sarsıdıcı məğlubiyyətdən və 2023-cü ilin sentyabrında keçmiş separatçı xunta rejiminin hələ də nəzarət etdiyi ərazilərdə baş tutan lokal xarakterli antiterror tədbirlərindən sonra Ermənistan bölgədə tamamilə yeni reallıqlarla üz-üzə qalıb. Azərbaycan ərazi bütövlüyünü tam bərpa edib və bu, Ermənistanın təhlükəsizlik konsepsiyasına ciddi təsir göstərib. Papikyanın səfərləri də məhz bu kontekstdə – yeni hərbi-siyasi tərəfdaşlıqlar qurmaq və mövcud olanları gücləndirmək məqsədi daşıya bilər.

Digər tərəfdən, bu səfərlər Ermənistanın Rusiya ilə ənənəvi hərbi ittifaqdan uzaqlaşaraq Qərblə yaxınlaşmaq istəyinin göstəricisidir. Papikyanın son gedişləri həm də Ermənistanın, necə deyərlər, nüvəsində Rusiyanın dayandığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından uzaqlaşmaq niyyətinin real əlamətləri kimi şərh olunur. Ermənistan son zamanlar KTMT-nin bəzi tədbirlərində iştirak etmir, təşkilatın büdcəsinə vəsait ayırmır. Mayın 9-da faşizm üzərində Qələbənin 80-ci ildönümü münasibətilə Moskvada keçirilən parada baş nazir Nikol Paşinyanın qatılmasına rəğmən təntənəli keçiddə Ermənistan hərbçilərinin iştirak etməməsi diqqətdən yayınmadı. Bütün bunlar göstərir ki, rəsmi İrəvan Rusiya və KTMT əvəzində alternativ təhlükəsizlik arxitekturası axtarır.

Eyni zamanda, İrəvanın Tehran və Nyu-Dehli ilə təmasları da diqqəti cəlb edir. Ermənistan son aylarda Hindistanla silah müqavilələri bağlayıb, həmçinin İranla müdafiə və sərhəd təhlükəsizliyi mövzusunda müzakirələr aparıb. Güman etmək olar ki, Papikyanın bu səfərləri regional balans yaratmaq məqsədi daşıyır.

***

Papikyanın səfərlər silsiləsinin növbəti dayanacağı yenə Almaniya olub. Mayın 12-də onun rəhbərlik etdiyi nümayəndə heyəti Berlinə işgüzar səfər edib. Bu barədə Ermənistan KİV-ləri məlumat yayıblar. Ermənistan müdafiə naziri Almaniya paytaxtında BMT-nin sülhə dəstək üzrə nazirlər toplantısının rəsmi açılış mərasimində iştirak edib. Ölkənin dövlət informasiya agentliyi – "Armenpress"in məlumatına görə, görüş zamanı iştirakçı ölkələrin nümayəndələri BMT-nin sülhməramlı fəaliyyətində cari problemləri və sülhün qorunmasına yönəlmiş sülhməramlı prosesdə islahatların prioritetlərini müzakirə edəcəklər. Nazirlərin görüşündə iştirakçılar BMT çərçivəsində beynəlxalq sabitliyin və təhlükəsizliyin təmin edilməsinə dair öhdəliklərini təqdim edəcəklər. Ermənistan müdafiə nazirinin həmkarları ilə ikitərəfli görüşləri də planlaşdırılır.

Qeyd edək ki, BMT-nin sülhə dəstək üzrə nazirlər toplantısı sonuncu dəfə 2024-cü ilin aprel ayının 25-26-da keçirilmiş və beynəlxalq səviyyədə böyük maraq doğurmuşdu. Almaniya hökuməti tədbirə evsahibliyi etsə də tədbirin təşkilatçısı BMT idi. Bu konfrans BMT-nin sülhməramlı əməliyyatlarını daha effektiv etmək üçün tərəfdaş ölkələrdən konkret öhdəliklər almaq (maddi, texniki, hərbi), sülhməramlı missiyaların təhlükəsizliyini və səmərəsini artırmaq, qadınların iştirakı, iqlim dəyişikliklərinin təsiri, rəqəmsal texnologiyaların rolu kimi yeni çağırışlara diqqət çəkmək məqsədi daşıyırdı. Konfransın əsas mövzuları BMT sülhməramlı qüvvələrinin gücləndirilməsi, yeni texnologiyaların (pilotsuz uçuş aparatları, kommunikasiya sistemləri və s.) istifadəsi, qadınların sülhməramlı missiyalarda rolu, iqlim və təhlükəsizlik, habelə mülki əhalinin müdafiəsi idi.

Tədbirdə 80-dən çox ölkənin müdafiə və xarici işlər nazirləri, BMT Baş katibinin müavinləri, NATO, Avropa İttifaqı, Afrika İttifaqı kimi beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdilər. Konfransın sonunda iştirakçı ölkələr yeni texnologiyaların istifadəsi və təlim üzrə öhdəliklər götürmüş, sülhməramlı kontingentlərin gücləndirilməsi üçün konkret planlar təqdim etmiş, BMT-nin "Sülhməramlı fəaliyyət+" təşəbbüsünə dəstəyini bir daha təsdiqləmişdilər.

Ermənistan müdafiə naziri S.Papikyan ötənilki tədbirdə də iştirak etmiş, çıxışı zamanı sülhməramlı əməkdaşlıq sahəsində ölkəsinin təkliflərini və BMT-nin fəaliyyətlərinə töhfəsini vurğulamışdı. Bu, Ermənistanın beynəlxalq təhlükəsizlik strukturuna daha sıx inteqrasiya cəhdinin bir hissəsi kimi qiymətləndirilirdi.

İrəvanın builki tədbirdə də iştirakı və bu tədbirə münasibəti onun dəyişən təhlükəsizlik və xarici siyasət strategiyası fonunda diqqəti cəlb edir. Bu, ilk növbədə yeni təhlükəsizlik platformalarına inteqrasiya cəhdidir. Başqa sözlə desək, Papikyanın Berlinə getməsi Ermənistanın Rusiya yönümlü KTMT çərçivəsindən uzaqlaşaraq qlobal və Qərb yönümlü təhlükəsizlik sistemlərinə inteqrasiya etmək cəhdinin tərkib hissəsidir. Bu, KTMT-dən narazılığın davam etdiyinin, alternativ təhlükəsizlik tərəfdaşları axtarışının göstəricisidir.

Eyni zamanda, İrəvan bununla sülhməramlı statusun möhkəmləndirilməsinə cəhd edir. Qeyd edək ki, Ermənistan hərbçiləri hazırda yalnız iki sülhməramlı missiyada (Kosovo və Livanda) iştirak edirlər. Bununla İrəvan özünü beynəlxalq iştirakçılar qarşısında sülh tərəfdarı kimi təqdim etməyə çalışır. Papikyanın konfransda çıxışı zamanı Ermənistanın BMT sülhməramlı əməliyyatlarında daha geniş iştirak niyyətini, "sülhün təşviqinə töhfə vermək" istədiyini vurğulaması bir növ piar və imic siyasəti kimi də qəbul edilə bilər. Aydın görünür ki, Ermənistan beynəlxalq arenada etibarlı və "sülhsevər tərəfdaş" obrazı yaratmağa çalışır. Tədbirin Almaniyada keçirilməsi və Qərb ölkələrinin dominantlığı şəraitində iştirak Ermənistanın Avropa İttifaqı və NATO ölkələri ilə hərbi-siyasi münasibətlərini möhkəmləndirmək istəyi ilə də üst-üstə düşür. BMT-nin sülhməramlı platforması bu mənada Ermənistan üçün bir qapı rolunu oynayır. Bu, Rusiya asılılığından çıxmaq, eyni zamanda Qərblə bağlılıq yaratmaq üçün neytral və qəbulolunan çərçivədir.

Papikyanın bu tədbirdə iştirakı həm də Moskva üçün dolayı mesaj hesab olunur. Bu mesajı "əgər siz KTMT çərçivəsində bizi müdafiə etmirsinizsə, biz də alternativlərə baxırıq" şəklində formalaşdırmaq da mümkündür. Digər tərəfdən bu, Ermənistanın balanslı siyasət aparmaq yox, vektor dəyişmək niyyətində olduğunu göstərən addımlardan biridir. Ermənistan sülh danışıqları fonunda belə tədbirlərdə iştirakı həm də Azərbaycan qarşısında siyasi və diplomatik üstünlük qazanmaq vasitəsi kimi istifadə etməyə çalışır. İrəvan bununla sülh gündəmini dəstəklədiyini, qlobal müstəvidə müsbət imic formalaşdırmağa çalışdığını göstərmək istəyir. Beləliklə, Ermənistan üçün bu tədbir yeni xarici təhlükəsizlik formatlarına daxil olmaq, Rusiya təsirindən çıxmaq, Qərblə siyasi-müdafiə əlaqələrini möhkəmləndirmək, özünü "sülh tərəfdarı ölkə" kimi göstərmək məqsədlərinə xidmət edir. Bu səylər hazırda Ermənistanın postmünaqişə dövrü üçün yeni təhlükəsizlik arxitekturası qurmaq strategiyasının əsas sütunlarından biridir.

Ancaq bütün bu cəhdlərin nəinki regionda, heç Ermənistan daxilində də lazımı effekti görünmür. Ölkənin hökumətyönlü saytları, adətən, BMT-nin sülhməramlı konfransları kimi tədbirlərdə iştirakı müsbət, İrəvanın "sülh tərəfdarı siyasətinin göstəricisi" kimi təqdim etsələr də, müstəqil və müxalif yönümlü media orqanları bu cür iştirakçılığı çox vaxt şübhə və ya mənfi yöndən şərh edirlər. Müstəqil media və analitiklər bildirirlər ki, simvolik iştiraka həddindən artıq önəm verilir. Bəzi erməni siyasi analitikləri qeyd edirlər ki, Ermənistanın bu cür tədbirlərdə iştirakı real hərbi potensiala malik olmadan, sadəcə formal xarakter daşıyır. Onların fikrincə, rəsmilər xarici səfərlərlə ölkədəki real təhlükəsizlik boşluqlarını ört-basdır etməyə çalışırlar. Məsələn, Yerkir.am saytında yayımlanan şərhlərdən birində bildirilir ki, sülhməramlı tədbirdə iştirak bizi qorumur – sərhədlərimizdə hər gün atəşkəs pozulur, amma Papikyan Berlində şəkil çəkdirir.

Konfransda iştirakı Rusiyaya qarşı demarş kimi təqdim edənlər də var. Bu təbəqəyə görə, Ermənistanın Qərb tədbirlərində fəallaşması Moskvanı daha da qıcıqlandırır və KTMT-dən daha sərt reaksiya doğura bilər. "İravunk.com"un analitik məqaləsində qeyd edilir ki, sülh axtarmaq əladır, amma Rusiya ilə münasibətləri tam yandırmaq hesabına yox.

Bəzi tənqidçilər isə Papikyanın səfərlərinin və tədbirlərdə iştirakının şou xarakteri daşıdığını deyirlər. Onların fikrincə, təhlükəsizlik real deyil, görüntü xarakterlidir. Bildirilir ki, əgər Ermənistan real hərbi islahatlar aparmırsa, BMT tədbirlərində iştirakın praktik əhəmiyyəti yoxdur. Müxalifyönlü "Hraparak", "Yerkir", "İravunk" kimi saytlar Ermənistan rəhbərliyini "yalnız Qərbə xoş görünmək üçün addımlar atmaqda" ittiham edir. Bu ritorikaya görə, BMT tədbirləri Ermənistanın yanlış geosiyasi istiqamətinin nəticəsidir. Beləliklə, Papikyanın Berlindəki tədbirdə iştirakı effektsiz diplomatik jest, Rusiya ilə gərginliyi artıran addım və cəmiyyətin diqqətini real təhlükəsizlik problemlərindən yayındırma kimi təqdim olunur.

*Səxavət HƏMİD*
*XQ*

### Ekspert rəyi



**Rizvan HÜSEYNOV,**
**hərbi-siyasi şərhçi**

– Ermənistan rəhbərliyinin bu cür beynəlxalq tədbirlərdə aktivliyi, xüsusilə Paşinyan hökumətinin "sülhsevər obraz" formalaşdırmaq cəhdi, əslində, ölkənin daxili və regional siyasəti ilə uzlaşmır. Papikyan Berlində BMT kürsüsündən sülhdən danışır, amma Ermənistan parlamentində revanşist çıxışlar səslənir. Ermənistan ordusu Qərbdən aldığı silahları hələ də sərhəd bölgələrinə cəmləşdirir. Ermənistanın bu tədbirdə iştirakı həm Qərbə loyal görünmək, eyni zamanda, Rusiya ilə məsafə saxlamaq məqsədi daşıyır. Lakin bu, ardıcıl və etibarlı siyasət deyil. Ermənistan KTMT-dən uzaqlaşaraq yeni təhlükəsizlik çətiri axtarır, amma nə NATO, nə də BMT-nin sülhməramlı mexanizmləri ona real hərbi zəmanət verə bilər.

(VI MƏQALƏ)

# Qlobal güc paritetinin dəyişən koordinatları

## *Çin kontekstində yeni güc arxitekturası*

Əsrimizin ikinci onilliyindən etibarən beynəlxalq münasibətlər sistemində güc mərkəzləri təkcə qərarvermə platformalarında deyil, onların arxasında dayanan normativ və siyasi baxışlarda da köklü dəyişikliklərlə müşayiət olunur. Dəyişimin episentrində isə sürətlə yüksələn və status-kvoya meydan oxuyan bir aktor dayanır: Çin Xalq Respublikası.

Realist nəzəriyyə beynəlxalq sistemin anarxik təbiəti və güc balansı prinsipinə əsaslanaraq, dövlətlərin əsas məqsədinin öz milli maraqlarını və təhlükəsizliklərini qorumaq olduğunu vurğulayır. Deməli, bu çərçivədə Çin artıq, sadəcə olaraq, iqtisadi güc mərkəzi deyil, həm də normativ-siyasi alternativ kimi formalaşır. Pekin klassik hərbi güc nümayişindən daha çox iqtisadi, texnoloji və diplomatik rıçaqlarla təsir imkanlarını genişləndirir ki, bu da Çin üçün yalnız mövcud nizamın içərisində böyümək deyil, həm də həmin nizamın parametrlərini yenidən yazmaq cəhdidir.

BMT Təhlükəsizlik Şurası üzvü kimi Çin qlobal idarəetmənin əsas platformalarında yer alsa da, bu mövqeyi status-kvonu qorumaq üçün deyil, onu dəyişmək üçün istifadə edir. Çin, xüsusilə də Qlobal Cənub ölkələri ilə münasibətlərində özünü "post-kolonial" nizamın alternativ lideri kimi təqdim edir. Çinin bu yanaşması Qərbin universal dəyərlər adı altında tətbiq etdiyi selektiv siyasətə və ikili standartlara qarşı tənqidi ritorika ilə müşayiət olunur. Nəticədə, Çin "status kvoya meydan oxuyan" rolunda çıxış edərək beynəlxalq münasibətlər sisteminin çoxqütblü, qeyri-Qərb yönümlü və regionun ümumi xüsusiyyətlərinin daha açıq bir versiyasını təşviq edir.





Həmin strategiya Pekinə BRICS, Şanxay Əməkdaşlıq Təşkilatı kimi qurumlar vasitəsilə "qeyri-liberal multilateralizm"i inkişaf etdirmək imkanı verir. Bu vasitə ilə Çin həm regional güclərlə güc balansı yaradır, həm də Qərb yönümlü beynəlxalq institutların hegemon strukturuna qarşı alternativ platformalar qurur. Bütün bu amillər beynəlxalq hüququn, təhlükəsizlik arxitekturasının və hətta qlobal inkişaf gündəminin Çin prizmasından yenidən şərh edilməsinə səbəb olur.

Çinin yüksəlişi təkcə sərt güc (hərbi və iqtisadi təsir) göstəriciləri ilə ölçülmür; o, həm də normativ gücün – yəni ideyaların, dəyərlərin və modellərin ixracı vasitəsilə öz təsir dairəsini genişləndirməyə çalışır. Burada Qlobal Cənub – yəni inkişaf etməkdə olan Afrika, Latın Amerikası, Cənub və Cənub-Şərqi Asiya ölkələri – Pekinin yumşaq güc strategiyasının əsas hədəfidir.

Çinin Qlobal Cənuba yanaşması onun beynəlxalq münasibətlər sistemində "status-quo challenger" (status-kvoya meydan oxuyan güc) kimi mövqeyini nümayiş etdirən strateji xəttin mühüm tərkib hissəsidir. Ənənəvi Qərb yanaşmalarından fərqli olaraq, Çin inkişaf etməkdə olan ölkələrlə münasibətlərini siyasi ideologiya, dəyərlərin ixracı və daxili işlərə müdaxilə üzərində deyil, daha çox qarşılıqlı iqtisadi fayda, infrastruktur inkişafı və ideoloji neytrallıq prinsipi üzərində qurur.

Onun bu yanaşması xüsusilə post-kolonial travmalar yaşayan və Qərb institutlarına qarşı tarixi etimadsızlıq bəsləyən ölkələrdə rezonans doğurur. Çin burada özünü "alternativ tərəfdaş" kimi təqdim edir – neokolonial məhdudiyyətlər, islahat şərtləri və demokratik təsisat tələbləri olmadan inkişaf və tərəqqi modeli təklif edən bir aktor kimi.

Politoloji baxımdan bu yanaşma realist və konstruktivist nəzəriyyələrin sintezində təhlil oluna bilər. Realist nəzəriyyə bu strategiyanı Çin üçün güc balansını dəyişdirməyə yönəlmiş praqmatik addım kimi qiymətləndirir. Çin bu ölkələrlə iqtisadi inteqrasiya yolu ilə öz təsir dairəsini genişləndirir, yeni siyasi müttəfiqlər qazanır və Qərbin təsirini tarazlaşdırır. Konstruktivist yanaşma isə bu prosesi normativ bir dəyişiklik kimi izah edir. Çin sadəcə iqtisadi güc nümayiş etdirmir, eyni zamanda fərqli bir "idarəetmə ideologiyası" ixrac edir. Bu ideologiyada da "sabitlik", "effektiv idarəetmə", "sürətli inkişaf" və "ideoloji neytrallıq" əsas dəyərlərdir.

"Qarışmama prinsipi" Çin diplomatiyasının təməl sütunlarından biridir. Həmin prinsip Çin Kommunist Partiyasının beynəlxalq münasibətlərə baxışının əsasını təşkil edir və "hər bir dövlətin öz daxili siyasi yolunu sərbəst seçmək hüququ" kimi təqdim olunur. Beləliklə, Çin Qərbin universalist normativ tələblərini rədd edərək, beynəlxalq hüququn suverenlik prinsipinə istinad edir və öz inkişaf modelini siyasi şərtlərlə bağlamadan təklif edir.

Çin diplomatiyasında "səmərəli idarəetmə" və "avtoritar-modernizm" əsas pillələrdəndir. Çin daxili sabitlik və iqtisadi tərəqqinin qarşılıqlı şəkildə mövcud ola biləcəyini nümayiş etdirmək istəyir və bunu liberal-demokratik sistemlərə alternativ kimi təqdim edir. Onun bu yanaşması, xüsusilə, siyasi qeyri-sabitlik və zəif dövlət institutları ilə üzləşən ölkələr üçün cəlbedici görünür.

Çinin inkişaf modelinin cazibəsi həm də qeyri-intervensiya siyasəti, sürətli maliyyə resurslarının təqdim olunması, infrastruktur üstünlükləri və mədəniyyətlərarası ideoloji təzyiqin olmaması ilə əlaqəlidir. Qeyd etməliyik ki, Çin modeli Dünya Bankı və Beynəlxalq Valyuta Fondu kimi Qərb maliyyə institutlarının təqdim etdiyi "şərtli yardım" modelindən ciddi şəkildə fərqlənir. "Şərtli yardım" — donor ölkə və ya beynəlxalq maliyyə institutunun maliyyə dəstəyi müqabilində alıcı ölkədən müəyyən iqtisadi, siyasi və ya struktur islahatlar həyata keçirməsini tələb edən yardım modelidir.

Nəticə etibarilə, Çin Qlobal Cənubda bir tərəfdən Qərbin hegemonik liberal nizamına qarşı alternativ formalaşdırır, digər tərəfdən isə yumşaq güc vasitəsilə yeni bir normativ çərçivə yaratmağa çalışır – burada effektivlik və sabitlik demokratiya və insan haqları anlayışlarının qarşısında təqdim olunur.

Çinin Qlobal Cənubda təqdim etdiyi inkişaf modeli və diplomatik strategiyası təkcə ikitərəfli münasibətlərlə məhdudlaşmır. Onun yanaşması institusional çərçivədə, xüsusilə BRICS (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika) və "Bir kəmər, bir yol" təşəbbüsü vasitəsilə sistemli və normativ təsir gücünə çevrilir. Hər iki platforma Pekinin beynəlxalq sistemdə Qərbdən kənar alternativ institusional arxitektura qurmaq strategiyasının bir parçası kimi çıxış edir.

BRICS-in ilkin forması çoxtərəfli dialoq və iqtisadi əməkdaşlıq platforması kimi nəzərdə tutulsa da, zamanla bu birlik Çin və digər üzv ölkələr üçün Qərbin maliyyə və hüquq institutlarına qarşı alternativ mövqe tutmağa imkan verən strateji alətə çevrilib. BRICS çərçivəsində Çin öz ideyasını – "inkişaf hüququ"nu – irəli sürür və klassik liberal institutların (Dünya Bankı, Beynəlxalq Valyuta Fondu) təqdim etdiyi struktur islahatlar modelinə alternativ olaraq, daha çevik, şərtsiz və siyasi neytral yardım mexanizmləri təklif edir.

BRICS daxilində yaradılmış Yeni İnkişaf Bankı bu baxımdan xüsusilə önəmlidir. Çin bu bank vasitəsilə inkişaf etməkdə olan ölkələrə kredit və investisiya imkanları yaradır, lakin bu yardımlar da yenə siyasi və institusional şərtlərlə yüklənmir və iqtisadi yardımlar Qlobal Cənub üçün cəlbedici alternativ olmaqla yanaşı, beynəlxalq maliyyə sistemində Çinin təsirini artırır.

"Bir kəmər, bir yol" təşəbbüsü Çinin yumşaq güc potensialını sərt infrastruktur gücü ilə birləşdirən və onu geosiyasi alətə çevirən ən genişmiqyaslı strateji layihəsidir. 150-dən çox ölkə ilə əməkdaşlıq edən Çin təkcə yol, dəmir yolu, liman və enerji layihələri ilə deyil, həm də maliyyə institutları, rəqəmsal texnologiyalar və hüquqi çərçivələr vasitəsilə yeni bir beynəlxalq iqtisadi sistemin inşasını təmsil edir.

Layihənin əsas siyasi mesajı budur: "Çinlə əməkdaşlıq edin, lakin daxili idarəetmə modelinizə müdaxilə olmayacaq". Çinin tədbirlərində Qərb liberal nizamının təqdim etdiyi "yaxşı idarəetmə", "azad bazar", "şəffaflıq" kimi dəyərlərin yerini səmərəlilik və qarşılıqlı fayda prinsipləri tutur.

Pekinin bu təşəbbüs vasitəsilə inkişaf etdirdiyi institusional strukturlar – Asiya İnfrastruktur İnvestisiya Bankı müxtəlif ikitərəfli hüquqi razılaşmalar, arbitraj mərkəzləri və texnologiya platformaları – Qərbin Bretton Vuds sisteminə alternativ mexanizmlər yaradır.

Çin təkcə infrastruktura və maliyyə imkanlarına görə cazibədar deyil, o həm də yeni normativ dəyərlər paketi təqdim edir: suverenliyə hörmət, müdaxiləsizlik, qarşılıqlı fayda, inkişaf hüququ, effektiv idarəetmənin legitimliyi. Çinin bu dəyərləri Qərb liberal dəyərlərindən – demokratiya, insan haqları, şəffaflıq, azad mətbuat – fərqli olaraq dövlət mərkəzli və modernizasiya yönümlü ideoloji çərçivəni təşviq edir. Beləliklə, Çin təkcə iqtisadi güc kimi deyil, alternativ normativ lider kimi də formalaşır.

Bununla yanaşı, Çin öz kütləvi informasiya vasitələrini, akademik mübadilə proqramlarını və mədəniyyət mərkəzlərini də bu ideoloji yumşaq güc strategiyasının bir hissəsinə çevirir. Konfutsi institutları, Çin telekanallarının beynəlxalq versiyaları və Afrika, Latın Amerikası universitetlərindəki əməkdaşlıqlar Pekinin uzunmüddətli təsir strategiyasını gücləndirir. Burada məqsəd təkcə iqtisadi təsiri artırmaq deyil, həm də Qərb narativlərini balanslaşdıran və Çin modelini pozitiv təqdim edən bir informasiya məkanını formalaşdırmaqdır.

Bütün bu amillər beynəlxalq münasibətlər sistemində yeni bir ideoloji dualizmin – liberal demokratik model və avtoritar inkişaf modeli – meydana çıxmasına səbəb olur. Çin Qlobal Cənubda getdikcə artan şəkildə "təcrübədən çıxan model" statusu qazanır və bu, yalnız iqtisadi imkanlarla deyil, həm də Qərb təsirindən fərqli bir modernləşmə vizyonu ilə izah olunur.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Ziddiyyətlərin kölgəsində İran və ABŞ ortaq nöqtə axtarır

**Yaxın Şərq regionunda davam edən gərginlik fonunda İran və ABŞ arasında son görüşlər beynəlxalq ictimaiyyətin diqqətini cəlb edir. 2025-ci ilin aprel-may aylarında ABŞ-ın xüsusi elçisi Stiv Vitkoff və İranın xarici işlər naziri Abbas Araqçinin rəhbərliyi ilə Oman və İtaliyada keçirilən növbəti danışıqlar silsiləsi dialoqun bərpası ehtimalı ilə bağlı ehtiyatlı nikbinlik yaradır. Bununla belə, hər iki tərəfin müzakirələrin "konstruktiv" xarakteri ilə bağlı bəyanatlarına baxmayaraq, köklü ziddiyyətlərin və qarşılıqlı inamsızlığın müşahidə edilməsi dayanıqlı nizamlanma barədə razılaşmanın əldə olunacağı ilə bağlı nikbin proqnoz verməyi çətinləşdirir.**



Xatırladaq ki, 2025-ci il aprelin 12-də Omanda keçirilən yüksək səviyyəli birbaşa danışıqların birinci raundu əlamətdar hadisə kimi qiymətləndirildi. Bunun ardınca Maskat və Romada daha bir neçə raund, eləcə də nüvə sazişi üçün çərçivənin işlənib hazırlanmasına yönəlmiş ekspert qruplarının görüşləri keçirildi. Maraqlıdır ki, bu danışıqlar prezident Donald Trampın ali lider Əli Xamneyiyə yeni nüvə danışıqları təklifi ilə bağlı açıq məktubundan sonra başlandı.

Görüşlərdə əsas müzakirə mövzularının İranın ballistik raket proqramının, ABŞ-ın "maksimum təzyiq" siyasətinin, nüvə silahının yayılmaması məsələlərinin, İranın regional təsirinin və ölkədə insan haqlarının vəziyyətinin olduğu bildirilir. ABŞ-ın İranın nüvə infrastrukturunun tamamilə ləğv edilməsində və zənginləşdirilmiş uranın ölkədən çıxarılmasında israr etdiyi vurğulanır, İran isə nüvə proqramının müstəsna olaraq dinc xarakter daşıdığını bildirir və mülki ehtiyaclar üçün uranı zənginləşdirmək hüququnu şübhə altına almaqdan imtina edir.

Görüşlərin "konstruktivliyi" ilə bağlı müsbət bəyanatlara baxmayaraq, bir sıra amillər yaranan dialoqun kövrəkliyindən xəbər verir. Birincisi, İranın ali dini lideri Əli Xamneyinin danışıqlardan bir müddət əvvəl açıqladığı bəyanatlar anti-Amerika ritorikasını təkrarladı və Tehranın güzəştə getmək istəyilə bağlı müəyyən suallar doğurdu. İkincisi, ABŞ-ın əsas regional müttəfiqi və İranın nüvə proqramının barışmaz əleyhdarı olan İsrail "zəif" razılaşmanın mümkünlüyü ilə bağlı narahatlığını açıq şəkildə ifadə etdi və İranın nüvə imkanlarını tamamilə sıradan çıxarmağa çağırdı.

Bununla yanaşı, danışıqların kontekstini bir sıra digər regional və beynəlxalq amillər də mürəkkəbləşdirir. Yəməndə davam edən münaqişə, İsrail-Həmas qarşıdurması Tehran və Vaşinqton arasında münasibətlərdə əsas qıcıqlandırıcı faktorlar olaraq qalır. Buna görə də, siyasi analitiklər bu nöqtədə güclü razılaşmanın əldə edilməsi perspektivlərinə nikbin baxmırlar. Tramp administrasiyası, rəsmilərinin açıqlamalarına görə, təkcə nüvə proqramını deyil, həm də İran siyasətinin digər narahatlıq doğuran aspektlərini əhatə edəcək hərtərəfli razılaşma əldə etməyə çalışır. Bununla belə, İran nüvə məsələsini digər məsələlərlə əlaqələndirmək cəhdlərinə müqavimət göstərir və məhdud nüvə güzəştləri müqabilində sanksiyaların yüngülləşdirilməsində israr edir.

Sonda qeyd etmək lazımdır ki, İran və ABŞ arasında son görüşlər gərginlik və qarşılıqlı inamsızlıq dövründən sonra dialoqun bərpası üçün çox kövrək də olsa, mühüm fürsətdir. Danışıqların "konstruktiv" xarakteri ilə bağlı bəyanatlara baxmayaraq, tərəflərin mövqelərindəki dərin ziddiyyətlər, regional gərginlik və üçüncü ölkələrin təsiri dayanıqlı nizamlanmaya ciddi maneələr yaradır. Vəziyyətin gələcək inkişafı hər iki tərəfin praqmatik kompromis əldə etmək istəyindən və uzun müddətdir ki, qarşılıqlı düşmənçilik irsini dəf etmək bacarığından asılı olacaq. Beynəlxalq ictimaiyyət bu danışıqların regional və qlobal təhlükəsizliyə potensial təsirini dərk edərək, onları diqqətlə izləyir.

***M.SƏBUHİ***
***XQ***

# Dekolonizasiya dövrünün Avropa sınağı: Korsika nümunəsi

**Dünən Romada keçirilən "Milli kimlik, müqavimət və suverenlik: Korsikanın perspektivləri" adlı beynəlxalq konfrans, Avropanın qəlbində kolonial keçmişin yenidən gündəmə daşındığını göstərdi. Bakı Təşəbbüs Qrupunun və Korsikanın müstəqilliyini dəstəkləyən "Nazione" hərəkatının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə iştirak edən mütəxəssislər, analitiklər və insan haqları fəalları açıq şəkildə bəyan etdilər: Korsika məsələsi artıq təkcə Fransanın daxili işi deyil.**



## Tarixi keçmiş və zoraki ilhaq

Korsika adasının mübarizə tarixi orta əsrlərə gedib çıxır. Uzun müddət Genuya Respublikasının idarəsində olan ada 1755-ci ildə müstəqil Korsika Respublikasını elan etmişdi. Lakin azadlıq çox sürmədi – 1768-ci ildə Genuya Korsikanı Fransaya satdı. Bu "satış"dan dərhal sonra kral XV Lüdovikin göndərdiyi ordu adanı işğal etdi və beləcə, Korsikanın müstəqillik arzusu zor gücünə boğuldu.

O zamandan bəri – artıq iki əsrdən çoxdur ki, Fransanın adaya münasibəti assimilyasiya və inkar üzərində qurulub. Korsika dili tanınmayıb, adanın unikal mədəni kimliyi isə sistemli şəkildə sıxışdırılıb. 1850-ci ildən etibarən hətta adada geniş yayılmış italyan dili belə rəsmi statusdan məhrum edilib.

## Mədəni mübarizə və simvolik müqavimət

Korsikalılar üçün mədəniyyət həm müqavimət, həm də kimlik vasitəsidir. Adanın ənənəvi polifonik musiqisi – chjam'è rispondi – UNESCO tərəfindən qeyri-maddi irs kimi tanınıb. Lakin bu zəngin irs uzun müddət mərkəzi hakimiyyətin laqeydliyi və ya qəsdən tətbiq etdiyi assimilyasiya siyasəti ilə təzyiq altında qalıb.

XX əsrin ikinci yarısından başlayaraq Korsikada müstəqillik tələbləri gücləndi. 1970-ci illərdən etibarən adada silahlı mübarizəyə keçid baş verdi – bu, Fransa dövlətinin rəsmi orqanlarını və simvollarını hədəfə alan partlayışlarla yadda qaldı. 2014-cü ildə silahlı qanad silahı yerə qoysa da, dil, mədəniyyət və siyasi hüquqlar sahəsində diskriminasiya ilə bağlı narazılıq bu gün də davam edir.

## Korsikalıların əsas tələbləri

Konfransda Korsika nümayəndələri və dəstəkçilər aşağıdakı əsas tələbləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdılar:

1. Korsika dilinə rəsmi status verilməsi;
2. Siyasi məhbusların əfv olunması;
3. Adanın muxtariyyətinin genişləndirilməsi;
4. Fransa Konstitusiyasında Korsikanın xüsusi statusunun tanınması.

Bunlar sadəcə lokal istəklər deyil – Avropa üçün test məsələsidir. Çünki Paris 1990-cı il Paris Xartiyasında qəbul etdiyi "azlıqların hüquqlarına hörmət prinsipi"ni öz ərazisində tətbiq etməkdən boyun qaçırır.

## Beynəlxalq hüquq qarşısında Fransanın cavabdehliyi

2024-cü ilin noyabrında Marsel məhkəməsinin Korsika Assambleyasının iclaslarında korsika dilindən istifadəyə qadağa qoyması, bu gərginliyi yeni səviyyəyə daşıdı. Assambleya rəhbəri Mari-Antuanetta Mopertyui bu qərarı beynəlxalq məhkəmələrə çıxarmağa hazırlaşdığını bildirdi. Onun sözləri ilə desək, bu qərar yalnız korsika dilinə deyil, bütövlükdə Fransa daxilindəki breton, oksitan, bask və digər milli azlıqların dillərinə qarşı mədəni inkarın hüquqi ifadəsidir.

## Dekolonizasiya dövrünün yeni mərhələsi

Avropa özünü insan haqlarının və hüquqi mədəniyyətin beşiyi hesab edir. Lakin Korsika hadisəsi göstərir ki, "müstəmləkəçilik" anlayışı təkcə keçmişin tarixi deyil, həm də indinin gerçəkliyidir. Fransa kimi nüfuzlu dövlətin Avropa daxilində belə bir siyasət yürütməsi, dekolonizasiya çağırışlarını daha da aktuallaşdırır.

Bakı Təşəbbüs Qrupunun bu məsələyə diqqət ayırması və onu beynəlxalq müzakirəyə çıxarması, Azərbaycanın insan haqları, milli kimlik və suverenlik dəyərlərinə verdiyi dəstəyin göstəricisidir. Bu həm də Avropanın gələcək siyasi dizaynında yeni reallıqların – milli kimliklərin, azad iradənin və mədəni müxtəlifliyin əsas yer tutacağının göstəricisidir.

***

Konfrans zamanı Bakı Təşəbbüs Qrupu və "Nazione" Hərəkatı arasında əməkdaşlıq memorandumu imzalanıb. Sənədə əsasən, BTQ və "Nazione" kolonializm və neokolonializmə qarşı mübarizə aparmaq və insan hüquqlarının müdafiəsi məsələsində əməkdaşlıq etməyə dair razılığa gəliblər.

***Renad DADAŞOV,***
***hüquqşünas***

# Gürcüstan üzərində geopolitik oyunlar: ikinci cəbhənin axtarışı

**2025-ci ilin may ayı Gürcüstanla Avropa İttifaqı (Aİ) arasında münasibətlərdə növbəti gərginlik mərhələsinin başlanğıcı oldu. Avropanın bəzi dairələri Tbilisiyə qarşı ard-arda sərt bəyanatlar, demarşlar və təzyiqlərlə çıxış etdi. "Avropa gələcəyi" adı ilə təqdim olunan bu çağırışların arxasında, əslində, Cənubi Qafqazı yeni hərbi böhranlara sürükləmək niyyəti dayanır. Təsadüfi deyil ki, bu gün Gürcüstana qarşı yönəlmiş siyasi təzyiqlər Baltikyanı ölkələrdən, Polşadan və Skandinaviya dairələrindən gəlir – yəni Ukrayna müharibəsində "ikinci cəbhə" axtaranlardan.**



Estoniya 2025-ci ilin 8 mayında Gürcüstanın diplomatik və xidməti pasport sahiblərinə qarşı viza rejimi tətbiq etdiyini elan etdi. Elə həmin gün Gürcüstanın xarici işlər naziri Aİ xarici işlər şurasının Varşavadakı qeyri-rəsmi iclasına dəvət olunmadı. Bu, Aİ-nin Gürcüstandakı hakimiyyətə açıq mesajı idi: əgər siz bizim planlara qoşulmursunuzsa, sizi təcrid edəcəyik.

9 may – Avropa Günü – Gürcüstanda yenidən mitinqlər keçirildi. Eks-prezident Salome Zurabişvili və müxalif qüvvələrin təşkil etdiyi aksiyalar Avropaya inteqrasiya adı ilə gerçəkdə hökumətin devrilməsinə çağırış idi. Elə həmin gün Aİ-nin Tbilisidəki səfiri Gürcüstanın Avropa yolunun dayandırıldığını bəyan etdi. İsveç və Baltikyanı ölkələrin diplomatları da oxşar tonda açıqlamalar verdilər. Lakin maraqlıdır ki, Macarıstan, Slovakiya, Bolqarıstan və hətta NATO üzvü olan Türkiyə bu çağırışlara qoşulmadı.

Məsələ tək Gürcüstanla bağlı deyil. Ukraynada hərbi əməliyyatların dondurulmağa doğru getdiyi bir vaxtda, bəzi Aİ ölkələri yeni münaqişə zonaları formalaşdırmaq istəyirlər. Hollandiya hərbi kəşfiyyatının rəhbəri bildirib ki, Rusiya artıq Ukrayna üçün lazım olandan daha çox artilleriya istehsal edir və Baltikyanı regiona yeni hərbi bölmələr yerləşdirir. Bu isə o deməkdir ki, növbəti toqquşma Polşa, Finlandiya və Baltikyanı ölkələrdə gözlənilir.

Əgər belə olarsa, Aİ-nin bəzi dairələri Gürcüstanı "ikinci cəbhə" kimi səhnəyə çəkmək istəyəcək. Təsadüfi deyil ki, Gürcüstandakı müxalifətə edilən dəstək, antihökumət aksiyalarına verilən açıq müdafiə bu kontekstdə oxunur.

Azərbaycan Prezidenti İlham Əliyev bu proseslərin geosiyasi nəticələrinə toxunaraq vurğulayıb ki, Avropa rəsmilərinin "Orta dəhliz"lə bağlı bəyanatları reallıqla üst-üstə düşmür. Dəhlizin infrastrukturunu Gürcüstan və Azərbaycan qurub. Ermənistanın bu dəhlizdə heç bir rolu yoxdur. Lakin Aİ rəsmiləri yeni reallıqları nəzərə almadan sanki kartanı kənardan yenidən çəkməyə çalışırlar.

Əgər Gürcüstanda "ikinci cəbhə" açılarsa, bu, yalnız Cənubi Qafqaz üçün deyil, həm də Çin üçün ciddi nəticələr doğuracaq. Çünki bu halda Avrasiyadan keçən bütün quru marşrutlar bağlanacaq və Çin üçün yalnız dəniz yolu qalacaq – o yolun isə tam nəzarəti ABŞ-ın əlindədir.

Beləliklə, ortaya tək bir sual çıxır: Avropa İttifaqının bəzi dairələri doğrudanmı Gürcüstanın sabitliyini, Orta dəhlizin fəaliyyətini və regionun inkişafını istəyirlər? Yoxsa əksinə, Avrasiyanın "tranzit iflici" onların əsas hədəfidir və Gürcüstan bu planlara tabe olmadığı üçün cəzalandırılır?

Gürcü xalqı 2024-cü ildəki seçkilərdə bu planlara "yox" dedi. Hakimiyyət də xalqın mandatına söykənərək təzyiqlərə boyun əymədi. Amma görünən odur ki, bu təzyiqlər bitmir. Səssizcə Gürcüstanda növbəti "Maydan ssenarisi" üçün zəmin hazırlanır. Bu isə bir daha sübut edir ki, geosiyasi oyunlar demokratik qərarları və dövlətlərin suverenliyini nəzərə almadan davam edir.

***Oğuz ARİF***

# PKK silahı yerə qoydu: Bəs bundan sonra proses necə davam edəcək?



**PKK-nın 12-ci qurultayında silahı yerə qoyaraq təşkilatın ləğvi ilə bağlı qəbul edilən qərar bu günlər bütün dünyada müzakirə mövzusudur. Bu qərarın Türkiyənin daxili siyasətindən tutmuş regional gəlişmələrə qədər bir çox sahədə əhəmiyyətli təsirləri ola biləcəyi şübhəsizdir. Amma Türkiyə ictimaiyyətinin PKK-nın silahı yerə qoyma qərarına həm ümidlə, həm də ehtiyatla yanaşdığı da faktdır. Türkiyədə PKK-nın silahı yerə qoyacağına şübhə ilə yanaşanlar vardı, artıq hər şey geridə qaldı, artıq PKK yoxdur. Türkiyə bu bəlanı yox etmək üçün çox incə diplomatiyasını işə salmalı oldu .**

Türkiyədə terror problemi illərdir gündəmdə olmuş və qardaş ölkə mövcud enerjisini bu beynəlxalq bəlaya sərf etməklə siyasi, iqtisadi və sosial hədəflərindən xeyli geri düşüb. İqtisadi gəlirinin böyük bir hissəsini Türkiyə terrorla mübarizəyə sərf etməyə məcbur olub. Ötən əsrin 70-80-ci illərində Türkiyə dövlətinə qarşı qurulmuş PKK terror təşkilatı 40 minə yaxın insanın ölümünə səbəb olmuşdur.

Keçən ilin sonlarında parlamentin qrup toplantısında çıxış edən Milliyətçi Hərəkat Partiyasının (MHP) lideri Dövlət Baxçalı İmralı həbsxanasında olan Kürdüstan Fəhlə Partiyasının (PKK) lideri Abdullah Öcalana bir daha çağırış edərək, "Terrorçu liderə qarşı təcrid aradan qaldırılarsa, gəlsin, Türkiyə Böyük Millət Məclisinin DEM (Xalqların Azadlıq və Demokratiyası) Partiyasının qrupunun toplantısında danışsın" demiş və əlavə etmişdi ki, "Terrorun tamamilə sona çatdığını, təşkilatın ləğv edildiyini bildirsin". Baxçalı, "bununla bağlı qanuni tənzimləmələr edilməli və bundan faydalanmaları üçün yollar açılmalıdır"- demişdi. O qeyd etmişdi ki, "Hər kəs ittifaqda olsa, əlimizi deyil, bədənimizi belə daşın altına qoymağa, üzərimizə düşəni etməyə hazırıq. Nə Qəndil, nə də Ədirnə, ünvan İmralıdan DEM-ə qədər uzanmalı, bu ciddi və tarixi terror problemi ölkənin gündəmindən tamamilə çıxarılmalıdır".

Gözlənilən an gəldi və DEM partiyası heyəti Öcalanla son görüşdən sonra İstanbuldakı "Elite World" otelində Xalqların Azadlıq və Demokratiya Partiyasının (DEM Partiyası) millət vəkillərinin keçirdiyi "Sülh və Demokratik Cəmiyyətə Çağırış" toplantısında Öcalanın çoxdan gözlənilən açıqlamasını oxudular. 28 noyabr 1978-ci ildə Diyarbakırın Lice rayonunda qurulan PKK Avropa Birliyi, ABŞ, Böyük Britaniya, Fransa, Türkiyə və bir çox başqa dövlətlər tərəfindən rəsmən terror təşkilatı hesab edilir.

Yalnız PKK deyil, bəzi kürd siyasi qruplar kənardan idarə olunmağa başlamışdı. Nəhayət, kürd siyasi elitası da anlamağa başladı ki, keçmiş "mübarizə" üsulu uğurlu ola bilməz . Həm də bunun özü xalqlar arasında min illər boyu var olan dostanə münasibətləri zədələyir. Əsas vəzifə bu gün çox kövrəkləşmiş tarixi münasibəti inanclardan kənar qalmadan, qardaşlıq ruhunda yenidən qurmaqdır. Demokratik cəmiyyətə ehtiyac qaçılmazdır. Cümhuriyyət tarixinin ən uzun və ən əhatəli üsyan və şiddətli hərəkatı olan PKK ləğv edilməlidir. Məsələnin həlli üçün Türkiyə bütün dövrlərdə çalışmışdır. Son proses 2013-2015-ci illər arasında olmuşdu Bu proses kürd probleminin sülh yolu ilə həlli məqsədi ilə başladılmışdı. O zamankı şərtlər başqa idi. Amma Türkiyə dövləti yenə də buna cəhd etmişdi. Prosesin əsas elementlərinə tərksilah, demokratik islahatlar və kürd kimliyi hüquqlarının genişləndirilməsi daxil idi. Bu danışıqlarda da PKK lideri Öcalan əsas rol oynamışdı. Lakin 2015-ci ildə münaqişənin bərpası ilə həll prosesi kənar müdaxilələr nəticəsində faktiki olaraq başa çatdı. İndiki situasiya tamam fərqlidir. Türkiyə əvvəlki Türkiyə deyil və artıq dövlət regional gücdən qlobal gücə çevrilib. Həll edə bilməyəcəyi bir məsələ yoxdur. "Terrorsuz Türkiyə" yolunda bu addımın uğurlu olacağı şübhəsizdi.

Bu addım Türkiyə ictimaiyyəti tərəfindən də dəstəklənməkdədir. PKK "beynəlxalq güclərin" demokratik həllə mane olmamağa və konstruktiv töhfələr verməyə çağırıb. Prezident Rəcəb Tayyib Ərdoğan, "Bu gün terrordan azad Türkiyə prosesində daha bir kritik həddi keçdik", – demişdir. MHP sədri Dövlət Baxçalı "Bu gün qazananlar sülh və qardaşlıqdır. Bu gün qazananlar siyasət və demokratiyadır" demişdir.

Baxçalı əlavə edib ki, Suriyada tərksilah, yaraqlıların gələcəyi, PKK ilə YPG arasında münasibətlər kimi məsələlərin hüquqi və strateji çərçivəsinin necə müəyyən ediləcəyi ayrı-ayrılıqda müzakirə edilməlidir. DEM Partiyasının həmsədri Tuncer Bakırhan, "İnşallah, bu prosesi sülhlə taclandıracağıq", – dedi. CHP sədri Özgür Özəl "CHP olaraq tarixi ardıcıllıqla sülhün yanındayıq", – deyərək, ictimai sülhün qalıcı olması üçün demokratiya və qanunun aliliyinin kurumsallaşması lazım olduğunu vurğuladı.

Terror təşkilatının dərc etdiyi qərar – bəyannamədə "PKK adı altında həyata keçirilən fəaliyyətlərə son qoyulub", – deyildi.

Bəs bundan sonra nə olacaq, proses necə gedəcək?

PKK-nın özünü ləğv etmək və silahı yerə qoymaq qərarından sonra Şimali İraqda İraq mərkəzi hökuməti və regional kürd hökumətinin də iştirak etdiyi mexanizm işə salınacaq. İraqın Süleymaniyyə, Ərbil kimi şəhərlərində dağlardan enən terrorçuların silahlarını təhvil verərək qeydiyyata alınacağı mərkəzlər yaradılacaq. Ehtimal edilir ki, dağlarda 2000-dən 4000-dək arası terrorçu var. Bütün bu proses Türkiyə kəşfiyyatı və hərbi birləşmələrinin nəzarəti altında davam edəcək. PKK-nın silah anbarları və düşərgələrindəki hər cür silah-sursat və partlayıcı maddələr təhvil veriləcək. Silahsızlaşdırma prosesinin yayın sonuna qədər başa çatdırılması nəzərdə tutulur.Türkiyə vətəndaşı olan terrorçular mərhələli şəkildə sərhəddə qəbul ediləcək. Təşkilatın üst rəhbərliyi və qırmızı və narıncı siyahılarda axtarılan təxminən 300 terrorçu Türkiyəyə gələ bilməyəcək. Həmin şəxslərin Norveç və Cənubi Afrika kimi üçüncü ölkələrə göndərilməsi planlaşdırılır. Silahlarını yerə qoyan terrorçuların Suriyaya keçməsinə qəti şəkildə icazə verilməyəcək. Prosesin sonunda kəşfiyyat bölmələri əhatəli hesabat hazırlayıb ölkənin yüksək idarəçiliyinə göndərəcək. Bu hesabat tərksilah prosesinin rəvan keçib-keçmədiyini müəyyən edəcək. Hesabat müsbət olarsa, icra qanununda və Cinayət Məcəlləsində bəzi dəyişikliklər və demokratikləşmə istiqamətində yeni addımlar gündəmə gələ bilər.

Təhlükəsizlik səbəbindən İmralıda qalmağa davam edəcək Abdullah Öcalanın fiziki şərtləri və xarici dünya ilə təması ilə bağlı atılacaq addımlar da bu hüquqi tənzimləmələr çərçivəsində həll olunacaq. Proses boyunca Türkiyə Silahlı Qüvvələrinin Şimali İraqdakı varlığı davam edəcək və sərhəd təhlükəsizliyinə yönəlmiş planlı fəaliyyətlər fasiləsiz davam etdiriləcək. Suriyadakı YPG bölgəsinin prosesə necə daxil ediləcəyi Suriya Mərkəzi Administrasiyası ilə bu qurum arasında artıq davam edən danışıqlardan asılıdır. Səlahiyyətlilər prosesin PKK və onun bütün komponentlərini əhatə etdiyinə diqqət çəkərək, ilk mərhələdə YPG-nin tərkibindəki qeyri-suriyalı silahlı ünsürlərin sərhəddən çıxarılması, prosesin sonunda isə YPG-nin də tərksilah edilməsi lazım olduğunu bildirir.

PKK ləğv edilsə də, bu terror təşkilatının izlərinin yox edilməsi və "Terrorsuz Türkiyə " anlayışının reallaşması üçün hələ görüləcək çox iş vardır. Türkiyə bu sahədə fəaliyyətini israrla davam etdirməkdədir.

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Ruben Vardanyanın məhkəməsi davam edir



**Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi mayın 13-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib, onları məhkəmə tərkibi, tərcüməçilər, katiblər, dövlət ittihamçıları və digərləri ilə tanış edib.

Ardınca təqsirləndirilən Ruben Vardanyan müraciət edərək işə baxan hakimlər kollegiyasına etiraz etdiyini bildirib. Təqsirləndirilən şəxsin müdafiəçisi Avraam Berman etirazı müdafiə edib.

Dövlət ittihamçısı Təranə Məmmədova etiraza münasibət bildirərək təqsirləndirilən şəxsin cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulan hüquqlarının təmin edildiyini, habelə müdafiə tərəfinin işə baxan məhkəmə kollegiyasının cinayət təqibində maraqlı olmasını təsdiq edən konkret sübutlar təqdim etmədiyini bildirərək etirazın baxılmamış saxlanılmasını məhkəmədən xahiş edib.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər etirazın təmin olunmamasını məhkəmədən xahiş ediblər.

Məhkəmə vəsatətə baxmaq üçün müşavirəyə gedib. Müşavirədən sonra müdafiə tərəfinin etirazına dair məhkəmə qərarı elan edilib. Qərara əsasən, etiraz baxılmamış saxlanılıb. İclasa sədrlik edən Zeynal Ağayev qərarı əsaslandıran zaman vurğulayıb ki, müdafiə tərəfi Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən, işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olmasına dair konkret və mötəbər dəlillər təqdim etməyib.

Sonra zərərçəkmiş şəxslər məhkəmədə ifadə veriblər.

Zərərçəkmiş şəxs Emil Mehtiyev ifadəsində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən genişmiqyaslı təxribat xarakterli hərəkətlər törədilməsinin qarşısını alarkən Ağdərə rayonu istiqamətində düşmən tərəfindən atılmış minaatan mərmilərinin yaxınlığına düşüb partlaması nəticəsində xəsarət aldığını bildirib.

E.Mehtiyev dövlət ittihamçısı Fuad Musayevin suallarına cavabında bildirib ki, minaatan mərmilərinin yaxınlığına düşüb partlaması nəticəsində özündən başqa İsmayıl Qəmbərov və Amin Məhərrəmov da müxtəlif növ bədən xəsarətləri alıb.

Zərərçəkmiş şəxs qismində tanınan Mayis Koroğluyev ifadəsində Ağdam rayonu ərazisində olarkən Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan "Faqot" adlanan raket mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində özünün və Qəhrəman İsmayılovun isə xəsarətlər aldığını deyib.

Daha sonra zərərçəkmiş şəxs qismində tanınan Asim Qarayev ifadə verib. O, Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Ağdərə rayonu istiqamətində atılan minaatan mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində xəsarət aldığını bildirib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nasir Bayramovun suallarına cavab verən zərərçəkmiş şəxs həmin vaxt yanında olan Mehdi Abbasov, Devid Cəlilov, Cavad Məhərrəmov, Əli Tağıyev və Rəsul Teymurovun həlak olduğunu qeyd edib.

Məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası mayın 20-nə təyin olunub.

***XQ***

# Bakı aqrar sərgilərində 31 ölkədən 450 şirkət iştirak edir




**Dünən Bakıda Xəzər regionunun ən böyük 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" və "Interfud Azərbaycan" sərgiləri öz işinə başlayıb.**

Açılış mərasimində kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədov, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və digər rəsmi şəxslər iştirak ediblər.

Kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov çıxış edərək bildirib ki, son illərdə ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində genişmiqyaslı islahatlar həyata keçirilib, dövlət dəstək mexanizmləri gücləndirilib, fermerlərin texnologiya və maliyyə resurslarına çıxışı asanlaşdırılıb.

"Caspian Agro" və bu il yubileyini qeyd edən "InterFood Azerbaijan" sərgilərinin artıq illərdir ki, kənd təsərrüfatı və qida sənayesində yerli və xarici şirkətlərin innovativ həllərini, yeni texnologiyalarını təqdim etdiyi mühüm platformalardan biri kimi çıxış etdiyini diqqətə çatdıran nazir müavininin sözlərinə görə, bu tədbirlər fermerlər, sahibkarlar, investorlar və mütəxəssislər üçün kənd təsərrüfatı və qida sənayesinin aktual məsələləri barədə fikir mübadiləsi aparmaq, biznes əlaqələri qurmaq və müasir innovasiyalarla tanış olmaq imkanı yaradır.

Qeyd olunub ki, bu il sərgilərdə süni intellektin tətbiqinə əsaslanan yeni həllər, ağıllı idarəetmə sisteminə əsaslanan avtomatlaşdırılmış texnologiyalar, enerji və resursqoruyucu texnologiyalar, alternativ enerji mənbələrindən istifadə edən avadanlıqlar, iqlim dəyişikliyinə davamlı kənd təsərrüfatı məhsulları və dayanıqlı təsərrüfatçılıq həlləri xüsusi vurğulanır.

Azərbaycanda iqlim dəyişikliklərinin təsirlərini azaltmaq, torpaq və su ehtiyatlarından səmərəli istifadəni genişləndirmək və kənd təsərrüfatını daha ekoloji və səmərəli hala gətirmək üçün innovativ yanaşmaların tətbiq edildiyini vurğulayan nazir müavini deyib ki, daha çox rəqəmsal həllərin tətbiqi, elektron kənd təsərrüfatı platformalarının genişləndirilməsi, aqrar sahədə çalışan sahibkarlar üçün maliyyə və sığorta alətlərinin əlçatanlığının artırılması da bu sahədə əsas hədəflərdəndir. "Ölkəmizdə yeni bitki sortlarının və heyvandarlıqda məhsuldar cinslərin tətbiqi, müasir texnologiyalar əsasında təsərrüfat modellərinin formalaşdırılması və istehsal proseslərinin avtomatlaşdırılması aqrar sektorun inkişafına müsbət təsir göstərəcəyinə inanırıq", – deyə o əlavə edib.

Forum çərçivəsində fermerlər və aqrobiznes nümayəndələri üçün yeni imkanların açılacağını, bilik və təcrübə mübadiləsi aparmaq imkanı yaradılacağını diqqətə çatdıran E.Zeynalov sərgilərin kənd təsərrüfatı sahəsində çalışan hər kəs üçün faydalı olacağına, onların təcrübələrini artıracağına və biznes imkanlarını genişləndirəcəyinə əminliyini bildirib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev çıxışında bildirib ki, son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə yüzlərlə müasir aqroparklar, emal müəssisələri, yeni istehsal sahələri yaradılıb. Daxili tələbatın ödənilməsində yerli məhsulların payının artdığını diqqətə çatdıran konfederasiya rəhbərinin sözlərinə görə, təkcə 2025-ci ilin yanvar-mart ayları ərzində Azərbaycan sahibkarları xaricə 153,3 milyon dollar dəyərində meyvə-tərəvəz ixrac ediblər. Qeyd olunub ki, tərəvəz və meyvələrin emal məhsulları üzrə xarici ölkələrə 8,7 milyon dollar dəyərində satış qeydə alınıb, 14 milyon manata yaxın alkoqollu və alkoqolsuz içkilər, statistik dəyəri 40 milyon manat olan pambıq lifi ixrac edilib.

Azərbaycanda aqrar sahənin inkişafının həm əhalinin məşğulluğu, həm də ölkəmizin ərzaq təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayan M.Musayev "Caspian Agro" və "Interfud Azərbaycan" sərgilərinin bu il də qida sənayesi mütəxəssisləri, ixrac imkanları üçün yeniliklərlə zəngin, faydalı bir platforma olacağına əminliyini ifadə edib.

AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev çıxış edərək deyib ki, rəhbərlik etdiyi qurumun dəstəyi ilə Azərbaycan şirkətləri müntəzəm olaraq qlobal və yerli sərgilərdə uğurla iştirak edir, yerli məhsullarımız vahid ölkə stendlərində "Made in Azerbaijan" brendi altında təqdim edilir, ixrac müqavilələri imzalanır, məhsullarımız yeni bazarlara çıxarılır. Onun sözlərinə görə, AZPROMO tərəfindən 2025-ci ildə "WorldFood Moscow 2025", Köln şəhərində "Anuga" və Şanxay şəhərində 8-ci Çin Beynəlxalq İdxal sərgilərində vahid ölkə stendi ilə sahibkarların iştirakının təmin olunması planlaşdırılır.

Xatırladaq ki, mayın 16-dək davam edəcək beynəlxalq sərgi çərçivəsində 2-ci Beynəlxalq Aqrar İnnovasiyalar Forumu və aqrar sahənin ən müxtəlif sahələrinə dair panel müzakirələrin keçirilməsi nəzərdə tutulur.

4 gün davam edəcək sərginin ilk günündən etibarən maraq kifayət qədər çoxdur. Belə ki, dünən səhər saatlarından etibarən yerli və xarici sahibkarlar, fermerlər, müxtəlif şirkət nümayəndələri sərgiyə qatılaraq burada nümayiş etdirilən məhsullarla yaxından tanış olmaq imkanı qazanırlar. Sərgi həmçinin, əməkdaşlıq üçün də şirkətlərə açıq qapı rolunu oynayır. Burada yerli və xarici brendlər öz məhsullarını daha geniş və fərqli bazarlara çıxarmaq imkanı əldə edirlər.

Qeyd edək ki, Bakı Ekspo Mərkəzinin bütün pavilyonlarını və açıq sahəsini əhatə edən builki "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində 31 ölkədən 450 şirkət iştirak edir. Sərgilərə Azərbaycanla yanaşı, Almaniya, ABŞ, Belarus, Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Cənubi Koreya, Fələstin, Finlandiya, Gürcüstan, Hindistan, İordaniya, İran, İspaniya, İsrail, İsveç, İtaliya, Kanada, Latviya, Misir, Niderland, Özbəkistan, Qazaxıstan, Rusiya, Serbiya, Şri-Lanka, Türkiyə, Türkmənistan və Yunanıstandan şirkətlər qatılıb. Almaniya, Belarus, Cənubi Koreya, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, eləcə də ilk dəfə olaraq Misir Milli Qrupları sərgidə kənd təsərrüfatı və qida sənayesi məhsullarını nümayiş etdirirlər.

Bu il ilk dəfə olaraq dörd gün davam edəcək "Caspian Agro" sərgisində kənd təsərrüfatında tətbiq olunan müasir innovativ texnologiyalar, texnikalar, müasir suvarma sistemləri nümayiş olunur. İştirakçılar Elektron Kənd Təsərrüfatı, robototexnika, pilotsuz uçuş aparatları, IT xidmətləri, süni intellekt, ağıllı kənd, startaplar, alternativ enerji mənbələri, "Green agro" kimi smart bölmələrdə maraqlı məlumatlar əldə edə bilərlər.

Builki sərgidə ilk dəfə olaraq balıqçılıq və akvakultura sahəsi də təmsil olunur. "Caspian Agro" sərgisi balıqçılıq və akvakultura sahəsinin də inkişafına dəstək verəcək innovativ həllərin və qabaqcıl texnologiyaların nümayişi üçün mühüm platformadır.

# Qatarlar 32 ildən sonra Ağdama qayıtdı

## *Dəmir yolu və Avtovağzal kompleksi Qarabağ iqtisadi rayonunda ictimai nəqliyyata əlçatanlığı cavablandırır*

**Xəbər verildiyi kimi, ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümündə Prezident İlham Əliyevin iştirakı ilə Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi istifadəyə verilib. Açılış tədbiri çərçivəsində Bərdə – Ağdam dəmir yolu xətti ilə ilk rəmzi sərnişin qatarı yola salınıb.**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin məlumatına görə, Bərdə – Ağdam dəmir yolu xətti layihəsinin 2-ci mərhələsi çərçivəsində inşa olunan kompleks 8 hektara yaxın ərazini əhatə edir. Bu mühüm infrastruktur obyektində bütün zəruri otaqlar, eləcə də gözləmə zalları, bilet kassaları, kitabxana, mağazalar, əyləncə zonaları, restoran və istirahət guşələri yaradılıb. Sərnişinlərin həm qatar perronuna, həm də avtobuslar üçün nəzərdə tutulmuş dayanacaqlara rahat keçidi təmin olunub.

Bildirilib ki, kompleksin ərazisində müxtəlif növ nəqliyyat vasitələrinin servis binaları və sərnişin platforması da tikilib. Yeri gəlmişkən, Azərbaycanda ilk qapalı dəmir yolu platforması məhz Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksində inşa olunub. Platformanın uzunluğu 350 metrdir. Ərazidə fərdi, orta və iritutumlu nəqliyyat vasitələri üçün yerüstü avtodayanacaqlar, şəhərlərarası və rayondaxili marşrutlar üzrə avtobuslar üçün peronlar, velosiped dayanacaqları, park və elektromobillər üçün elektrik doldurma məntəqəsi də yaradılıb.

Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksində dəmir yolu vağzalı gündəlik 800-1000 nəfər sərnişinin daşınmasına imkan verəcək. Avtovağzal isə gündəlik 1300-1500 nəfər sərnişinə xidmət edəcək. Kompleks vahid nəqliyyat qovşağı kimi



fəaliyyət göstərəcək.

Xatırladaq ki, 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə təməli qoyulmuş strateji infrastruktur layihəsi olan Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi Qarabağ iqtisadi rayonunda ictimai nəqliyyatın əlçatanlığını artıracaq, Ağdam rayonunun sosial-iqtisadi dirçəlişinə, Azərbaycanın nəqliyyat potensialının genişlənməsinə, bütövlükdə, Böyük Qayıdışa mühüm töhfə verəcək.

Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən Bərdə –Ağdam və Horadiz – Ağbənd dəmiryol layihələrinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə müsbət iqtisadi təsirləri olacaq. Yeni dəmiryol xətləri həm sərnişinlərin, həm də sənaye və kənd təsərrüfatı məhsullarının daha sürətli və sərfəli şəkildə daşınmasına imkan verəcək, bölgənin logistik potensialını əhəmiyyətli dərəcədə artıracaq.

Ölkəmizin Şərq - Qərb və Şimal - Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi bölgəni yük axınlarının toplanması, çeşidlənməsi və paylanması üçün əlverişli məkana çevirir. Ağdam Dəmir Yolu və Vağzal Kompleksi kimi infrastruktur obyekti, logistik mərkəzlər həm yerli istehsalın genişlənməsinə, həm də beynəlxalq ticarətin inkişafına təkan verəcək. Eyni zamanda, bu kompleks Qarabağ regionunun mühüm nəqliyyat mübadilə mərkəzinə çevriləcək.




**Ümumdünya Poçt İttifaqı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, həmçinin Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin tərkibində fəaliyyət göstərən "Azərpoçt" MMC ilə birgə təşkil edilən forum üç gün – 13-15 may tarixlərində davam edəcək.**

# Paytaxtda "Avropa və MDB Poçt Liderlərinin I Forumu" keçirilir

"Növbəti üfüqlər: gələcək mükəmməllik üçün elektron ticarət, innovasiya və təchizat zəncirinin naviqasiyası" mövzusuna həsr olunmuş forumda regional müzakirələr və müqayisələr, bilik mübadiləsi və innovasiyalar üçün strateji bir platforma yaradılacaq, müzakirələr qlobal tendensiyalar və rəqəmsal pozuntulara cavab olaraq poçt sektorunun transformasiyasına yönələcək.

Poçt sektorunun inkişafında növbəti mərhələyə keçidi təmin etdiyinə, eləcə də regional əhəmiyyətinə görə tədbirə marka həsr olunması da təşkilatçılar tərəfindən qərara alınıb.

Bu xatirə poçt markasında əks olunan bütün təsvirlər Bakı şəhərini xarakterizə edən elementlərin fonunda təqdim olunub. Bununla da markada Bakının poçt tarixində keçid rolu oynayan tədbirə ev sahibliyi etdiyi göstərilir. Həmçinin markanın mərkəzində yer alan fərqli tərzdə dizayn edilmiş "Alov qüllələri"Azərbaycanın Odlar Yurdu olması ilə yanaşı,tədbirin keçirilmə məkanını da bildirir. "Alov qüllələri"ni əhatə edən təchizat zəncirinin əsas komponentləri – çeşidləmə mərkəzi, yük maşınları, onlayn sifarişlərin icrası üçün elektron cihazlar və s. tədbirin məzmununu əks etdirir.

Rəqəmsal nişanlar, axan oxlar və etiketli yollar e-ticarət və rəqəmsal həllər arasındakı əlaqəni, infrastrukturu və sürəti vurğulayır. "Baku eye" çarxının fonda olması isə bu futuristik mövzunun daima dönən bir prosesdə olmasını izah edir.

Marka Azərbaycanın milli poçt mövqeyini qlobal müasirliklə birləşdirərək rəqəmsal ticarət və "ağıllı"logistika üçün regional mərkəz olmaq arzusunu əks etdirir.

Markalar 4000 tirajla, Belçikanın "Bpost Stamps Production" şirkəti tərəfindən çap edilib.

# Aqrar sığorta yeni məhsulları əhatə edir

**Azərbaycanda dövlət tərəfindən dəstəklənən aqrar sığorta mexanizmi vasitəsilə bostan bitkilərinin, o cümlədən qarpız bitkisinin sığortalanması mövsümü başlayıb. Bu barədə Kənd Təsərrüfatı Nazirliyinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən məlumat verilib. Bildirilib ki, artıq qarpız becərən fermer və təsərrüfatlar dövlətin güzəştli aqrar sığortası vasitəsilə öz əkin sahələrini çoxsaylı hadisələrdən sığortalaya bilərlər.**



Xatırladaq ki, qarpız Azərbaycanda ən geniş sahədə əkilən bostan bitkilərindəndir. Hazırda ölkəmizdə 14 min 500 hektar sahədə qarpız becərilir. Qarpız sahələrinin böyük hissəsi – 5 min 660 hektarı və ya bütün sahələrin 40 faizi Mil Muğan regionunun payına düşür. Belə ki, təkcə Sabirabad rayonunda 3 min 500 hektar, Saatlıda isə 1600 hektar ərazidə qarpız becərilir. Bundan əlavə, Mərkəzi Aran, Qarabağ, Şəki-Zaqatala regionları, Naxçıvan Muxtar Respublikası və digər bölgələrin təsərrüfatlarında da geniş ərazilərdə qarpız yetişdirilir. Belə ki, bu faydalı bostan bitkisinin sahələri Kürdəmir rayonunda 1440 hektar, Bərdədə 1230 hektar, Ağcabədidə 1030 hektar, Salyanda 750 hektar və Zaqatalada 740 hektara çatır.

Qarpız bitkisinin məhsuldarlığı da kifayət qədər yüksəkdir. Elə 2024-cü ildə 1 hektar qarpız sahəsində məhsuldarlığın orta hesabla 280 sentner təşkil etməsi də bunu təsdiqləyir. Eyni zamanda, əkin sahələrinə, məhsudarlığına və qiymətinə görə qarpız bitkisi ölkənin ayrı-ayrı regionlarında fermerlərin gəlirlərinin əsas hissəsini təşkil edir.

Ölkədən ixrac olunan kənd təsərrüfatı məhsullarının xüsusi çəkisində də qarpızın payı olduqca yüksəkdir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2022-ci ildə ölkədən xaricə 6,5 milyon dollarlıq 14 min ton, 2023-cü ildə 5,2 milyon dollarlıq 12,2 min ton, 2024-cü ildə isə 4,3 milyon dollarlıq 9 min ton qarpız ixrac edilib.

Yeri gəlmişkən, Aqrar Sığorta Fondu tərəfindən təqdim olunan aqrar sığorta mexanizmi qarpız əkinlərini çoxsaylı risklərdən qoruyur. Bura dolu, fırtına-qasırğa, sel-subasma, vəhşi heyvanların hücumu, üçüncü şəxslərin hərəkətləri və sair hallar aiddir. Qarpız əkən fermerlər və təsərrüfat sahibləri bu bitkini baza sığorta zərfindən əlavə, ayrıca olaraq dolu riski nəticəsində yaranan miqdar itkisi ilə yanaşı, keyfiyyət itkisi üzrə də sığorta edə bilərlər. Ümumilikdə isə, sığorta haqqının yarısının dövlət tərəfindən qarşılanması fermerlərə cüzi ödəniş etməklə qarpız sahələrini çoxsaylı risklərdən sığorta etmək imkanı qazandırır.

Aqrar Sığorta Fondunun məlumatına əsasən, qarpız təsərrüfatlarının baza sığorta zərfi ilə sığortası tarifi ölkənin ayrı-ayrı regionları üzrə fərqlidir. Daha doğrusu, bu tarif 2,17-5,12 faiz arasında dəyişir. Bu bitkinin ən çox əkildiyi Aran bölgəsində isə sığorta tarifi 2,26 faiz təşkil edir. Qeyd etdiyimiz kimi, hesablanan sığorta haqqının 50 faizi fermerə dəstək məqsədilə dövlət tərəfindən ödənilir. Bu hesabla Sabirabad rayonunda 1000 manatlıq qarpız bitkisinin sığortalanması fermerə cəmi 11,3 manata başa gəlir. Məhsuldarlığı 200 sentner, 1 sentnerin qiyməti 20 manat, yəni ümumilikdə, 4 min manatlıq məhsul gözlənilən qarpız sahəsinin baza zərfi üzrə sığortalanması isə ölkənin regionlarından asılı olaraq fermerlərə 43,4-102,4 manata başa gəlir.

Artıq ölkəmizdə qarpız sığortasından faydalanan, yəni bostanlarda baş vermiş hadisələrə görə ödəniş alan fermerlər də var. Belə ki, ötən il Aqrar Sığorta Fondu tərəfindən Samux rayonunda sel-subasma hadisəsi baş vermiş qarpız sahəsi üzrə fermerə 94 min 500 manat, Kürdəmir rayonunda isə dolu hadisəsi nəticəsində zərər çəkmiş qarpız sahəsi üzrə fermerə 12 min 966 manat ödəniş edilib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “Odlar yurdu” Orta Dəhlizin hərəkətverici ölkəsidir

(əvvəli 1-ci səhifədə)

Marşrut Çindən başlayır və Qazaxıstan, Özbəkistan və Türkmənistan kimi Mərkəzi Asiya ölkələrindən ötür. Daha sonra Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyəni keçərək Avropaya çatır. Orta Dəhliz Asiyanın şərq hissələrini, o cümlədən, Çini Avropa ilə birləşdirən daha uzun dəniz yollarından yan keçən quru yoludur.

Bu məqamda xatırlatmaq yerinə düşər ki, son illər qlobal nəqliyyat və logistika sistemində müşahidə olunan dəyişikliklər Orta Dəhliz adlanan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyətini sürətlə artırmaqdadır. Bu dəhliz Çin və Avropa arasında daşımaların alternativ və etibarlı marşrutu kimi önə çıxır. Geosiyasi risklərin artdığı, ənənəvi marşrutların isə qeyri-sabitliklə üzləşdiyi bir dövrdə Orta Dəhliz daha səmərəli, təhlükəsiz və çevik logistik imkanlar təqdim edir.

Yeri gəlmişkən, Orta Dəhliz layihəsinin əsası 2013-cü ildə qoyulub və marşrut Çin – Qazaxıstan – Xəzər dənizi – Azərbaycan – Gürcüstan – Türkiyə – Avropa xətti üzrə uzanır. Marşrutun əsas üstünlüyü ondan ibarətdir ki, o, Rusiyadan yan keçməklə, Cənubi Qafqaz və Mərkəzi Asiyanı birləşdirərək geosiyasi riskləri minimuma endirir.

Azərbaycan bu dəhlizdə mərkəzi tranzit ölkə rolunu oynayır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı – Tbilisi – Qars dəmir yolu, eləcə də Ələt Azad İqtisadi Zonası kimi strateji infrastruktur obyektləri dəhlizin səmərəliyini artıran əsas amillərdir.

Orta Dəhlizlə Çin – Avropa arası yüklərin daşınması 12-15 gün çəkir. Müqayisə üçün deyək ki, Şimal Dəhlizi ilə bu müddət 20-25 gün, dəniz yolu ilə isə 35-45 gün təşkil edir. Daşıma həcminə gəldikdə isə qeyd edək ki, 2022-ci ildə Orta Dəhliz üzrə daşınan yükün həcmi 1,5 milyon ton olub. 2023-cü ildə bu göstərici 2,6 milyon tona çatıb, artım, təxminən, 73 faiz olub. 2024-cü ildə isə 4 milyon tonluq həcm hədəflənib.

Azərbaycan Orta Dəhlizdəki əsas ölkələrdən biri kimi regionda yeni logistik xəritənin formalaşmasına təkan verir. Bu, özünü Bakı Limanı, Bakı – Tbilisi – Qars dəmir yolu, Ələt Azad İqtisadi Zonası kimi mühüm önəm daşıyan infrastrukturların səmərəli fəaliyyətində nəzərə çarpdırır. Belə ki, Bakı Limanının ildə 15 milyon ton yükötürmə qabiliyyəti var. 2027-ci ilə qədər bu göstəricinin 25 milyon tona çatdırılması nəzərdə tutulur. Bakı – Tbilisi – Qars dəmir yolu illik 5 milyon ton yükdaşıma potensialına malikdir. 2024-cü ildə modernləşdirmə işlərindən sonra bu rəqəmin 6,5 milyon tona çatacağı gözlənilir.

Ələt Azad İqtisadi Zonası isə ixrac yönümlü istehsal və logistik xidmətlərin mərkəzinə çevrilməkdədir. Burada yaradılan gömrük və vergi güzəştləri xarici investorlar üçün əlavə stimul yaradır. Azərbaycanın belə əlverişli infrastruktur imkanları sayəsində Orta Dəhliz sadəcə tranzit yolu deyil, həm də regional istehsal, ticarət və logistik mərkəzə çevrilməkdədir.

Ekspertlərin fikrincə, Orta Dəhlizin genişləndirilməsi üçün bir sıra vacib məsələlər önə çıxır. Bu, ilk növbədə, koordinasiyanın gücləndirilməsində özünü büruzə verir. Dəhlizə daxil olan ölkələr arasında gömrük, tarif və texniki prosedurların uyğunlaşdırılması da mühüm önəm daşıyır.

Orta Dəhlizin inkişafı ilə bağlı digər məqamlar isə infrastrukturun təkmilləşdirilməsi və rəqəmsallaşmanın diqqətdə saxlanılması ilə bağlıdır. Yeri gəlmişkən, burada birinci məsələdə əsas diqqət marşrutun Qazaxıstan və Gürcüstan hissələrində avtomobil və dəmir yollarının modernləşdirilməsi tələb olunur. Digər məsələdə isə daşımaların izlənilməsi və koordinasiyası üçün vahid rəqəmsal platformaların yaradılması planlaşdırılır.

Xatırladaq ki, 2024-cü ilin əvvəlində Astanada keçirilən Orta Dəhlizə dair sam-




mitdə üzv ölkələr tərəfindən bu məsələlər üzrə birgə yol xəritəsi təsdiqlənib. Azərbaycanın təşəbbüsü ilə “yaşıl dəhliz” statusuna malik sürətli gömrük keçidlərinin yaradılmasına başlanılıb.

Orta Dəhliz yalnız coğrafi baxımdan Şərq və Qərbi birləşdirmir, eyni zamanda, yeni bir ticarət fəlsəfəsi – təhlükəsizlik, çeviklik və əməkdaşlıq üzərində qurulmuş qlobal logistik platforma təklif edir. Azərbaycanın bu dəhlizdəki strateji rolu isə ölkənin regionda lider logistika və ticarət mərkəzinə çevrilməsi istiqamətində atılan konkret addımlarla daha da güclənir.

Bu gün beynəlxalq hesabatlarda qarşıdakı illərdə Orta Dəhlizə heç vaxt olmadığı qədər ehtiyac yarandığı, Çindən gələn və Azərbaycandan keçən yüklərin ildən-ilə artdığı vurğulanır. Eyni zamanda, Orta Dəhliz layihəsinin böyük gələcəyinə güclü inam olduğu, eləcə də Azərbaycanda bu marşrutun inkişafı məqsədilə bütün lazımi infrastrukturun, o cümlədən müasir dəniz limanının inşa edildiyi, hazırda isə onun genişləndirilməsi istiqamətində iş aparıldığı bildirilir.

Azərbaycan hazırda Orta Dəhliz çərçivəsində dəmir yollarının modernləşdirilməsini sürətlə gerçəkləşdirir. “Azərbaycan Dəmir Yolları”nın bu barədə məlumatında Ələt dəmir yolu stansiyasında təmir işlərinin bu il başa çatdırılmasının nəzərdə tutulduğu qeyd edilir. Eyni zamanda, layihənin icrasının Bakı – Böyük Kəsik dəmir yolu xətti üzrə qatarların təhlükəsiz hərəkətinin təmin edilməsi və bu dəhlizdə mövcud darboğazın aradan qaldırılması məqsədi daşıdığı vurğulanır.

Qeyd edək ki, Orta Dəhlizin inkişafı və səmərəliyinin artırılması çərçivəsində bu günə kimi Sian (Çin) limanında Qazaxıstan terminalının tikintisi və Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin modernləşdirilməsi və ötürmə qabiliyyətinin artırılması üzrə işlər başa çatdırılıb, Dostık – Moyıntı dəmir yolu hissəsində ikinci, Almatıdan yan keçən xəttin, eləcə də Poti limanında bu il işə salınması nəzərdə tutulan konteyner terminalının tikintisinə başlanılıb. Bundan əlavə, 2025-ci ilin ortalarına qədər Aktau limanında konteyner qovşağının inşası, eləcə də Qazaxıstan tərəfinin Kurık və Bakı limanları arasında fəaliyyət göstərəcək öz bərələrini alması planlaşdırılıb.

Hazırda respublikamızda Bakı limanının 2-ci fazasının tikintisi davam etdirilir, quru yük körpüsü və liman stansiyalarının ötürücülük qabiliyyəti artırılır, eləcə də ölkəmizin dəmir yolları üçün vaqon parkının yenilənməsi nəzərdə tutulur, dəmir yollarının Ələt – Böyük Kəsik hissəsinin modernləşdirilməsi sürətlə həyata keçirilir.

“Azərbaycan Dəmir Yolları” QSC Orta Dəhlizin inkişafı üçün “Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu” (TBNM) Beynəlxalq Assosiasiyası çərçivəsində islahatlara fəal qoşulub. İslahatlar nəticəsində Çindən Qazaxıstan, Azərbaycan və Gürcüstan vasitəsilə yük daşımalarının səmərəli təşkili üçün komissiyalar və işçi qrupları yaradılıb.

TBNM çərçivəsində Azərbaycanın Gürcüstan və Türkiyə ilə uğurlu əməkdaşlığı davam edir. Yeni “Avrasiya Nəqliyyat Marşrutu” Beynəlxalq Assosiasiyasının məqsədi isə Orta Dəhlizin cənub qanadındakı ölkələrin səmərəli fəaliyyətə cəlb edilməsini sürətləndirməkdir. Onu da qeyd edək ki, 2024-cü ildə TBNM ilə yükdaşımaların həcmi 62 faiz artaraq 4,5 milyona tona yüksəlib. Bu il üçün isə 5,2 milyon ton daşınma proqnozlaşdırılıb.

Orta Dəhlizlə daşınan yüklərin ümumi həcmi 2024-cü ildə 7 milyon 981 min ton olub. Daşımaların 45,2 faizi dəmir yolu, 31,7 faizi avtomobil nəqliyyatı və 23,1 faizi isə dəniz nəqliyyatı ilə həyata keçirilib. Tranzit yüklərin payı 60,2 faiz təşkil edib.

Yeri gəlmişkən, ekspertlərin hesablamalarına görə, Orta Dəhlizi əhəmiyyətli dərəcədə təkmilləşdirmək üçün, təxminən, 18,5 milyard avro tələb olunur. Həmin investisiyanın hesabına Mərkəzi Asiyanın 5 ölkəsində polad magistralları və avtomobil yolları şəbəkəsinin bərpası, modernləşdirilməsi, heyətin genişləndirilməsi, limanların ötürücülük qabiliyyətinin artırılması, sərhəd-keçid məntəqələrinin, multimodal logistika qovşaqlarının və köməkçi şəbəkə birləşmələrinin təkmilləşdirilməsi mümkündür. Ümumilikdə isə, iştirakçı ölkələr tərəfindən infrastrukturun modernləşdirilməsi və sinxron inkişafı istiqamətində görülən işlər Orta Dəhlizdə tranzit daşımaların sabit artımını təmin etməyə imkan verəcək.

# “İstehlakçı hüquqlarını bil və tələb et!”

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi istehlakçıların qanunvericiliklə müəyyən edilmiş hüquqlarının qorunması, onların öz hüquqları barəsində maarifləndirilməsi, xüsusilə də sahibkarların öz fəaliyyətlərini istehlakçı məmnunluğu yönündə qurmağa təşviq edilməsi məqsədilə genişmiqyaslı maarifləndirmə kampaniyasına başlayıb.**




Dövlət – özəl dialoqu əsasında həyata keçirilən maarifləndirmə kampaniyası çərçivəsində Bakı şəhərində və regionlarda yerləşən iri market şəbəkələrində, elektronika mağazaları və yanacaqdoldurma məntəqələrində, eləcə də Bakı şəhərində yerləşən geyim mağazalarında və böyük ticarət mərkəzlərinin reklam lövhələrində, ümumilikdə, 6 mindən çox obyektə “İstehlakçı hüquqlarını bil və tələb et!” çağırışı ilə hazırlanan maarifləndirici posterlərin yerləşdirilməsi həyata keçirilir. Artıq ölkə üzrə 9 mindən çox posterin yerləşdirilməsi başa çatdırılıb.

Agentliyin məlumatına əsasən, istehlakçılar posterlər üzərində əks olunmuş QR kodu mobil telefon vasitəsilə asanlıqla oxudaraq qurumun rəsmi internet səhifəsində yerləşdirilmiş “İstehlakçının əl kitabçası” (https://competition.gov.az/az/page/melumat-merkezi/istehlakcinin-el-kitabcasi) adlı maarifləndirici materiala keçid edə və onu yükləyə bilərlər.

Materialda lazımi keyfiyyətli qeyri-qida malı dəyişdirilərkən, qüsurlu mal satılarkən, eləcə də iş görülməsinə və xidmət göstərilməsinə dair müqavilələrin şərtləri pozularkən istehlakçıların sahib olduqları hüquqlar, eyni zamanda, sözügedən hallarla rastlaşdıqda istehlakçılar tərəfindən atılacaq addımlar, zəmanət öhdəlikləri və yararlılıq müddəti barədə məlumatlar əks olunub. Bu da istehlakçıların öz hüquqları barədə məlumatlılıq səviyyəsinin artırılmasına xidmət edir. Nəticə etibarilə, istehlakçılar mal, iş və ya xidmət aldıqları müəssisələrdə öz hüquqlarını bilməklə yanaşı, həm də sahibkarlarla daha sağlam və qarşılıqlı etimada əsaslanan münasibətlər qurmaq imkanı əldə edəcəklər.



# Bu il Avropaya 4 milyard kubmetr qaz ixrac edilib

**Bu ilin yanvar-aprel aylarında Azərbaycandan Avropaya 4 milyard kubmetr qaz ixrac olunub. Bunu energetika naziri Pərviz Şahbazov “X” sosial şəbəkəsindəki hesabında bildirib.**

Məlumata görə, ilin ötən 4 ayında Türkiyəyə 3,1 milyard kubmetr, Gürcüstana isə 0,9 milyard kubmetr qaz ixrac olunub. Bundan əlavə, paylaşımda qeyd olunduğu kimi, hesabat dövrü ərzində Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) ilə Türkiyəyə 1,9 milyard kubmetr qaz nəql edilib.

Xatırladaq ki, Azərbaycan qazının Avropaya tədarükü Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə 2020-ci ilin sonunda başlayıb. Hazırda kəmərin ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr qaz təşkil edir və 2027-ci ilin sonunadək 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulub.

Ümumi uzunluğu 878 kilometr təşkil edən TAP Yunanıstanın şimal hissəsindən 550 kilometr, Albaniya ərazisindən 215 kilometr, Adriatik dənizinin dibi ilə 105 kilometr, İtaliya ərazisindən isə 8 kilometr məsafə qət edir.

Azərbaycan qazının alıcılarından olan Bolqarıstana “mavi yanacağ”ın nəqli TAP-a birləşdirilən Yunanıstan – Bolqarıstan İnterkonnektoru (IGB) vasitəsilə həyata keçirilir. “Bulgargaz EAD” dövlət şirkəti “Şahdəniz-2” yatağından 1 milyard kubmetr qazın tədarükü üçün “Şahdəniz” konsorsiumu ilə müqavilə imzalayıb. Ümumi uzunluğu 182 kilometr olan boru kəmərinin 150 kilometrlik hissəsi Bolqarıstan ərazisindən keçir. Boru kəmərin illik ötürücülük qabiliyyətinin 3-5 milyard kubmetr olacağı gözlənilir.

# 4 ayda 9 milyon ton neft və kondensat

**2025-ci ilin yanvar-aprel aylarında operativ məlumatlara əsasən, ölkəmizdə neft-kondensat hasilatı 9,1 milyon ton, ixracı isə 7,8 milyon ton təşkil edib. Bu barədə energetika naziri Pərviz Şahbazov “X” sosial şəbəkəsindəki hesabında məlumat verib. Nazir onu da bildirib ki, bu dövrdə ölkədə 16,7 milyard kubmetr qaz hasil edilib. Bunun da 8 milyard kubmetri xaricə satılıb.**



Qeyd edək ki, hazırda Azərbaycandan Bakı – Tbilisi – Ceyhan boru kəməri ilə “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan hasil edilən neft və “Şahdəniz” yatağından çıxarılan kondensat nəql olunur. Bundan əlavə, boru kəməri ilə Türkmənistan və Qazaxıstan neft də nəql edilir.

Təbii qaz həcmləri isə Cənubi Qafqaz Boru Kəməri (Bakı – Tbilisi – Ərzurum) və Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) vasitəsilə Türkiyə bazarına çatdırılır. Bakı – Tbilisi – Ərzurum kəməri ilə ilk qaz Türkiyə bazarına 2007-ci ildə daxil olub. TANAP vasitəsilə Türkiyəyə kommersiya qazının nəqlinə isə 2018-ci il iyunun 30-da başlanılıb.



# Zirə limanının yükləri dəmir yolu ilə daşınır

**Cari ilin yanvar-mart aylarında Zirə limanından “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinə (ADY) aid 25 min tona yaxın yük daşınıb. Həmin yüklər isə, əsasən, kimya sənayesi məhsullarından ibarət olub. Bu barədə ADY-dən məlumat verilib.**

Xatırladaq ki, “Azərbaycan Dəmir Yolları” tərəfindən 2023-2024-cü illərdə həyata keçirilən infrastruktur quruculuğu çərçivəsində 21 kilometrlik Dübəndi – Zirə – Gürgən – Zirə Dəniz Limanı dəmiryol xətti yenidən qurulub. Bundan əlavə, Gürgən və Zirə limanı arasında 9 kilometr uzunluğunda yeni dəmiryol xətti çəkilib. Həmin infrastruktur quruculuğu isə bu ilin yanvar ayının sonlarında Zirə limanından ilk dəfə olaraq dəmir yolu ilə tranzit yüklərin daşınmasına imkan yaradıb.

Zirə limanından dəmir yolu ilə tranzit yüklərin daşınması sayəsində Orta Dəhlizlə yük axınlarının daha sürətli təşkili və əməliyyatların səmərəliliyi təmin olunacaq.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# “Üç kitabın bir təqdimatı”

## Yaxud “Xalq qəzeti”nin kitabxanası” zənginləşir




**Mayın 13-də Azərbaycan Mətbuat Şurasının akt zalında Əməkdar jurnalist, on illər boyu “Xalq qəzeti”ndə çalışmış İttifaq Mirzəbəylinin təqaüdə çıxandan sonra ərsəyə gətirdiyi kitabların təqdimatı keçirilib.**

Tədbirdə müəllifin 44 günlük İkinci Qarabağ müharibəsi dövründə qələmə aldığı yazılardan ibarət “And və əməl”, böyük ədib Əli Vəliyevdən bugünkü baş redaktor Əflatun Amaşova qədər olan dövrdə (ondan əvvəlki redaktorlar barədə ümumu




məlumat verilib) “Xalq qəzeti” – “Kommunist”ə rəhbərlik etmiş görkəmli qələm sahibləri barədə qələmə alınmış məqalələrdən ibarət “Baş redaktorlarımız haqqında yazılanlar” və 1991-ci ildən sonra “Xalq qəzeti”ndə çalışıb dünyasını dəyişmiş həmkarlarımız haqqında xatirələrdən ibarət “Unudulmazlar redaksiyası” adlı kitablar təqdim olunub.

Qeyd olunub ki, bu kitabların birincisi ölkəmizdə Heydər Əliyev siyasətinin təntənəsinə nail olmuş Prezident İlham Əliyevin dövlət başçısı kimi ilk dəfə and içərkən söylədiyi “Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasına nail olacağam” tezisinin günümüzün reallığına çevrilməsi haqqındadır. Kitabda verilmiş məqalələrin əksəriyyəti 44 günlük




İkinci Qarabağ müharibəsi zamanı yazılmışdır.

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşovun təşəbbüsü ilə ərsəyə gəlmiş “Baş redaktorlarımız haqqında yazılanlar” adlı ikinci kitab da müxtəlif illərdə yazılmış məqalələrin toplusudur. Burada qəzetin yarandığı gündən Əli Vəliyevə qədər olan dövr haqqında ümumi məlumat verilsə də, Əli Vəliyevdən sonrakı dövrdəki bütün baş redaktorlar haqqında görkəmli qələm sahiblərinin yazıları toplanmışdır.

“Unudulmazlar redaksiyası” adlı üçüncü kitabda isə müstəqillik dövründə “Xalq qəzeti”ndə işləmiş, fəqət, dünyasını dəyişmiş həmkarlarımız haqqında qələmə alınmış publisistik materiallar və xatirələr toplanmışdır.

Tədbirdə “Xalq qəzeti”nin baş redaktoru, hər üç kitabın layihə rəhbəri Əflatun Amaşov, kitabların redaktoru Qüdrət Piriyev, Mətbuat Şurasının əməkdaşları Əminə Yusifqızı, yazıçı-dramaturq Arif Mədətov, jurnalistlər Zərifə Bəşirqızı, Akif Cabbarov, Qalib Arif, Şəmsiyyə Kərimova, Bəradər Xanəliyev, Hacı Mehman Fərzullayev, Mübariz Süleymanlı, filologiya üzrə fəlsəfə doktoru Şəlalə Məhyəddinqızı, Əməkdar mədəniyyət işçisi Təranə Balayeva, eləcə də, 1991-ci ildən sonra “Xalq qəzeti”ndə çalışıb vəfat etmiş jurnalistlər Mahal İsmayıloğlu, Məmməd Nazimoğlu, Ziyəddin Sultanov, Ələsgər Cabbarov, Şakir Yaqubov, Hüseyn Əfəndi, Cavanşir Məmmədov və Emin İsayevin ailə, tərtibçi müəllifin tələbə yoldaşları Nüsrət Nəsirov, Rahibə Seyidova, İsgəndər Namazov, müəllifin gənclik dostu Əbülhəsən Əliyev və digər natiqlər çıxış edərək bu kitabların sözün həqiqi mənasında qədirbilənlik nümunəsi olduğunu söyləmişlər.

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov vurğulamışdır ki, bu il 150 yaşı tamam olan Azərbaycan mətbuatının tarixində qabardılmalı məqamlar onlarca, yüzlərcədir. Ona görə də biz İttifaq Mirzəbəylinin bu istiqamətdəki təcrübəsindən bəhrələnərək hələ bir neçə layihəni reallaşdıracağıq.

***İlahə DAĞLI***



**Masallı rayonunun Ərkivan qəsəbəsindən olan, Aprel və Tovuz döyüşlərinin qəhrəmanı, şəhid mayor Anar Novruzovun növbəti doğum günü qeyd edilib. Anar Novruzov Milli Qəhrəmanlar Polad Həşimovun və İlqar Mirzəyevin yaxın dostu, silahdaşı idi. Elə Polad Həşimov, İlqar Mirzəyev və Anar Novruzov üçü də bir yerdə, yəni bir atəş mövqeyində düşmənin açdığı artilleriya atəşi nəticəsində şəhid oldular.**

# Şəhid mayorun xatirəsi anıldı

İgid zabit Türkiyədə peşəkar təlim keçmişdi. 2016-cı ilin Aprel döyüşlərində şücaətlə iştirak edərək qəlpə yarası almışdı. Xidməti dövründə snayper tüfəngi ilə atdığı dəqiq atəşlərlə onlarca düşmən əsgərini məhv etmişdi. Elə bu səbəbdən də xidmət yoldaşları ona AQS-17 silahının “atası” da deyirdilər. Kəşfiyyatçı zabit kimi xidmətinə görə isə ona “Akula” ləqəbi verilmişdi. Təəssüf hissi ilə xatırlayırıq ki, ömrünün 26 ilini Vətənə xidmət edən Anar Novruzov 2020-ci ilin yayında baş verən “Tovuz döyüşləri” zamanı şəhid olub. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilib. Şəhid adının əbədiləşdirilməsi məqsədilə qəsəbədəki küçələrdən birinə onun adı verilib, vaxtilə yaşadığı evin qarşısında büstü qoyulub.



Doğma qəsəbədəki məzarıstanda uyuyan Anar Novruzovun xatirəsi ehtiramla yad edilib. Dostları, silahdaşları onunla bağlı həzin xatirələrini söyləyiblər. Masallı Rayon İcra Hakimiyyəti Başçısı aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Qəşəm Hadıyev, Lənkəran–Astara Regional Gənclər və İdman İdarəsinin Masallı sektorunun müdiri Sabiq Cahangirov, şəhidin hərbçi dostu, polkovnik-leytenant Firdovsi Xəlilov, onun tabeliyində xidmət etmiş əsgərlər, qazilər və şəhid valideynləri çıxış etdikcə qəhrəmanın işıqlı obrazı gözlər önündə canlanıb. Mərasimdə Ərkivan qəsəbəsindəki məktəblərin şagirdləri şəhid mayora həsr olunmuş kompozisiyanı təqdim edib, vətənpərvərlik ruhunda şeirlər səsləndiriblər.

Həmin gün məktəbli oğlan və qızlar arasında şəhid mayor Anar Novruzovun xatirəsinə həsr olunmuş tir atıcılığı yarışlarına da yekun vurulub və qaliblər mükafatlandırılıblar.

***Ə.ƏLİYEV***
***XQ***

# Türkologiya Turan birliyinin təməl daşıdır

**Turan birliyi ideyasının gerçəkləşdiyi, humanitar elmlər kompleksi olan türkologiyanın genişləndiyi hazırkı vaxtda bu fəaliyyət sahəsi yeni mənalar kəsb etməkdədir. Elmi mərkəzlər daha fəal işləyir, jurnallar, kitablar buraxılır. Elə bu sahənin dərin bilicisi – 10 ildən bəri “Ədəbiyyat qəzeti”nə rəhbərlik edən tanınmış tənqidçi, publisist, filologiya üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Azər Turanla söhbətimiz də bu haqdadır.**



***– Azər müəllim, bildiyimiz kimi, Osmanlı dövründə türkologiyaya o qədər maraq olmasa da, Türkiyə Cümhuriyyəti yaradıldıqdan sonra Mustafa Kamal Atatürkün rəhbərliyi ilə birbaşa bu sahə ilə məşğul olan tarix və dil qurumlar yaranıb. Eyni təmayül Azərbaycana da sirayət edib. 1926-cı ildə Bakıda Birinci Türkoloji Qurultay keçirilib. Sonrası da məlumdur. Bu barədə düşüncələrinizi dinləmək istərdik.***

– Qurultay barədə öncə deyim ki, Bakının öz intellektual həyatını yüksək səviyyədə qoruyub saxlaya bilməsi 1926-cı ildə Rusiya şərqşünaslıq elminin klassiklərindən biri – akademik Bartold tərəfindən etiraf olunub ki, bu da adamda xoş təəssürat doğurur. Əlverişli coğrafi və elmi mövqeyin üst-üstə düşməsi, XX yüzilin ilk çərəyində dünya türkologiyasının ən aktual problemlərinin Bakıda müzakirə olunması ictimai fikir tariximizin başucaldan səhifəsini təşkil edir. Birinci Türkoloji Qurultayın Bakıda keçirilməsi qərarına gələnlərin, şübhəsiz ki, həm də siyasi maraqları var idi, amma hər halda, türkologiya tarixi öz yeni və daha geniş miqyaslı səfərinə Bakıdan başlayırdı.

1926-cı ilin 26 fevralından martın 6-na kimi davam edən və 17 iclası keçirilən qurultayda 93-ü türk və 38-i başqa millətlərin təmsilçisi olaraq 131 nəfər nümayəndə iştirak edirdi. 22 nəfərdən ibarət olan Rəyasət heyətinə Ağamalıoğlu, Ruhulla Axundov, akademik Bartold, Baytursun, Baraxov, Borozdin, Həbib Cəbiyev, Qalimcan İbrahimov, İdelquzin, Köprülüzadə, Qorxmazov, Naqamov, Naqovitsin, Oldenburq, Pavloviç, Samoyloviç, Tınıstanov, Bəkir Çobanzadə, Berdiyev, Akçoraklı, Umar Əliyev, Mentsel seçilmişdilər. Fəxri Rəyasət heyətinə isə Əli bəy Hüseynzadə, Banq, Mustafa Quliyev, akademik Marr, Lunaçarski, Tomsen seçilmişdi. Qurultayda nümayəndə kimi iştirak edən digər ziyalılar və dövlət xadimləri: Sultan Məcid Əfəndiyev, Salman Mümtaz, Həmid Sultanov, Mirzə Davud Hüseynov, Hənəfi Zeynallı, Əhməd Pepinov, Xalid Səid Xocayev... Yaxud sadəcə qonaq kimi qatılan Hüseyn Cavid... Qəribədir ki, bu insanların hamısı, o sıradan başqa respublikaları təmsil edənlərin də böyük əksəriyyəti sonralar Stalin repressiyasının qurbanı olublar.

Türkoloji Qurultay barədə tarixi həqiqətlər hələ təfərrüatına qədər araşdırılmayıb və doktor Nəriman Nərimanovun türkoloji qurultayın keçirilməsi, Azərbaycanda latın qrafikasının tətbiq olunması ilə bağlı fəaliyyəti, xidmətləri, təəssüf ki, çox az işıqlandırılıb. Halbuki, Nəriman Nərimanov bu məsələdə görünən və görünməyən tərəfləri ilə özü barədə düşünməyə kifayət qədər ciddi əsaslar verən, sovet siyasi bumeranqının ilk qurbanlarından və şəhidlərindən biri idi. Türkoloji Qurultayın keçirilməsi ideyasının ilk müəlliflərindən biri və bəlkə də birincisi olan Nərimanovun əlifba islahatı yolundakı fəaliyyəti barədə 20-ci illər Türkiyəsinin ideoloji həyatında xüsusi yeri olan doktor Rza Nurun “Hayat və hatıratım” kitabının 3-cü cildində hədsiz dərəcədə qiymətli tarixi həqiqətlər yazılıbdır.

***– Yeri gəlmişkən, o zaman latın əlifbasının qəbulu ilə bağlı müzakirələrdə Hüseyn Cavidin də adı keçirdi, eləmi?***

– Bəli. Bu da xüsusi vurğulanmalıdır ki, SSRİ-də yaşayan türklər əlifba inqilabına Türkiyə türklərindən daha əvvəl başlamışdılar. Türkiyədə latın əlifbasının qəbulu 1928-ci ilin 1 noyabrında Türkiyə Böyük Millət Məclisinin qərarı ilə gerçəkləşmişdi. Amma Azərbaycanda Nəriman Nərimanov, yuxarıda qeyd etdiyim kimi, hələ 1920-ci ildən bu məsələylə məşğuldu. 1921-ci ilin son günlərində – dekabrın 30-da Darülmüəllimin salonunda şura ziyalılarının ümumi yığıncağında türk əlifbası ilə əlaqədar keçirilən iclası da doktor Nərimanov açmışdı və həmin toplantıya sədrlik etməyi Hüseyn Cavidə tapşırmışdı.

Bir haşiyə çıxım. Hüseyn Cavid haqqında sənədli filmin üzərində çalışarkən Birinci Türkoloji Qurultayın kinoxronikasına rəhmətlik Turan Cavidlə bir yerdə baxdıq. Həmin iclasda 2-ci sırada əyləşmiş adamın Hüseyn Cavid olduğunu Turan xanım birmənalı şəkildə təsdiq etdi. Ümumtürk ədəbi dilinin naminə mücadilə verən Cavid əfəndinin əlifba məsələsinə münasibəti, çox qəribədir ki, qurultayda ümümtürk ədəbiyyatının bir sıra məsələləri ilə yanaşı, həm də ortaq türkcənin tarixi barədə danışan Fuad Köprülünün həmin günlərdə “Yeni fikir” qəzetinə verdiyi müsahibəsində dediyi fikirlərlə az qala, eyniyyət təşkil edirdi. Cavid əfəndi latın əlifbasına keçidlə əlaqədar 1922-ci ildə “Latınçılar komissiyasına” ünvanladığı məktubunda yazırdı: “Komissiyonda ərz etdiyim kimi, mən nə latınçıyam, nə də islahçı... olsa-olsa, mən yalnız türk dünyasının haqqı ilə anlayan, alim, mütəxəssis lisançı və əlifbaçı vətəndaşların gələcəkdəki təcrübələrindən istifadə edən bir müəllim ola bilərəm və şimdilik heç bir komissiyonda iştirak etməm”. Bu, Cavidin üslubu idi: nəzakətli və siyasi.



Onu da deyim ki, Azərbaycanda əlifba islahatının ilk müəllifi Mirzə Fətəli Axundovdu, amma uzun illər islahatla bağlı yekdil qənaətin hasilə gəlməməsi də düşündürücüdür. Xüsusən, XX yüzilliyin əvvəllərində maarifçi və romantik mədəniyyətin təmsilçiləri, o cümlədən 1903-cü ildə İsmayıl bəy Qaspıralı, 1907-ci ildə Əli bəy Hüseynzadə bu xüsusda öz açıq mövqelərini ortaya qoymuşdular. İsmayıl bəy Qaspıralı əlifbanın islahını deyil, təhsilin, məktəbin islah edilməsini önə çəkirdi. Ümumiyyətlə, türk xalqlarının vahid əlifba seçimi ilə bağlı görüşlər birmənalı deyildi... Türkoloji qurultayda, az qala, belə demək mümkündür ki, iki tərəf – səmimi türk ziyalıları və Kremlin milli siyasəti iştirak edirdi. Qurultayın işində professor Bəkir Çobanzadənin fəaliyyəti daha əhatəli görünürdü. Çobanzadə qurultayda bir sıra çıxışlar etmişdi. “Türk ləhcələrinin yaxın qohumluğu”, “Elmi terminologiya sistemi” məruzələrinin müəllifi Çobanzadəydi. Bu məruzələr Çobanzadənin dünya türkoloji mühitində nüfuzunun yüksəlməsinə güclü təkan verdi.

Türkoloji Qurultayda yeni əlifba haqqında, türk dillərinin və türk dilinin başqa dil ailələri ilə əlaqələrinin öyrənilməsi haqqında, ana dilinin tədrisi metodikası haqqında, “Türk xalqları tarixini öyrənməyin müasir vəziyyəti və cari vəzifələri” məruzəsi üzrə, ölkəşünaslıqla bağlı məruzələr üzrə, türk dillərinin orfoqrafiyası haqqında, təşkilat komissiyası barədə, türk dillərində elmi terminologiya sistemi haqqında qətnamələr, eləcə də etnoqrafiya komissiyasının qətnaməsi qəbul edilmişdi. Qurultay latın əlifbasının ərəb əlifbasından üstün olduğunu elan etmişdi, türk dillərinin elmi qrammatikasının və lüğətinin tətbiq olunmasını qərara almışdı, arxeoloji tədqiqatların keçirilməsi, xarici müəlliflərin türkologiyaya aid əsərlərinin nəşri, salnamələrin toplanması, ölkəşünaslığın inkişafı ilə əlaqədar işlərin görülməsi, türk dillərinin orfoqrafiya lüğətini yaratmaq, türkolojiyə aid olan bütün materialların toplanıb siyahıya alınması, hər bir türk respublikasında elmi terminlər lüğətinin yaradılması və s. barədə qərarlar qəbul etmişdi.

Fakt budur ki, keçmiş SSRİ-də yaşayan türklər, əsasən, 1927-ci ildən 39-40-cı illərə kimi ərəb əlifbası əvəzinə latın qrafikasından istifadə etdilər. 30-cu illərin sonundan etibarən türk xalqlarının əlifbası yenidən dəyişdirildi, daha doğrusu, təcavüzə məruz qaldı, ənənəvi rus – kiril əlifbası türklərə tətbiq olundu. Amma, hər bir halda, Türkoloji Qurultay XX əsr Azərbaycan elmi-mədəni həyatının parlaq bir mərhələsini təşkil edir.

***– Azər müəllim, dediyiniz kimi, həmin qurultay ötən əsrin ən əhəmiyyətli hadisəsi olaraq, yaddaşlarda qalıb. Bu, həm də bir növ on illər sonra zamanın diktəsindən yaranan türk birliyinin bünövrə daşı sayılır. Dövlət səviyyəsində hüquqi qiymətini Azərbaycan ikinci dəfə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra aldı. 2005-ci il noyabrın 5-də Prezident İlham Əliyev bu mötəbər tədbirin 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzaladı və ölkəmizdə bununla əlaqədar beynəlxalq konfrans keçirildi. 2016-cı ildə isə 90 yaşı qeyd olundu. Bununla bağlı sərəncamda deyilirdi ki, ötən dövr türkologiyaya dair araşdırmalar sahəsində yeni konsepsiyaların formalaşdırılması, Azərbaycanın dünyamiqyaslı türkoloji araşdırmaların nüfuzlu mərkəzlərindən biri kimi tanınması ilə əlamətdardır. Qazanılan nailiyyətlər eyni zamanda qurultayın təşkilinə töhfələr verən və təəssüf ki, bir qədər sonra günahsız repressiya qurbanı olan görkəmli türkoloq alimlərin xatirəsinə ehtiramın ifadəsidir. Ötən ilin sonunda isə sizin də iştirakınızla Bakıda “Türk dünyasında milli kimlik və mədəni irs” mövzusunda III Beynəlxalq Türkoloji Konqres keçirildi. Çıxış da etdiniz.***

– Bəli. Milli kimlik məsələsinə həsr olunmuş Türkoloji konqresdə türk milli kimliyini ilk dəfə sosioloji tədqiqata cəlb etmiş Əli bəy Hüseynzadəyə aid məruzənin olmayacağını nəzərə alıb çıxışımı böyük mütəfəkkirin fikirləri üzərində qurmaq qərarına gəldim.

**(ardı var)**

***Hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

Yeni tamaşalar

# “Ötən günlər”in əks-sədası

**O, XIX əsr özbək həyatının bütün tərəflərini öz əsərlərində göstərməyə çalışır. Feodalizm, cəhalət, qadın hüquqsuzluğu, özbək xanlıqları arasında daxili didişmələr, çar imperiyasının özbək xalqını parçalamaq siyasəti... Abdulla Qədiri nəsrinin əsas mövzuları bunlardır.**

Abdulla Qədiri də hamı kimi ilk təhsilini mədrəsədə (köhnə müsəlman məktəbində) almışdı. O da Mirzə Cəlil kimi, göz açanda bu dünyanı qaranlıq görmüşdü. Öz xalqını qaranlıqdan işığa çıxarmaq üçün ömrünü məşələ çevirmişdi. Oxumuşdu, təhsil almışdı, bir-birindən gözəl əsərlər yazmışdı. “Mehrab əqrəbi”, “Ötən günlər” romanları özbək ədəbiyyatında romançılığın ilk nümunələridir. Xüsusən, “Ötən günlər” romanı yarandığı gündən bu günə qədər sevilə-sevilə oxunur. Öz xalqının başına gətirilmiş müsibətləri qələmə aldığı üçün Abdulla Qədiri repressiyaya məruz qalmış, əsərləri qadağan olunmuşdu. Onun güllələnməsi faktı uzun illər gizli saxlanılmışdı. Lakin tarix və zaman bu böyük yazıçıya bəraət qazandırdı. Tarixi ədalət bərpa olundu. Abdulla Qədiri yenidən öz ideyaları və əsərləri ilə xalqının yaddaşına qayıtdı.

Bu günlərdə Bakı Bələdiyyə Teatrı Abdulla Qədirinin “Ötən günlər” romanının motivləri əsasında tanınmış yazıçı-dramaturq Kənan Hacının yazdığı pyesi səhnəyə gətirdi. Tamaşanın quruluşçu rejissoru, Xalq artisti Mərahim Fərzəlibəyov “Ötən günlər”ə yeni səhnə həyatı bəxş etdi. Mərahim Fərzəlibəyov və Kənan Hacının uğurlu işbirliyi nəticəsində teatr tariximizə daha bir gözəl səhnə əsəri əlavə olundu. Dərin psixologizm, real dramatizm, ciddi ideya olan əsərlərdə hər şey, aktyorların ifasında gözəl ustalıqla qurulan mizanlarla həll edilir.

Mərahim müəllimin hazırladığı bütün tarixi dram əsərlərində olduğu kimi “Ötən günlər”də də türk xalqlarının birliyi ideyası aparıcı xətdir. Rejissor öz sənət məramına sadiq qalmaqla yeni forma axtarışları edir. Ümumiyyətlə, Mərahim Fərzəlibəyov özünəməxsus dəst-xəttə malik bir sənətkardır. Onun dramaturqla iş metodu da fərqlidir. “Ötən günlər”i səhnələşdirən yazıçı Kənan Hacı qeyd edir ki, o, bu bir neçə aylıq yaradıcı iş prosesində sözün əsl mənasında böyük təcrübə əldə edib. Müəllif romanı səhnələşdirməkdən ötrü Abdulla Qədirinin həyatı və yaradıcılığını, dövrünü və mühitini dərindən öyrənmiş, özbək ədəbiyyatının tədqiqatçıları ilə mütəmadi görüşmüş, mövzuya dərindən nüfuz etməyə çalışmışdır. Nəticədə gözəl bir iş ərsəyə gəlmişdir.





“Ötən günlər” tamaşasında biz sevilən aktyorlarımızı görürük. Bitkin aktyor ansamblı tamaşaçını bir neçə saatlıq özbək xalqının ötən günlərinə səyahətə aparır. Biz Gümüşlə Atabəyin faciəvi taleyinə acıyırıq. Bir sıra uğurlu rolları ilə tamaşaçı sevgisi qazanmış Tural Əhmədin yaratdığı Atabəy obrazı öz mübarizliyi və birgin xarakteri ilə yadda qalır. Gənc aktrisa Sabirə Rüstəmlinin ifasında Gümüş son dərəcə uğurludur. Sabirə xanım Gümüşün daxili dramatizmini uğurlu ifadələrlə tamaşaçıya çatdırmağı bacarır.

Əməkdar artist Hüsniyyə Mürvətovanın ifasında Özbək xanım son dərəcə bitkin bir obraz təsiri bağışlayır. Hökmlü qadının qəti, imperativ replikaları hakimanəlik, vüsətli temperament xarakterin tamlığına, canlılığına xidmət edir. Bu səbəbdəndir ki, onu gənc sevgililərin səadətinə maneə kimi görən tamaşaçının qəlbində Özbək xanıma qarşı daxili bir etiraz hissi baş qaldırır. Bu, aktrisanın böyük uğurudur.

Rəşad Kəsəmənlinin ifasında Hacı Yusif obrazı qənaətbəxşdir. Aktyor obrazın xarakterini demək olar ki, mənimsəməyi bacarıb. Ağsaqqal missiyasını daşısa da, Hacı Yusif bəy köhnə adət-ənənələrin qarşısında acizdir. Bu acizlik hissi aktyorun ifasında son dərəcə təbiidir.

Əməkdar artist Əfqan Soltanov Mirzəkərim obrazını özünəməxsus şəkildə oynayır. Feodal sinfinə mənsub olsa da, o, ədalətli insandır, haqqı nahaqqın ayağına verən deyil. Aktyorun ifasında Mirzəkərim tamaşaçıda rəğbət hssi oyadır.

Əməkdar artist Aydın Əliyevin yaratdığı çar polkovniki obrazı tamaşanın demək olar ki, ideyasının açılmasına xidmət edir. Müəllif daxili dramatizmi artırmaq məqsədilə bu obraz üzərində xüsusi işləyib və nəticədə son dərəcə maraqlı bir obraz ərsəyə gəlib. Aydın Əliyev ona tapşırılan rolun öhdəsindən bacarıqla gəlir. Onun plastikası, daxili imkanları obrazın dolğunluğuna xidmət edir.

Əməkdar artist Səmayə Sadıxovanın ifasında Aftab xanım öz qızının xoşbəxtliyi üçün çalışan anaların ümumiləşmiş obrazı kimi yadda qalır. Aktrisa uğurlu tapıntıları ilə obraza kolorit qazandırır.

Əməkdar artist Firəngiz Babayevanın canlandırdığı Cənnət obrazı haqda məxsusi danışmağa dəyər. Bu xəbis qadın (Cənnət) ev yıxmaqla, gəncləri bir-birindən ayırmaqla məşğuldur. Onun simasızlığına hansısa cizgilər əlavə etmək üçün rol üzərində xeyli işləmək lazım gəlir. Peşəkar aktrisa Firəngiz Babayeva Cənnətə uğurlu səhnə həyatı qazandırıb.

Bir-birindən maraqlı obrazların müəllifi Zülfiyyə Məmmədova bu tamaşada Zeynəb rolunu canlandırır. Zeynəb Atabəyin xanımı olsa da, onun sevgisindən kənarda qaldığından nifrət hissində boğulan bir qadındır. Zülfiyyə Məmmədova bu obrazı məharətlə canlandırır. Zeynəbin daxili dünyasını uğurlu ifadələrlə göstərməyi bacarır.

İstedadlı aktyor İsmayıl Atakişiyevin ifasında Həsənalı Lələ xeyirxah, müdrik insan təsiri bağışlayır. Atabəyi öz övladı kimi istəyən Həsənalı Lələ onun elçiliyini də edir. Atabəylə Gümüş bu razılaşmadan sonra bir-birinə qovuşurlar. Hacı Yusif ağa oğlunun tərbiyəsi ilə məşğul olmağı Həsənalı Lələyə tapşırdığından o, hər addımda Atabəyin yanındadır. Aktyor bu rolu səliqəli şəkildə oynayır.

Aktyor Toğrul Rzanın canlandırdığı Divanə obrazı son dərəcə maraqlı personajdır. O, səhnədə hərəkətsiz qalmağı ilə də iş görür. Divanə hadisələr zəncirinin mühüm halqasıdır. Toğrul bəy bu obrazı ustalıqla oynayır.

Gənc aktyor Elməddin Zakirlinin Həmidi də yadda qalır. Feodal düşüncəli hiyləgər, qəddar Həmid hadisələrin düyün nöqtəsidir və bu konflikti dərinləşdirmək üçün aktyor çox uğurlu ifadə vasitələri tapır.

Aktyor Rəşid Soltanov tamaşada iki obrazı canlandırır – çar məmuru və naməlum adamı. Hər iki rol epizodik olsa da, aktyorun plastikası, mizanları tamaşaçının yaddaşında dərin iz buraxır.

Tamaşanın məsləhətçisi filologiya üzrə fəlsəfə doktoru, özbək ədəbiyyatının tədqiqatçısı Akif Azalpdır.

***İlhamə HACIYEVA,***
***BDU-nun elmi işçisi,***
***Yazıçılar Birliyinin üzvü***

Qayıdışın addımları

# Azad çöllərimizdə sürülər otlar...



## *Xocalıya ruzi-bərəkət də qayıdıb*

**İlin bu fəslində Xocalıdan Xankəndiyə, rayonun kəndlərinə gedən yolların kənarları ürəkaçan mənzərələri, güllərin, çiçəklərin əlvan xalı kimi sərildiyi yaşıl çəmənləri, bir sözlə, gözəllikləri ilə göz oxşayır. Baxan bir də baxmaq, gəlib görən həmişəlik elə burada qalmaq, gedən yenə qayıtmaq istəyir.**

Bir vaxtlar erməni quldurlarının tapdağı altında əzilən, inciyən bu Vətən torpaqlarında indi əsl sahibləri quruculuqla, əkin-biçinlə, heyvandarlıqla məşğul olmağa başlayıb. Hər yerdə insan nəfəsi duyulur, insan əlinin zəhmətinin ilkin bəhrələri görünür.

Budur, Xocalı-Ballıca yolundan bir xeyli aralı qoyun sürüsü ətrafa yayılıb, çomağına söykənmiş çoban da onların şirin-şirin otlamasına baxaraq məmnunluqla gülümsəyir. Yaxınlaşıb salamlaşıram, “bərəkətli olsun!” deyirəm. Söhbətə başlayırıq.

Öyrənirəm ki, Zamiq Nəcəfov Xocalı rayonunun vaxtilə erməni separatçılarına qan uddurmuş qəhrəman Kosalar kəndindəndir. Doğma yurd-yuvasından didərgin düşəndə cəmi 7 yaşı olub. Uzun illər ailəsi ilə birlikdə məcburi köçkün kimi Şəki rayonunda məskunlaşmış Zamiq orada da qoyun-keçi saxlayıb, ailəsinin dolanışığını heyvandarlıqdan çıxarıb. Bu yaxınlarda isə Vətən həsrəti bitib, arzuları gerçəkliyə çevrilib. Böyük Qayıdış çərçivəsində Ballıca kəndinə köçən Zamiq indi halal zəhməti ilə təsərrüfatını daha da böyütməyin xəyallarını qurur. Deyir, hamımız ürəklə, fəxrlə işləməliyik, çalışmalıyıq. Çünki bu torpaqlar neçə-neçə qəhrəman şəhidlərimizin canı-qanı bahasına alınıb:

– Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin, ordumuzu qorusun! Bugünkü xoşbəxtliyi, sevinci, qüruru bizə bəxş edən Prezidentimizlə fəxr edirik, gecə-gündüz ona duaçıyıq! Xocalı rayonunun Ballıca kəndində üçotaqlı evlə təmin olunmuşam. Böyük həyətim, həyətimdə heyvanları saxlamaq üçün tövləm, kəndin ətrafında geniş otlaqlar var. Bundan artıq nə lazımdır ki? Qalır indi özümüzün zəhmətə qatlaşaraq işləməyimiz.

Xocalıdan olan fermer qoyunlarının, keçilərinin sayı haqqında gülərək “dolanmağımız üçün də, dosta-tanışa kəsməyimiz üçün də bəs edəcək qədərdi” deyir. Hə, bir də deyir ki, bu işlə məşğul olan adamın ürəyində gərək heyvanlara qarşı sevgi olsun, təsərrüfatına sahiblik etdiyi qədər də sürüsünə çobanlıq etməyi bacarsın.

Zamiq gələcək planlarından da danışır:

– Qoyunların sortunu yeniləməyi düşünürəm. İstəyirəm hamısını Qarabağ sortuna dəyişim. Çünki bu sort hər baxımdan sərfəlidir. Bir də, inşallah, təsərrüfatı böyüdəcəyəm. Bunun üçün burada hər şərait var. Ot da boldur, çox şükür, yağış yağdı, örüşlər daha da yaşıllaşdı.

Həmsöhbətimlə işlərinin avand olması diləyi ilə sağollaşmaq istəyirəm. Sağ olsun, “qalın, qonağım olun, bir heyvan kəsim sizə” deyir. Duyğulanaraq təşəkkür edirəm. İşin avand, qurdun ağzı bağlı olsun, çoban qardaş. Yolçu yolda gərək!..

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**


## “Sabirabad Yem Zavodu” ASC səhmdarlarının nəzərinə!

27 iyun 2025-ci il saat 10.00-da “Sabirabad Yem Zavodu” ASC səhmdar¬larının növbəti illik ümumi yığıncağı Sabirabad şəhəri, Heydər Əliyev parkında keçirilə¬cəkdir.

Ümumi yığıncağın gündəliyi:
1. 2024-cü ilin maliyə hesabatı.
2. Direktorlar şurası və sədrinin seçilməsi.
3. İdarə heyətinin sədrinin seçilməsi.
4. Təftiş komissiyasının üzvlərinin seçilməsi.

Ünvan – Sabirabad şəhəri, Heydər Əliyev prospekti, Heydər Əliyev parkı.

## “Puta-Əyrici” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025-ci il saat 10.00-da “Puta-Əyrici” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:
1. Cəmiyyətin 2024-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinə aid idarə heyyətinin hesabatı.
2. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiri ünvanda tanış olmaq müm¬kündür.

Yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiqləyən sənədlə (vəkil edilmiş nümayən¬dələr notarial təsdiq olunmuş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

Əlaqə telefonları- +99412 545-85-25, +99455 812-62-28.

Ünvan – Bakı şəhəri, Qaradağ rayonu, Puta qəsəbəsi, inzibati bina.

*“Puta-Əyrici” ASC-nin idarə heyəti*

## “AZENCO” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025-ci il saat 14.00-da səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:
1. Cəmiyyətin idarə heyətinin illik hesabatı.
2. Cəmiyyətin illik hesabatının təsdiqi.
3. Cəmiyyətin müşahidə şurasının hesabatı.
4. Cəmiyyətin maliyyə-təftiş komissiyasının hesabatı.
5. Cəmiyyətin idarə heyətinin, müşahidə şurasının və maliyyə-təftiş komissiyasının yeni tərkibinin seçilməsi.
6. Cəmiyyətin maliyyə nəticələrinin müzakirəsi və mənfəətin bölüşdürülməsi.
7. Digər məsələlər.

Yığıncaq Mingəçevir şəhəri, Dövlət Dram Teatrının binasında keçiriləcəkdir.

Əlaqə telefonları- (012) 424-75-66, (014) 474-32-02.

Ünvan-Mingəçevir şəhəri, M. Füzuli küçəsi 29/16.

*“AZENCO”ASC-nin idarə heyəti*

# Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası

## *2025-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul elan edir*

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə – Doktorantura: Cəmi | Fəlsəfə doktoru proqramı üzrə – Doktorantura: Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən əyani | Fəlsəfə doktoru proqramı üzrə – Doktorantura: Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən qiyabi | Ödənişli əsaslarla hazırlıq üzrə illik haqlarının məbləği (manatla) | Elmlər doktoru proqramı üzrə – Doktorantura: Cəmi | Elmlər doktoru proqramı üzrə – Doktorantura: Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən əyani | Elmlər doktoru proqramı üzrə – Doktorantura: Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən qiyabi | Ödənişli əsaslarla hazırlıq üzrə illik haqlarının məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası | | | | | | | | | |
| 6213,01 | Musiqi sənəti | **2** | 2 | | | | | | |
| | **Cəmi:** | **2** | **2** | | | | | | |

Doktorantura və dissertantura şöbəsi, telefon – 012-493-22-01.
Ünvan- Bakı şəhəri, Şəmsi Bədəlbəyli küçəsi 98.

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Azərbaycan Rəssamlıq Akademiyası

Doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada “Ali təhsil və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər. Portal.edu.az vasitəsilə müraciətlərin göndərilməsi 2025-ci il mayın 13-dən (3 həftə müddətinə) həyata keçirilir.

**Fəlsəfə doktoru proqramı üzrə:**
**Doktorantura (dövlət sifarişli və ödənişli əsaslarla):**
**Təsviri sənət 6215.01 – əyani,1 yer .**
**Təsviri sənət 6215.01 – qiyabi,1 yer.**
**Dekorativ-tətbiqi sənət 6218.01 – əyani,1 yer.**
**Dekorativ-tətbiqi sənət 6218.01 – qiyabi,1 yer.**
**Əlaqə nömrəsi- 012-567-91-83.**
**Ünvan-Bakı şəhəri, H.Əliyev prospekti 26.**

***Rektorluq***

# Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Bakı Dövlət Universiteti

*2025-ci il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul elan edir*

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | Ödənişli əsaslarla hazırlıq üzrə illik təhsil haqlarının məbləği (manatla) |
|---|---|---|---|---|---|
| | | Doktorantura | | | |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən | | |
| | | | əyani | qiyabi | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1201.01 | Cəbr | **1** | 1 | | **4400** |
| 1202.01 | Analiz və funksional analiz | **2** | 1 | 1 | **4400** |
| 1203.01 | Kompüter elmləri | **5** | 1 | 4 (LDU üçün məqsədli 1 yer) | **4400** |
| 1206.01 | Ədədi analiz | **1** | | 1 | **4400** |
| 1207.01 | Əməliyyatlar tədqiqi | **1** | | 1 | **4400** |
| 1208.01 | Ehtimal nəzəriyyəsi | **1** | | 1 | **4400** |
| 1211.01 | Diferensial tənliklər | **3** | 1 | 2 | **4400** |
| 2002.01 | Deformasiya olunan bərk cisim mexanikası | **1** | 1 | | **4400** |
| 2003.01 | Maye, qaz və plazma mexanikası | **1** | 1 | | **4400** |
| 2203.01 | Elektronika | **1** | | 1 | **4400** |
| 2206.01 | Molekulyar fizika | **3** | 2 (GDU üçün 1 məqsədli yer) | 1 | **4400** |
| 2220.01 | Yarımkeçiricilər fizikası | **1** | 1 | | **4400** |
| 2222.01 | Nanoquruluşların fizikası və texnologiyası | **4** | 2 | 2 | **4400** |
| 2301.01 | Analitik kimya | **2** | 2 (ADPU üçün 1 məqsədli yer) | | **4400** |
| 2303.01 | Qeyri-üzvi kimya | **4** | 2 (GDU üçün məqsədli 1 yer) | 2 (ADPU üçün 1 məqsədli yer) | **4400** |
| 2306.01 | Üzvi kimya | **1** | | 1 (GDU üçün məqsədli yer) | |
| 2307.01 | Fiziki kimya | **1** | 1 | | **4400** |
| 2316.01 | Kimyəvi kinetika və kataliz | **1** | 1 | | **4400** |
| 2317.01 | Nanokimya və nanomateriallar | **1** | 1 | | **4400** |
| 2391.01 | Ekoloji kimya | **1** | | 1 | **4400** |
| 2406.01 | Biofizika | **1** | | 1 | **4400** |
| 2406.02 | Biokimya | **2** | 1 | 1 | **4400** |
| 2411.01 | İnsan və heyvan fiziologiyası | **1** | | 1 | **4400** |
| 2415.01 | Molekulyar biologiya | **1** | 1 | | **4400** |
| 2422.01 | Biotexnologiya (o cümlədən bionanotexnologiyalar) | **1** | 1 | | **4400** |
| 2426.01 | Ekologiya (elm sahələri üzrə) | **3** | 2 (GDU üçün 1 məqsədli yer) | 1 | **4400** |
| 2504.01 | Geodeziya | **1** | | 1 | **4400** |
| 2507.01 | Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları | **1** | | 1 | **4400** |
| 2511.01 | Torpaqşünaslıq | **2** | 1 | 1 (LDU üçün məqsədli yer) | **4400** |
| 2512.01 | Ümumi və regional geologiya | **1** | | 1 | **4400** |
| 2515.01 | Petrologiya, vulkanologiya | **1** | | 1 | **4400** |
| 2520.01 | Bərk faydalı qazıntıların geologiyası, axtarışı və kəşfiyyatı, minerageniya | **1** | | 1 | **4400** |
| 2529.01 | Xəritəşünaslıq, geinformatika | **1** | | 1 | **4400** |
| 3101.01 | Aqrokimya | **2** | 1 | 1 | **4400** |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi (sahələr üzrə) | **1** | 1 | | **4400** |
| 3356.01 | Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq | **1** | | 1 | **4400** |
| 5102.01 | Etnoqrafiya və etnologiya | **1** | | 1 | **4400** |
| 5301.01 | Daxili fiskal siyasət və dövlət maliyyəsi | **3** | 2 | 1 | **4000** |
| 5302.01 | Ekonometriya; iqtisadi statistika | **2** | 1 | 1 | **4000** |
| 5304.01 | İqtisadi fəaliyyət növləri | **3** | 2 | 1 | **4000** |
| 5308.01 | Ümumi iqtisadiyyat | **4** | 2 | 2 | **4000** |
| 5310.01 | Dünya iqtisadiyyatı | **2** | 1 | 1 | **4000** |
| 5312.01 | Sahə iqtisadiyyatı | **4** | 2 | 2 | **4000** |
| 5401.01 | İqtisadi coğrafiya | **4** | 3 | 1 | **4000** |
| 5406.01 | Hidrologiya | **1** | | 1 | **4000** |
| 5408.01 | Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası | **1** | | 1 | **4000** |
| 5409.01 | Geomorfologiya | **1** | | 1 | **4000** |
| 5411.01 | Meteorologiya | **1** | | 1 | **4000** |
| 5502.01 | Ümumi tarix | **6** | 3 (ADPU üçün 1 məqsədli yer) | 3 (GDU üçün 1 məqsədli yer) | **4000** |
| 5503.01 | Ölkələr tarixi | **2** | 1 | 1 | **4000** |
| 5503.02 | Vətən tarixi | **6** | 3 (GDU üçün 1 məqsədli yer) | 3 (ADPU üçün 1 məqsədli yer) | **4000** |
| 5507.01 | Beynəlxalq münasibətlər tarixi | **2** | 1 | 1 | **4000** |
| 5508.01 | Tarixi coğrafiya | **2** | 1 | 1 | **4000** |
| 5509.01 | Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları | **2** | 1 | 1 | **4000** |
| 5603.01 | Beynəlxalq hüquq; insan hüquqları | **2** | 1 | 1 | **4000** |
| 5606.01 | Dövlət və hüquq nəzəriyyəsi və tarixi; hüquq və dövlət haqqında təlimlər tarixi | **2** | 1 | 1 | **4000** |
| 5607.01 | Konstitusiya hüququ; bələdiyyə hüququ | **2** | 1 | 1 | **4000** |
| 5608.01 | Mülki hüquq: sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq | **3** | 1 | 2 | **4000** |
| 5609.01 | Əmək hüququ; sosial təminat hüququ | **2** | 1 | 1 | **4000** |
| 5610.01 | Təbii ehtiyatlar hüquqi; aqrar hüquq; ekologiya hüququ | **1** | 1 | | **4000** |
| 5611.01 | Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ | **2** | 1 | 1 | **4000** |
| 5612.01 | Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti | **2** | 1 | 1 | **4000** |
| 5614.01 | İnzibati hüquq; maliyyə hüququ; informasiya hüququ | **2** | 1 | 1 | **4000** |
| 5615.01 | Mülki proses | **1** | 1 | | **4000** |
| 5704.01 | Dil nəzəriyyəsi | **2** | 1 (GDU üçün 1 məqsədli yer) | 1 | **4000** |
| 5706.01 | Azərbaycan dili | **5** | 3 (ADPU üçün 1 və GDU üçün 1 məqsədli yer) | 2 (LDU üçün 1 məqsədli yer) | **4000** |
| 5707.01 | Slavyan dilləri | **1** | 1 | | **4000** |
| 5710.01 | Türk dilləri | **2** | | 2 (GDU üçün 1 məqsədli yer) | **4000** |
| 5713.01 | Sami dilləri | **1** | | 1 | **4000** |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik | **5** | 3 (ADPU üçün 1 və GDU üçün 1 məqsədli yer) | 2 (LDU üçün 1 məqsədli 1yer) | **4000** |
| 5715.01 | Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid | **1** | 1 | | **4000** |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | **2** | 1 (GDU üçün məqsədli yer) | 1 | **4000** |
| 5717.01 | Türk xalqları ədəbiyyatı | **2** | 1 | 1 (ADPU üçün 1 məqsədli yer) | **4000** |
| 5718.01 | Dünya ədəbiyyatı (ingilis, alman və fransız) | **3** | 2 | 1 | **4000** |
| 5720.01 | Jurnalistika | **4** | 2 | 2 | **4000** |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) | **2** | 1 | 1 | **4000** |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | **2** | | 2 | **4000** |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | **1** | | 1 | **4000** |
| 5808.01 | Sosial pedaqogika | **1** | | 1 | **4000** |
| 5901.01 | Beynəlxalq münasibətlər | **6** | 3 | 3 | **4000** |
| 5904.01 | Siyasi institutlar və sistemlər | **2** | 1 | 1 | **4000** |
| 5908.01 | Siyasi nəzəriyyə | **2** | 1 | 1 | **4000** |
| 5909.01 | Dövlət idarəçiliyi | **2** | 1 | 1 | **4000** |
| 5912.01 | Konfliktologiya | **2** | 1 | 1 | **4000** |
| 6102.01 | Yeniyetmə və uşaq psixologiyası | **2** | 1 | 1 | **4000** |
| 6104.01 | Pedaqoji psixologiya | **2** | 1 | 1 | **4000** |
| 6105.01 | Psixologiyada qiymətləndirmə və ölçmə | **1** | 1 | | **4000** |
| 6107.01 | Ümumi psixologiya | **4** | 2 (GDU üçün 1 məqsədli yer) | 2 (ADPU üçün məqsədli yer) | **4000** |
| 6108.01 | Geriatrik psixologiya | **1** | 1 | | **4000** |
| 6111.01 | Şəxsiyyətin psixologiyası | **1** | 1 | | **4000** |
| 6114.01 | Sosial psixologiya | **4** | 1 | 3 (UNEC üçün 1 məqsədli yer) | **4000** |
| 6116.01 | Klinik (tibbi) psixologiya | **2** | 1 | 1 | **4000** |
| 6117.01 | Hüquqi psixologiya | **1** | 1 | | **4000** |
| 6303.01 | Ümumi sosiologiya | **1** | 1 | | **4000** |
| 6307.01 | Sosial dəyişiklik və inkişaf | **1** | 1 | | **4000** |
| 6310.01 | Sosial problemlər | **2** | 1 | 1 | **4000** |
| 6312.01 | Sosiologiyanın nəzəriyyəsi, metodologiyası və tarixi | **1** | 1 | | **4000** |
| 6313.01 | Sosial struktur, sosial institutlar və proseslər | **1** | | 1 | **4000** |
| 6314.01 | Sosial iş | **2** | | 2 (ADPU üçün 1 məqsədli yer) | **4000** |
| 7202.01 | Fəlsəfi antropologiya | **1** | | 1 | **4000** |
| 7203.01 | Ümumi fəlsəfə | **2** | | 2 (GDU üçün 1 məqsədli yer) | **4000** |
| 7207.01 | Sosial fəlsəfə | **1** | 1 | | **4000** |
| 7210.01 | Fəlsəfə tarixi | **1** | | 1 | **4000** |

Doktoranturaya sənədlərin qəbulu 2025-ci il mayın 13-dən iyunun 3-dək “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi (TMİS)” vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir.

Doktoranturaya qəbul olmaq istəyən şəxslər https://portal.edu.az veb səhifəsində qeydiyyatdan keçməli və tələb olunan sənədləri portala yükləməlidirlər.

Qəbul qaydaları haqqında ətraflı məlumat: http://md.bsu.edu.az/az

**Qeyd-** Qəbul komissiyası tərəfindən doktoranturaya qəbul olmaq istəyən şəxslərin sənədləri yoxlanılır və ixtisas uyğunluğu müəyyən edilir.

Sənəd qəbulu prosesində doktoranturaya qəbul olmaq istəyən şəxsin nəzərdə tutulan elmi rəhbəri tərəfindən razılıq qərarı yazılı surətdə qəbul komissiyasına təqdim edilməlidir. Elmi rəhbərin rəyi olmadan sənəd qəbulu tamamlanmır. Qəbul komissiyası nəzərdə tutulan elmi rəhbərin rəyi və təqdim edilən digər sənədlər əsasında imtahanlara buraxılmaq haqqında qərar qəbul edir.

Qeyd edilənləri nəzərə alaraq, doktoranturaya qəbul olmaq istəyən şəxslər tələb olunan sənədləri portala yüklədikdən sonra, sənədlərini kağız şəklində (eləcə də elmi rəhbərin razılıq qərarını) Bakı Dövlət Universitetinin elmi fəaliyyətin təşkili və innovasiyalar mərkəzinin doktorantura şöbəsinə təqdim etməlidirlər.

Əla**qə** telefon- (+994 12) 539 -64 -58.

# Bakı Biznes Universiteti

## *2025-ci il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya*

# QƏBUL ELAN EDİR

Bakı Biznes Universiteti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 may 2025-ci il tarixli 275s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2025-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları”na əsasən 2025-ci il üçün aşağıdakı ixtisaslardan fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul elan edir:

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktorluğu proqramı üzrə | | |
|---|---|---|---|---|
| | | Doktoranturaya qəbul planı | | |
| | | Cəmi | O cümlədən: Dövlət sifarişli və ödənişli əsaslarla | |
| | | | əyani | qiyabi |
| 5303.01 | Mühasibat uçotu | 1 | 1 | - |
| 5308.01 | Ümumi iqtisadiyyat | 1 | 1 | - |
| 5312.01 | Sahə iqtisadiyyatı | 2 | 2 | - |
| | **Cəmi:** | **4** | **4** | **0** |

Doktoranturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytı vasitəsilə 2025-ci il mayın 13-dən 3 həftə müddətinə qeydiyyatdan keçməlidirlər.

“Xarici dil” üzrə imtahanın keçirilməsi 2025-ci il iyununu 22-də nəzərdə tutulmuşdur (Dövlət İmtahan Mərkəzi tərəfindən). “Xarici dil” imtahanını müvəffəqiyyətlə vermiş şəxslərin “Fəlsəfə” fənni üzrə imtahanda iştirakı 2025-ci il sentyabrın 2,3 və 4-də, ixtisas imtahanının keçirilməsi isə 2025-ci il sentyabrın 9,10 və 11-də nəzərdə tutulmuşdur.

Əlavə suallar üçün Bakı Biznes Universitetinə müraciət etmək lazımdır.

Əlaqə **telefonu-** (+99412) 431- 91- 18 (dax. 112/123) .

Ünva n- AZ-1122, Bakı şəhəri, H.Zərdabi küçəsi 88a.

***Rektorluq***

# “Loğman” ASC səhmdarlarının nəzərinə!

27 iyun 2025-ci il saat 11.00-da “Loğman” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Davud Aslan küçəsi 2F nömrəli ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. ASC-nin 2024-cü il üçün maliyyə hesabatının , balansının müzakirəsi və təsdiqi.
2. İdarə heyəti, müşahidə şurası və təftiş komissiyası üzvlərinin yenidən seçilməsi.
3. Cari məsələlər.

***İdarə heyəti***

# “Ceyranbatan Dəmir Beton” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025-ci il saat 11.00-da Abşeron rayonunun Ceyranbatan qəsəbəsində məscidin yanındakı binanın qarşısındakı bir mərtəbəli binada “Ceyranbatan Dəmir Beton “ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2024-cü il üçün illik maliyyə balansının, mənfəət və zərər hesabatlarının müzakirəsi və təsdiqi.
2. Yeni sədrin seçilməsi.
3. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

Əlaqə telefonu – 050-312-05-28.

***“Ceyranbatan Dəmir Beton “ASC-nin idarə heyəti***

# “Şəmkir Şərab-2” ASC səhmdarlarının nəzərinə!

28 iyun 2025-ci il saat 11. 00-da səhmdarların növbəti illik ümumi yığıncağı Şəmkir rayonu, Çinarlı qəsəbəsi M. Şəhriyar küçəsi 56 nömrəli ünvanda keçiriləcəkdir.

Səhmdarlar ümumi yığıncaqda iştirak etmək üçün şəxsiyyətlərini təsdiqləyən sənədi təqdim etməlidirlər.

Bütün səhmdarların iştirakı vacibdir.

İclasda müzakirə olunacaq məsələlər:

1. Nizamnamədə dəyişikliklər.
2. Müəssisənin bərpası üçün vəsait toplanması.

Nəzərinizə çatdırırıq ki, müəssisə fəaliyyət göstərmir.

***Müdiriyyət***

# “Gəncə Körpü Tikinti-2” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025-ci il saat 16.00-da “Gəncə Körpü Tikinti-2” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin idarə heyətinin hesabatı.
2. 2024-cü maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və illik hesabatın təsdiq olunması.
3. 2024-cü maliyyə ili üzrə dividendlərin bölüşdürülməsinin müzakirə olunması.

Ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda qanunvericiliyə müvafiq qaydada müraciət etməklə tanış olmaq mümkündür.

Ümumi yığıncaq iştirakçılarının qeydiyyatı, yığıncağın başlanmasına 2 ( iki) saat qalmış göstərilən ünvanda aparılacaqdır. Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi, yaxud şəxsiyyəti təsdiq edən digər sənəd təqdim olunmalıdır. Səhmdarların illik ümumi yığıncağında səhmdar özü və yaxud notarial qaydada təsdiq edilmiş etibarnamə əsasında səlahiyyətli nümayəndə iştirak edə bilər.

***“Gəncə Körpü Tikini-2” ASC-nin idarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 98 (30792) 14 may 2025-ci il, çərşənbə

**İdman**

## Hokkeyçilərimizin Dubay uğuru

**Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən "Galaxy Cup" turniri başa çatıb.**




Azərbaycan ilk dəfə olaraq həmin yarışda təmsil olunub. Nüfuzlu yarışda "Ocaq Sport" klubunun 2013–2015-ci il təvəllüdlü 10 istedadlı hokkeyçisi iştirak edib.

Komandamız 6 kollektiv arasında üçüncü yerin sahibi olub. Qapıçı İlkin Qəmbərov isə komandanın ən yaxşı oyunçusu adına layiq görülüb.

## Krakovda 17 medal

**Polşanın Krakov şəhərində keçirilən batut gimnastikası və tamblinq üzrə beynəlxalq turnirdə Azərbaycan millisi 17 medal qazanıb.**



Batut gimnastikasında Fərhad Mustafayev, Samirə Hüseynova, Şəfiqə Hümbətova qızıl medal qazanıblar. Ammar Baxşalıyev qızıl və bürünc, Nikita Koleşnikovla Fərhad Vəliyev isə gümüş və bürünc medala yiyələniblər. Komandamızın digər üzvləri Muhammed Həsənli 2-ci, Ayan Şabanova və Aylin Ağazadə 3-cü yerləri tutublar.

Tamblinqdə isə Sənan Rzazadə, Tofiq Əliyev qızıl, Aleksey Karataşov, Mehdi Əliyev gümüş, Adil Hacızadə bürünc medal əldə ediblər.

***L.AZAD***
***XQ***

**HAVA**

## Yenə də Abşeronda yağmursuz, bölgələrdə yağıntılı, dumanlı və küləkli

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 14-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, səhər arabir güclənəcək. Gecə 14-18°, gündüz 18-20° isti olacaq. Atmosfer təzyiqi 750 mm civə sütunundan 760 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz olacaq.**



Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 20-25°, dağlarda gecə 3-7°, gündüz 10-15° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# Bakı daha bir beynəlxalq yarışa hazırdır

## *Əsas hədəf Dünya Kubokuna vəsiqə qazanmaqdır*




**Mayın 24-25-də ölkəmizdə ilk dəfə olaraq 3x3 basketbol üzrə Dünya Kubokunun seçmə mərhələ oyunları keçiriləcək. Paytaxt Bakıda həm kişi, həm də qadın millilərimiz əsas mərhələyə vəsiqə qazanmaq uğrunda mübarizə aparacaqlar. "B" qrupunda kişi millimiz Kanada və Böyük Britaniya, qadın yığmamız isə Latviya və Misir komandalarına qarşı yarışacaq. "A" qrupunda kişilərin turnirində Monteneqro, Ruanda və İran, qadınların yarışlarında isə Çili, Çin Taypeyi və Braziliya milliləri qələbə qazanmağa çalışacaqlar. Kişi millimiz ilk oyununu mayın 24-də saat 19:05-də Kanadaya, qadın kollektivimiz isə saat 18:15-də Misirə qarşı keçirəcək. Qeyd edək ki, "Sea Breeze" istirahət mərkəzində təşkil ediləcək yarışlarda reqlamentə əsasən, seçmə mərhələ qruplarını ilk iki yerdə tamamlamış komandalar yarımfinala vəsiqə qazanacaqlar.**

Azərbaycan Basketbol Federasiyasının (ABF) vitse-prezidenti Fərrux Mahmudov "Xalq qəzeti"nə açıqlamasında rəqiblərimiz olan Latviya, Misir, eləcə də Kanada və Böyük Britaniya təmsilçilərinin 3x3 basketbolda ənənələri olan komandalar olduğunu dedi: "Şanslarımız var və ondan yetərincə istifadə etməliyik. Rəqiblər seçmə mərhələnin ən güclüləri sayılır. Uğurlu nəticə əldə etmək üçün təmsilçilərimizin sona qədər mübarizə aparacaqlarına inanırıq. Ölkəmizdə ilk dəfə keçiriləcək bu mötəbər yarışda yaxşı nəticəyə ümid edirik".

Federasiya rəsmisi qadınlardan ibarət yığmaya cəlb olunan Arika Karter və Brianna Frezerlə bağlı da fikirlərini bölüşüb. F.Mahmudovun sözlərinə görə, hər iki basketbolçu yaxşı formadadır. Öz klublarında keçirdikləri mövsümdə fərqləniblər.

Federasiyanın baş katibi Vüqar Əzimov Azərbaycan millisinin seçmə mərhələdə yaxşı çıxış edəcəyinə inandığını bildirdi: "Qadın yığmamız öz qrupunun favoriti sayılır. Komandamızı zəif hesab etmirik. Deyərdim ki, Latviya və Misirdən güclüyük. Rəqabət gərgin olacaq. Eyni zamanda kişi basketbolçularımızdan da yaxşı oyun sərgiləmələrini gözləyirik".

Dünya çempionatının seçmə mərhələsində kişilərdən ibarət Azərbaycan millisinin baş məşqçisi olacaq Zaur Paşayev komandanın hazırda məşq keçdiyini dedi: "Yığma üzvləri Amil Həmzəyev, Kamran Əliyev, Şirzad Şirzadov yarışda olduqları üçün məşqə qatıla bilmirlər. Türkiyədə oyunçumuz Orxan Aydın da bir neçə gündən sonra komandaya qoşulacaq. Ümumiyyətlə, yığma mayın 15-dən tam olaraq məşqlərə davam edəcək. Yarışda qalib gəlmək istəyirik. Çalışacağıq ki, Dünya Kubokuna vəsiqə qazanacaq 3 komandadan biri biz olaq. Rəqiblərdən Kanada ilə heç oynamamışıq. Amma İngiltərə yığması ilə yoldaşlıq oyunu keçirmişik. A qrupundan isə İranla oynamışıq. Əsas hədəf Dünya Kubokuna düşməkdir".

Yarımfinal cütlərinin qalibləri və yarımfinal cütlərində məğlub olan komandalar arasında keçiriləcək oyunun qalibi Dünya Kubokunun əsas mərhələsində iştirak etmək hüququ qazanacaq. Mötəbər yarışın əsas mərhələsi Ulan-Batorda iyunun 23-29-da olacaq.

***Leyla QURBANOVA***
***XQ***

# Azərbaycan dilçiliyində "Sələflər və xələflər"

## Bu mövzuda AMEA-da respublika elmi konfransı keçirilib




**Dünən AMEA Nəsimi adına Dilçilik İnstitutunun təşəbbüsü ilə Ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş gənc dilçi doktorant və dissertantların "Sələflər və Xələflər" Respublika elmi konfransı keçirildi.**

Konfransın əsas məqsədi ölkəmizin görkəmli dilçilərini yeni nəslə tanıtmaq, xüsusilə gənc dilçiləri Azərbaycanın paytaxtında bir araya gətirmək, onları sələflərin elmi irsi ilə tanış etmək, beynəlxalq əməkdaşlığı genişləndirməkdir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli çıxış edərək bildirdi ki, akademiyanın demək olar ki, bütün institutlarında bu cür tədbirlər keçirilir, məqalələr çap olunur, kitablar nəşr olunur. Bütün bunlar, ölkədə gənclər arasında Azərbaycançılıq düşüncəsi və vətənpərvərlik hissinin daha da gücləndirilməsinə öz töhfəsini verir.

Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli qeyd etdi ki, son illərdə gənc alimlərin beynəlxalq və respublika konfranslarının sayı artıb. Nəsimi adına Dilçilik İnstitutu gəncləri yeniliklərə, innovasiyalara, yeni texnologiyalara yönəltmək istiqamətində fəaliyyət göstərir:

– Bu gün təşkil olunan gənc tədqiqatçıların Respublika elmi konfransı da məhz bu fəaliyyətin tərkib hissəsidir. İnanıram ki, konfranslar gənclərin gələcəkdə ciddi tədqiqatçı kimi yetişməsində əhəmiyyətli rol oynayacaq. Çünki hər bir elmi konfrans əldə olunmuş elmi nəticələri təqdim etmək üçün yeni imkanlar deməkdir.

AMEA Nəsimi adına Dilçilik İnstitutu Həmkarlar Təşkilatının sədri, filologiya elmləri doktoru Qətibə Mahmudova, Dilçilik İnstitutu Gənc Alimlər Və Mütəxəssislər Şurasınının sədri Arzu İsgəndərzadə çıxış edərək, ümummilli lider Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş dövlət gənclər siyasətinin Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxdığını vurğuladılar.

Sonra konfransda doktorantlar Ülkər Xəlilli - Azərbaycan dilinin "insanın emosional vəziyyəti" frazeosemantik sahəsində "təəccüb" , Saffet Alp Yilmaz "Qərbi Azərbaycanda zootoponimlərin mənzərəsi", Tünzalə İsmayilova "XIV –XV əsr qıpçaq lüğətlərində toxuculuq leksikası" adlı məruzələrlə çıxış etdilər.

Qeyd edək ki, gələcəkdə təşkil olunacaq bölmə iclaslarında dilçiliyin müxtəlif sahələrini əhatə edən 50-dən artıq məruzənin dinləniləcəyi nəzərdə tutulur. Bu tədbirlərdə Azərbaycanın tanınmış alimləri ilə yanaşı, gənc nəslin nümayəndələri də elmi məruzələrlə çıxış edəcəklər.

***Fidan SALMANOVA***
***XQ***

## Paytaxt məktəbliləri II Beynəlxalq Turan Film Festivalında




**Paytaxt məktəbliləri Türkiyənin İzmir şəhərində keçirilən II Beynəlxalq Turan Film Festivalında mükafata layiq görülüblər.**

Bu barədə mətbuata Bakı Şəhəri üzrə Təhsil İdarəsindən məlumat verilib. Bildirilib ki, 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvləri olan 116 nömrəli tam orta məktəbin şagirdləri 10 yaşlı Kövsər Qurban və 7 yaşlı İnci Qurban "Özəl prestij mükafatları - gənc istedad mükafatı"na layiq görülüb və "Qızıl alma" kuboku ilə təltif ediliblər. Azərbaycan məktəbliləri hazırladıqları qısametrajlı animasiya filmləri ilə türkdilli ölkələr arasında festivalın yeganə kiçikyaşlı qalibləridir.

Qeyd edək ki, II Beynəlxalq Turan Film Festivalına 80 ölkədən 1675 film göndərilib. On bir film mükafata layiq görülüb.

***XQ***

## Qusarın Mucuq kəndinə ilk dəfə təbii qaz verilib



**Rayon mərkəzindən 40 kilometr uzaqda yerləşən Mucuq kəndinin qazlaşdırılması üçün müxtəlif diametrli borularla 5,8 kilometr daşıyıcı və 18,5 kilometr məhəllədaxili qaz xətləri çəkilib, qaz tənzimləyici şkaf quraşdırılıb.**

Kəndə təbii qazın verilməsi münasibətilə keçirilən mərasimdə Qusar Rayon İcra Hakimiyyətinin başçısı Sahir Məmmədxanov, Milli Məclisin deputatı Azər Badamov, SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin təmsilçiləri, ictimaiyyət nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Bildirilib ki, Qusar rayonu ərazisində şəhər və kənd yaşayış məntəqələrinin qazlaşdırılması və əhalinin təbii qazla təchizatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür.

Çıxış edən sakinlər əhalinin sosial problemlərinin həllinə göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Şəhid atası Camal Heydərova evinin qazlaşdırılması layihəsi təqdim olunduqdan sonra, kəndə qazın verilişini bildirən rəmzi məşəl alovlandırılıb.

***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3469
SİFARİŞ 978
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00